# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 242 (8835) BAZAR 7 noyabr 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV zəfəri - xilaskarlıq missiyası



**Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində əldə olunmuş Qələbənin ildönümünü - Zəfər bayramını böyük sevinclə və böyük ümidlərlə qeyd edir. Azərbaycan gələcəyə daha böyük inamla baxır, öz yoluna əmin addımlarla, qətiyyətlə davam edir.**

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş və qalib xalq kimi özünü dünyaya ləyaqətlə təqdim etmişdir. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatmışdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq. Biz sonsuz qürur hissi ilə yurd yerlərimizə, doğma Qarabağa qayıdırıq. Bu haqqı bizə qaytardıqlarına görə Ali Baş Komandanımıza, Silahlı Qüvvələrimizə əbədi minnətdarlıq borcumuz var. Odur ki, biz qürurla söyləyirik: Müdrik rəhbərimizə, qəhrəman ordumuza, mətin xalqımıza eşq olsun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

Bax: səh. 2-3

# Böyük qələbənin mükəmməl diplomatiyası

**İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsi və işğal olunmuş torpaqları azad etməsi tariximizə qızıl hərflərlə yazılmışdır. Bu qələbənin əldə edilməsində Azərbaycan Ordusunun şücaəti və qəhrəmanlığı ilə yanaşı, Prezident İlham Əliyevin misilsiz diplomatiyası əhəmiyyətli rol oynamışdır.**

Bu qələbənin istər hərbi, istərsə də diplomatik aspektləri hazırda dünya ekspertləri tərəfindən ciddi şəkildə araşdırılmaqdadır. İlham Əliyevin "Qarabağ Azərbaycandır" çağırışı ilə böyük Zəfərə aparan diplomatiyası Azərbaycanın dünya birliyi tərəfindən qüdrətli bir ölkə kimi yenidən kəşf olunmasına gətirib çıxardı. Ölkəmiz nəinki regionda, eləcə də beynəlxalq aləmdə tamamilə yeni bir reallıq yaratdı. Bu diplomatiya Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin və diplomatik uğurlarının davamı və bir daha təsdiqi idi.

## Ərazilərimizin işğalının aradan qaldırılması istiqamətində aparılan danışıqlar

Azərbaycan Respublikası müstəqilliyinin ilk günlərindən Ermənistanın hərbi təcavüzü ilə üzləşmiş və nəticədə beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizi (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf 7 rayon) işğal olunmuş, həmin ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən etnik təmizləmə həyata keçirilərək bütün azərbaycanlı əhali öz evlərindən zor gücünə qovulmuşdur. Ermənistan tərəfindən dünyanın müasir tarixinin ən dəhşətli soyqırımı olan Xocalı faciəsi törədilmişdir. Bir milyona yaxın azərbaycanlının fundamental insan hüquqları pozulmuş, onlar qaçqın və məcburi köçkünə çevrilmişlər.

Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı beynəlxalq ictimaiyyətin mövqeyi həm dövlətlər tərəfindən ikitərəfli əsasda qəbul edilmiş sənədlərdə, həm də beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələrdə öz əksini tapmışdır.

Ardı 4-cü səh.

## 9 Noyabr Dövlət Bayrağı Günüdür

# Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır

### Üçrəngli bayrağınla məsud yaşa!

**Ermənistan öz layiqli cavabını döyüş meydanında aldı. Düşmənin silahlı qüvvələri qəhrəman Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. Otuz ilə yaxın davam edən həsrətimiz, nigarançılığımız, narahatlığımız bitdi. Bu gün yağılardan geri aldığımız ərazilərimizdə - Qubadlıda, Cəbrayılda, Zəngilanda, Füzulidə, Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında... Azərbaycan bayrağı dalğalanır.**

Bax: səh. 8



# İLHAM ƏLİYEV zəfəri

**Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərin birinci ildönümünü qeyd etdiyimiz bu günlərdə hər birimiz haqlı qürur, fəxarət hissi keçiririk. Hər bir Azərbaycan vətəndaşı çox xoşbəxtdir ki, bu tarixi, şərəfli anlara şahidlik edir, möhtəşəm tarixi günləri yaşayır. Və mən əminəm ki, illər keçsə də, Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm qələbəni, bu zəfərin memarlarını heç vaxt unutmayacaqdır!**



Əlbəttə, Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Amma Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində qazandığı zəfər, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. Bu tarixi qələbə sayəsində Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımızı azad edərək həm tarixi ədaləti, həm də ərazi bütövlüyümüzü bərpa etmiş, BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın kağız üzərində qalan qətnamələrini öz gücü, qüdrəti hesabına həyata keçirmişdir.

## Özünü cəzasızlıq mühitində hiss edən Ermənistanın işğalçılıq siyasəti, hərbi-siyasi təxribatları

Ötən əsrin sonlarında dünyada və regionda baş verən və keçmiş sovetlər birliyinin dağılması ilə nəticələnən proseslər Azərbaycan xalqı üçün kifayət qədər mürəkkəb hadisələrlə müşayiət olunmuşdur. Müttəfiq respublikalar içərisində Azərbaycan müstəqilliyin bərpası istiqamətində ən çətin və ağır yolu keçmişdir. Hələ 1988-ci ildən Azərbaycan Ermənistanın torpaq iddiası ilə əlaqədar başlanmış münaqişəyə cəlb olunmuş, 1991-ci ildə əraziləri işğala məruz qalmışdır. Təəssüf ki, o dövrdə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar yaranmış mürəkkəb ictimai-siyasi vəziyyətdən istifadə edən ayrı-ayrı qüvvələr daxildə vəziyyəti daha da mürəkkəbləşdirmiş, ərazilərimizin işğalının qarşısını almaq, ölkəmizi bu münaqişədən xilas etmək üçün tədbirlər həyata keçirmək əvəzinə bütün fəaliyyətlərini hakimiyyət uğrunda mübarizəyə həsr etmişlər. 1991-1993-cü illərdə Azərbaycanda mövcud olan siyasi böhran, hakimiyyətdəki qrupların səriştəsizliyi və yarıtmaz fəaliyyəti ölkədə bütün sferalarda ciddi geriliklər və kataklizmlərə rəvac vermiş, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdir. Ölkəmizdə mövcud olan bu ağır şəraitdən istifadə edən Ermənistan isə bir-birinin ardınca şəhər və rayonlarımızı işğal etmiş, soyqırımları və qanlı qətliamlar törətmişdir.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının təkid və tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdaraq, xilaskarlıq missiyasını öz üzərinə götürmüş, Azərbaycanın dövlətçiliyini, ölkəmizin müstəqillyini xilas etmişdir. Ulu Öndər ilk günlərdən etibarən, Azərbaycanın üzləşdiyi digər ciddi və həlli mürəkkəb olan məsələlərlə yanaşı, təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın ərazi iddiaları və hərbi təcavüzünün qarşısının alınması, torpaqlarımızın işğaldan azad olunması məsələsini prioritet elan etmişdir. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün Ümummilli Liderin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər onun apardığı ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir. Ulu Öndər bütün danışıq və görüşlərdə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal faktının aradan qaldırılması məsələlərini qətiyyətlə irəli sürmüş, ölkəmizin bu ədalətli mövqeyinin bütün beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi və qəbul edilməsi üçün mümkün olan bütün addımları atmışdır.

1993-cü ildə Ermənistanın işğal altında saxladığı Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Sonrakı dövrlərdə isə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı kimi digər mühüm beynəlxalq təşkilatlar da eyni tələblə qətnamə və qərarlar qəbul etmişdir. Bütün beynəlxalq sənədlərdə Azərbaycanın ərazi bütövlüyü tam təsdiq edilmiş, Ermənistanın işğalçılıq siyasəti həyata keçirməsi və torpaqlarımızı işğal etməsi faktı sənədlərdə təsbit edilmişdir.

1994-cü ildə imzalanan atəşkəs müqaviləsi ilə aktiv döyüşlər dayandırılsa da, Ermənistan hərbi-siyasi təxribatlarını davam etdirmişdir. Buna paralel olaraq, münaqişənin həllinə vasitəçilik aparmaq məqsədilə ATƏT-in Minsk qrupu yaradılmış, lakin bu institutun 30 ilə yaxın davam edən vasitəçiliyi heç bir nəticə verməmişdir. Əlbəttə ki, uzun illər ərzində münaqişənin sülh yolu ilə nizama salınması üçün göstərilən beynəlxalq səylərin nəticə verməməsinin bir səbəbi Ermənistanın beynəlxalq hüquq normalarına və prinsiplərinə məhəl qoymaması, danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutması olmuşdursa, digər səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, bir sıra hallarda işğalçı dövlətlə işğala məruz qalan dövlətin eyni tutulması, beynəlxalq birliyin tələblərinə, beynəlxalq qaydalara məhəl qoymayan Ermənistan dövlətinə münasibətdə lazımi qətiyyət göstərilməməsi olmuşdur.

## Azərbaycan problemin sülh yolu ilə həllinə dair bütün təşəbbüsləri dəstəkləmişdir

Azərbaycan sülh danışıqlarına hər zaman sadiq olmuşdur. Ölkəmiz münaqişənin sülh yolu ilə həllinə dair bütün təşəbbüsləri dəstəkləmiş, problemin ölkəmizin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həlli istiqamətində lazımi iradə ortaya qoymuşdur. Buna paralel olaraq, əgər sülh danışıqları nəticə verməsə, danışıqlar uğurla tamamlanmasa, bütün digər vasitələrlə, o cümlədən hərbi yolla özünün ərazi bütövlüyünü bərpa edə biləcəyini bəyan etmişdir.

Bu dövrdə Ermənistanın siyasi rəhbərliyi müxtəlif tədbirlərdə və görüşlərdə təxribat xarakterli bəyanat və fikirlər səsləndirmiş, münaqişənin sülh danışıqları vasitəsilə həllinə maraqlı olmadığını göstərmişdir. Ermənistanın hazırkı baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərində iki il əvvəl verdiyi bəyanat, bu ölkənin o zamankı müdafiə naziri tərəfindən səsləndirilmiş "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, separatçıların qondarma "prezidentinin" Şuşada keçirilən dırnaqarası "inauqurasiyası", həmçinin separatçıların dırnaqarası "parlamentinin" Xankəndidən Şuşaya keçirilməsi haqqında Ermənistanın qərarı açıq şəkildə Azərbaycanı təhrik etməyə yönəlmişdir.

Artıq keçmişdə qalmış münaqişənin həllində 2020-ci il həlledici il olmuşdur. 27 sentyabr tarixində Ermənistanın növbəti təxribatı bu ölkənin işğalçılıq siyasətinin iflasa uğraması ilə nəticələnmişdir. Hərçənd ki, Ermənistan bundan öncə də təxribatlar törətmiş, Azərbaycan Ordusunun cavab tədbirləri onlara dərs olmamışdır. Son bir neçə ildə əvvəlcə 2014-cü ilin noyabr ayında, daha sonra 2016-cı ilin aprel ayında Ermənitan silahlı təxribata əl atmış, mövqelərimizə hücum etmiş, yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Lakin qüdrətli Azərbaycan Ordusu Ermənistana tutarlı cavab vermiş, öz doğma torpaqlarını müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Təəssüf ki, sonrakı 4 il ərzində də Ermənistan bütün imkanları ilə yalnız ona sərf edən mövcud status-kvonu möhkəmləndirməyə, danışıqlar formatından münaqişənin əbədi dondurulması aləti kimi istifadə etməyə çalışmışdır. Bu dövrdə Ermənistan hakimiyyəti danışıqlar prosesini pozmaq məqsədilə hərbi, siyasi təxribatlarına ara verməmişdir. Əvvəlcə iyulun 12-də münaqişə regionundan çox uzaqda yerləşən Tovuz rayonunda, Azərbaycanın qərbində, Ermənistan-Azərbaycan sərhədindəki kəndlərimizə və hərbi mövqelərimizə hücum etmişdir. Daha sonra avqustun 23-də Ermənistan ordusu tərəfindən Azərbaycan ərazisinə daxil olmaq və terror aktlarını törətmək üçün göndərilmiş diversiya qrupu dağıdılmış və bu diversiya qrupunun başçısı yaxalanmışdır. Nəhayət, sentyabrın 27-də Ermənistanın daha genişmiqyaslı təxribatları Azərbaycanın səbir kasasını daşırmış və 44 günlük Vətən müharibəsi başlamışdır.

## "Qarabağ Azərbaycandır və nida" ifadəsi bizim milli mübarizəmizin rəmzinə çevrilmişdir

Sentyabrın 27-də başlayan Vətən müharibəsi cəmi 44 gün çəkmiş və Azərbaycan Ordusunun əks-hücum əməliyyatları Ermənistan ordusunun tam məğlubiyyəti ilə başa çatmışdır. Ermənistan bu məğlubiyyət nəticəsində kapitulyasiya aktını imzalamağa məcbur olmuşdur. Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə rəhbərlik etdiyi Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşü siyasi müstəvidə də qazanılan qələbə ilə başa çatmışdır. Nəhayət, 10 noyabr 2020-ci il tarixində Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur olmuşdur. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat Azərbaycan torpaqlarının işğalına son qoymuş, bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edilmiş, 2020-ci il dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarılmışdır.

Azərbaycan Ordusu döyüş meydanında Zəfər yürüşünü davam etdirdiyi günlərdə Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, bir çox ölkənin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırmış, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etmişdir. Bütün dünya həqiqətləri məhz Azərbaycanın dövlət başçısından, ən etibarlı mənbədən əldə etmişdir. Azərbaycan işğalçı ölkənin və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etmişdir. **"Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi"** deyən möhtərəm Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr təmin olunmuşdur. Xalqımız öz Liderinin, Ali Baş Komandanının ətrafında hər gün daha sıx birləşmiş, birliyimiz hər gün daha da möhkəmlənmişdir. "Qarabağ Azərbaycandır və nida" ifadəsi bizim milli mübarizəmizin rəmzinə çevrilmişdir. Bu birlik bizi Qarabağa qaytarmışdır! Möhtərəm Prezident İlham Əliyevin təbirincə desək, **"Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"**

Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratmış və Azərbaycan bütün platformalarda gücünü göstərmişdir. Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyev də bu tarixi qələbəni şərtləndirən mühüm amillər sırasında Azərbaycan xalqının birliyinin, hər bir vətəndaşımızın dövlətimizə, Ali Baş Komandana və Azərbaycan Ordusuna sarsılmaz dəstəyinin önəmini xüsusi vurğulamış, bu tarixi Zəfərin bizim hamımızın Qələbəsi olduğunu bəyan etmişdir: **"Hər birimiz, hərə öz yerində öz töhfəsini ümumi Qələbəmizə, ümumi inkişafımıza verərək bu günü, bu müqəddəs günü yaxınlaşdırırdıq. Təsadüfi deyil ki, İkinci Qarabağ müharibəsi bizdə Vətən müharibəsi adlandırılır. Çünki hər birimiz, hər bir Azərbaycan vətəndaşı bu günü nəinki səbirsizliklə gözləyirdi, bu günə inanırdı, eyni zamanda öz əməyi ilə bu günü yaxınlaşdırırdı. Bizim üçün, xalqımız üçün torpaqlarımızın azad olunmasından daha vacib məsələ heç vaxt olmamışdır. Mən hesab edirəm ki, Qələbəmizin əsas amillərindən biri də məhz budur".**

## Dünya miqyasında ən güclü ordular sırasında olan Azərbaycan Ordusu öz qüdrətini bir daha nümayiş etdirdi

Təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın inkişafı üçün yeni imkanlar açmış bu şanlı qələbənin əldə edilməsi bir neçə amillə bağlıdır. Əlbəttə, ən mühüm amil son 28 il ərzində Azərbaycanda bərqərar olmuş səriştəli, etibarlı və məsuliyyətli siyasi rəhbərlik fenomenidir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün reallıqlarına və çağırışlarına uyğun, böyük məharətlə həyata keçirilən siyasət, ölkəmizin güclü iqtisadi əsaslara malik olması Vətən müharibəsində qələbəni təmin edən ən mühüm amillərdən biri olmuşdur. 1993-cü ilin iyununda hakimiyyətə qayıtdıqdan sonra Ulu Öndər Heydər Əliyevin həyata keçirməyə başladığı, daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yaradıcı surətdə davam etdirdiyi quruculuq və inkişaf strategiyası Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə və geniş bir bölgədə söz sahibinə çevirmişdir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı, uzunömürlü tərəqqi, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuşdur. Hazırda Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Ölkəmizin iqtisadi sütunları möhkəmdir, kifayət qədər böyük iqtisadi və maliyyə imkanlarına malikdir. Azərbaycan heç bir beynəlxalq donor təşkilatından asılı olmadan milli iqtisadiyyatını inkişaf etdirmək gücündədir. Bunu işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı layihə və tədbirlər də bir daha aydın şəkildə sübuta yetirir.

Dayanıqlı iqtisadi inkişaf Azərbaycanda bütün sahələrdə olduğu kimi, qüdrətli ordu quruculuğu istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirməyə imkan vermiş, ölkəmizin müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələri formalaşdırılmışdır. Bu istiqamətdə də həyata keçirilən dövlət siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz Ümummilli liderin rəhbərliyi ilə Azərbaycanda peşəkar ordu quruculuğu prosesinə start verilmiş, ordudakı pərakəndəlik aradan qaldırılmış, maddi-texniki təchizat məsələlərinə ciddi diqqət ayrılmışdır. Azərbaycan Silahlı Qüvvələrinin inkişafına yönəlmiş tədbirlər 2003-cü ildən sonra da ardıcıllıqla və uğurla davam etdirilmişdir. Bu dövrdə milli ordumuzda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, Ordunun döyüş qabiliyyətinin artırılmasına xüsusi diqqət ayrılmışdır. Orduda vətənpərvərlik ruhu daha da yüksəlmiş, fədakar, böyük bacarığa və şücaətə malik qüvvə formalaşmışdır. Yeri gəlmişkən, qeyd etmək yerinə düşər ki, Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən əsgər və zabitlərimizin əksəriyyəti məhz müstəqillik dövründə dünyaya gəlmiş gənclərimiz olmuşdur.

Son illərdə Ordumuzun maddi-texniki bazası əsaslı şəkildə gücləndirilmiş, Silahlı Qüvvələrimiz ən müasir döyüş texnikaları ilə, silah-sursatla təmin olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin etmiş, qısa müddətdə silah, hərbi sursat istehsalına başlanılmışdır. Görülən məqsədyönlü tədbirlər nəticəsində dünya miqyasında 50 ən güclü ordu sırasında olan Azərbaycan Ordusunun texniki imkanları böyük dərəcədə artmış və İkinci Qarabağ müharibəsində biz bunu bir daha nümayiş etdirdik. Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi şücaət, yüksək döyüş qabiliyyəti və apardığı əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazılmışdır. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın kənd, çoxsaylı strateji yüksəklik azad olunmuş, Ermənistan ordusu şanlı Azərbaycan Ordusu tərəfindən darmadağın edilmişdir. İşğalçı ölkə Azərbaycanın Şanlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini dərk etmiş və diz çökmüşdür! Misilsiz fədakarlıq və əzmkarlıq sayəsində Şuşanı, digər şəhər və kəndlərimizi düşməndən təmizləyən əsgər və zabitlərimizin qəhrəmanlığı bizim qürur mənbəyimizdir. Mən bir daha torpaqlarımızın azadlığı uğrunda canından keçmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm!

## İnkişaf, təhlükəsizlik və tərəqqi dövrü

Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanatla münaqişəyə son qoyulmuşdur və Dağlıq Qarabağ münaqişəsi artıq keçmişdə qalmışdır. Azərbaycan üçtərəfli bəyanatda əksini tapan bütün öhdəliklərini yerinə yetirməkdədir. Azərbaycan regionda davamlı sülh və təhlükəsizliyin təmin olunması üçün bütün lazımi addımları atır.

# - xilaskarlıq missiyası

Təəssüf ki, Ermənistan tərəfindən törədilən təxribatlar regionda davamlı sülhün təmin olunmasına maneə törədir. 10 noyabr bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməmişdir. Onlar tərəfindən təqdim olunan bəzi xəritələrin dəqiqliyi isə yalnız 25 faizdir. Bu günədək Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində 150 mülki vətəndaş və hərbçimiz həlak olmuş və ya ağır yaralanmışdır. Bu da bir daha Ermənistanın beynəlxalq hüquqa qarşı saymazyana münasibətinin göstəricisidir. Baxmayaraq ki, Azərbaycan münaqişənin taleyini həll etdikdən sonra qarşı tərəfə dəfələrlə çağırış edərək sülh danışıqlarına başlamağa, sülh razılaşması üzərində çalışmağa, sərhədin delimitasiyasına hazır olduğunu bəyan etmişdir.

44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbə Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin, yeni bir dövrün başlanğıcı olmuşdur. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır. Bu mərhələdə Azərbaycan dövlətinin qarşısında duran vəzifələr, hədəflər cari il yanvarın 6-da cənab Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə çox aydın şəkildə ifadə edilmişdir. Əlbəttə, torpaqlarımızın azad olunması həm ölkəmizin, həm də bölgənin qarşısında yeni perspektivlər açmışdır. Postmünaqişə dövründə sülhün təmin olunması və saxlanması, bərpa və yenidənqurma fəaliyyətləri və məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtması hazırda Azərbaycan dövlətinin qarşısında dayanan prioritetlərdir.




Baxmayaraq ki, azad edilmiş ərazilərdə təqribən 30 illik işğal dövründə demək olar ki, bütün infrastruktur, yaşayış binaları, evlər, tarixi, mədəniyyət abidələri tamamilə dağıdılmış, talan edilmişdir, işğaldan azad olunmuş ərazilərimizin də ən yüksək səviyyədə yenidən qurulacağına, şəhər və rayonlarımızın bərpa olunacağına hər birimiz əminik. Azərbaycan bundan əvvəl də, Vətən müharibəsi dövründə də bütün dünyaya sübut etmişdir ki, o, qüdrətli dövlətdir və qarşısında duran bütün vəzifələri yerinə yetirmək gücündədir. Artıq genişmiqyaslı bərpa işlərinə start verilmiş və quruculuq işləri, infrastruktur layihələri uğurla həyata keçirilməkdədir.

Qeyd etmək yerinə düşər ki, Azərbaycanın işğaldan azad edilən ərazilərin bərpası üzrə kifayət qədər təcrübəsi var. Hələ 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə uğurlu Horadiz əməliyyatı nəticəsində işğaldan azad olunmuş 42 yaşayış məntəqəsi o dövr üçün ölkəmizin iqtisadi imkanları o qədər də geniş olmasa da, müvəffəqiyyətlə bərpa edildi, həmin ərazilərdə sakinlərimizin yaşayışı təmin edildi. 2016-cı ildə isə Azərbaycan Ordusunun parlaq Aprel zəfərindən sonra "Böyük qayıdış"a başlanıldı. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində tezliklə yüksək standartlara cavab verən infrastruktur təminatı həyata keçirildi və Cocuq Mərcanlı kəndi hazırda ölkəmizin ən abad yaşayış məntəqələrindən biridir. İndi işğaldan azad olunmuş bütün yaşayış məskənlərimiz üçün belə gözəl perspektivlər yaranıb. Tarixi torpaqlarımızda yenidən bütün inzibati, ictimai binaların, məktəb və tibb ocaqlarının yaradılması, yeni küçələrin, parkların, xiyabanların salınması, yeni yaşayış evlərinin inşası istiqamətində gələcəkdə daha genişmiqyaslı tədbirlər həyata keçiriləcəkdir. "Ağıllı kənd", "Ağıllı şəhər" konsepsiyası əsasında görüləcək işlər nəticəsində işğaldan azad olunmuş ərazilər yaxın gələcəkdə ölkəmizin dilbər guşələrindən birinə çevriləcək.

Bölgənin zəngin yeraltı və yerüstü təbii ehtiyatlara malik olması, gələcəkdə əlverişli investisiya mühitinin yaradılması onun iqtisadi potensialını daha da artıracaqdır. Bu ərazilərdə yaradılacaq müasir infrastruktur, yeni nəqliyyat dəhlizi bütün türk dünyasını birləşdirməklə digər ölkələr üçün də əhəmiyyətli kommunikasiya imkanlarının meydana gəlməsini şərtləndirəcək. Füzulidə yeni beynəlxalq aeroportun inşası, gələcəkdə Zəngilan və Laçında tikintisi davam edən beynəlxalq hava limanlarının istismara verilməsi regionun nəqliyyat imkanlarını daha da genişləndirəcəkdir. Prezident İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə çıxışı zamanı bildirdiyi kimi, qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək. Bu isə uzun illər Ermənistanın işğalı altında qalan, sərvətləri talan edilən, dağıdılan tarixi torpaqlarımızın bütün türk dünyasını birləşdirən körpü olacağı, mühüm bir mərkəzə çevriləcəyi, Azərbaycanın xarici tərəfdaşlarla nəqliyyat, kommunikasiya, infrastruktur layihələri üzrə əməkdaşlıq imkanlarının daha da genişlənəcəyi anlamına gəlir. Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, sabitliyin tam bərqərar olması üçün əməli addımlar atır.

Yeri gəlmişkən, cari ilin iyul ayında Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu fərmana əsasən, iki yeni rayon - Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Təbii ki, bu qərar strateji, iqtisadi və tarixi baxımdan kifayət qədər vacib sənəd, əhəmiyyətli bir addımdır. Yeni bölgü işğaldan azad olunmuş ərazilərimizin, bütövlükdə Qarabağın bərpa və yenidənqurma prosesinin daha sürətli, eyni zamanda iqtisadi inkişafın formalaşmasına daha sistemli, dövlət proqramları çərçivəsində yanaşmanın həyata keçirilməsinə imkan verəcək, işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialından daha geniş istifadə edilməsinə şərait yaradacaq. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, bütün planlarımız maksimum qısa müddət ərzində həyatda öz əksini tapacaq, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir: **"Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik".**

Bölgənin bərpası planlarının həyata keçirilməsinə Vətən müharibəsində bizə mənəvi dəstək vermiş dost və qardaş ölkələr də cəlb edilir. Bu yaxınlarda Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Füzulidə beynəlxalq hava limanını açmalarını, Zəngilanda Zəngəzur dəhlizinin təməlini qoymalarını, digər böyük layihələrin icrasına xeyir-dua vermələrini böyük sevinc hissi ilə izlədik. Əminliklə söyləyə bilərik ki, Qarabağın və Şərqi Zəngəzurun iqtisadi dirçəlişi ilə bağlı bütün layihələr uğurla başa çatdırılacaq və bu bölgə Azərbaycanın ən gözəl guşələrindən birinə çevriləcəkdir.

Münaqişənin aradan qalxmasından sonra Azərbaycan hökuməti üçün prioritet vəzifələrdən biri də şəhid ailələrinin, döyüşlər zamanı sağlamlığını itirmiş vətəndaşlarımızın yüksək diqqət və qayğı ilə əhatə olunmalarıdır. Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, şəhid ailələri, müharibə əlillərinin dövlət tərəfindən mənzillərlə və fərdi evlərlə təmin olunması, sosial müdafiə tədbirlərinin daha da genişləndirilməsi istiqamətində çox böyük işlər görülmüşdür. Möhtərəm Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva şəhid ailələri və qazilərlə mütəmadi olaraq görüşlər keçirir, onları narahat edən məsələlər, problemlər həllini tapır. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilib, bu il isə 3 minə yaxın mənzil veriləcək. Möhtərəm Prezident İlham Əliyev tərəfindən cari ilin yanvarında imzalanan sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, habelə fərdi evlə təmin ediləcək.

Bu istiqamətdə həyata keçirilən tədbirlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çox böyük rolu vardır. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələr vətənimizin bütövlüyü uğrunda gedən döyüşlərdə öz sağlamlığını itirmiş yüzlərlə vətəndaşımızın, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə əvəzsiz töhfələr vermişdir. Mehriban xanım Əliyeva uğurlu və çoxşaxəli fəaliyyəti ilə postmünaqişə dövründə də Azərbaycanın inkişafına müstəsna töhfələr verir. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsində əhəmiyyətli rol oynayır. Mehriban xanım Əliyevanın istər pandemiya ilə mübarizə, istər Ordumuza dəstək, istərsə də Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər, çağırışlar və bəyanatlar milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfədir.

Şəhid ailələrinin üzvlərinin, müharibədə sağlamlığını itirmiş hərbçilərimizin sosial müdafiəsinin gücləndirilməsi, həyat şəraitlərinin yaxşılaşdırılması da dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Möhtərəm Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların qayğıları ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi tədbirlər həyata keçirilir. Möhtərəm Prezident İlham Əliyevin cari ilin yanvar ayının 25-də imzaladığı şəhid ailələri və qazilərə yönəlmiş "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı qeyd olunanların bariz nümunəsidir. Ölkə başçısı tərəfindən imzalanan müvafiq fərman və sərəncamlara əsasən, əlilliyi olan şəxslərə ödənilən pensiya və müavinətlərin məbləği davamlı olaraq artırılır, şəhid ailələri və qazilərin həyat şəraitinin və rifahının yaxşılaşdırılması məqsədilə məşğulluq problemi aradan qaldırılır.

Qeyd edim ki, Azərbaycan Respublikası Milli Məclisi də dövlətimizin bu istiqamətdə gördüyü işlərə fəal dəstək verir. Şəhid ailələri, qazilər və müharibə iştirakçılarının vəziyyəti daim diqqətdə saxlanılır, onlarla müntəzəm görüşlər keçirilir, mövcud problemlərinin həllində köməklik göstərilməsi məqsədilə tədbirlər görülür, şəhid ailələrinin üzvləri və qazilərin Milli Məclisdə işlə təmin olunmasına xüsusi önəm verilir. Bu günlərdə isə Vətən müharibəsi şəhidi Cəbrayıl Dövlətzadənin anası Məleykə Məmmədzadə və Vətən müharibəsi zamanı Suqovuşan və Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak edən qazi Abbas Yusifov işlə təmin olunublar.

## Parlament diplomatiyası vasitəsilə ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılması diqqət mərkəzində saxlanılır

Möhtərəm Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasında geniş və dərin məzmunlu nitqində parlamentin qarşıdakı dövrdə fəaliyyəti ilə bağlı çox dəyərli tövsiyələrini diqqətə çatdırarkən parlament diplomatiyasının geniş imkanlarından istifadə edərək, ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasının əhəmiyyətini xüsusi vurğulamışdır. Ötən dövrdə Milli Məclis bu istiqamətdə fəaliyyətini genişləndirməyə, həm 44 günlük Vətən müharibəsində, həm də postmüharibə dövründə cəbhə bölgəsindəki həqiqətləri, Ermənistanın dinc əhaliyə qarşı təxribatları şəhər və rayonlarımızı artilleriya və raket atəşinə tutması, münaqişənin həllindən sonra regionda yeni yaranmış vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və quruculuq işləri ilə bağlı faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq məqsədilə öz üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışmışdır. Təkcə Vətən müharibəsi dövründə 90-a yaxın ölkənin parlamentinə və 11 beynəlxalq təşkilata Milli Məclis tərəfindən 140-dan çox məktub göndərilmişdir. Bir çox ölkənin spikerləri, beynəlxalq təşkilatların rəhbərləri ilə danışıqlar aparılmışdır. Ölkəmizdə akkreditə olunmuş səfirlərlə görüşlər keçirilmişdir. Deputatlarımız xarici media orqanlarında Ermənistanın törətdiyi təxribatlar barədə materiallarla çıxış etmiş, sosial şəbəkələrdə fəallıq nümayiş etdirmişlər.

Postmüharibə dövründə də Milli Məclis beynəlxalq sahədə fəaliyyətini uğurla davam etdirmişdir. Xüsusilə parlament rəhbərliyinin və deputatların xarici səfərləri zamanı aparılan müzakirələrdə və keçirilən görüşlərdə, Azərbaycan nümayəndə heyətlərinin iştirak etdikləri tədbirlərdə həm artıq keçmişdə qalmış Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlər, həm də münaqişənin həllindən sonra regionda yeni yaranmış vəziyyət barədə beynəlxalq ictimaiyyət məlumatlandırılır. Qeyd edim ki, fəaliyyətə başladığı dövrdən ötən müddət ərzində mənim rəhbərliyimlə parlament nümayəndə heyətləri 10 ölkədə 14 rəsmi və işgüzar səfərdə olmuş, mənim xaricdən olan həmkarlarım və digər rəsmi şəxslərlə 70-ə yaxın görüşüm keçirilmişdir. Həmçinin Milli Məclisin Sədr müavinlərinin, komitə sədrlərinin, beynəlxalq parlament təşkilatlarında nümayəndə heyətlərimizin, parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin və üzvlərinin digər ölkələrdən olan həmkarlarımızla sıx əlaqə saxlaması da parlament diplomatiyamızın daha da inkişafına töhfələr vermişdir. Vətən müharibəsində mövqeyimizi qətiyyətlə dəstəkləmiş dost və qardaş Türkiyə və Pakistan parlamentləri ilə əlaqələr müharibədən sonra da uğurla inkişaf etdirilir. Bu il iyul ayının sonlarında Bakıda Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin görüşü ilə üçtərəfli parlament əməkdaşlığının formatının əsası qoyulmuşdur. Görüşün yekununda qəbul olunan Bakı Bəyannaməsində əksini tapmış müddəalar dövlətlərimiz arasında münasibətlərin inkişafının parlament ölçüsünü təmin etməyə kömək edəcəkdir.

Vətən müharibəsi başa çatdıqdan sonra bir sıra ölkələrin parlament nümayəndə heyəti Azərbaycana dəvət olunmuş, Ermənistanın törətdiyi dövlət terrorizmi aktlarının nəticələri ilə yerində tanış olmaq üçün onların Ağdam və Gəncə şəhərlərinə səfərləri təşkil edilmişdir. Bütün bunlar isə Azərbaycan Respublikası Milli Məclisinin həm 44 günlük Vətən müharibəsi dövründə, həm də postmünaqişə dövründə parlament diplomatiyasının imkanlarından səmərəli istifadə etdiyini, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirilən dövlət siyasətinə özünəməxsus töhfələr verdiyini söyləməyə əsas verir.

## Müharibə ilə əlaqədar qanunvericilik bazasının möhkəmləndirilməsi üçün bir sıra bəyanat, qərar və digər sənədlər qəbul olunmuşdur

Vətən müharibəsi və postmünaqişə dövründə Milli Məclis tərəfindən qanunvericilik bazasının zənginləşdirilməsi istiqamətində də müvafiq addımlar atılmışdır. Belə ki, müharibə ilə əlaqədar qanunvericilik bazasının möhkəmləndirilməsi üçün parlamentimiz tərəfindən bir sıra bəyanat, qərar və digər sənədlər qəbul olunmuşdur. Milli Məclisin 2020-ci il 13 noyabr tarixli iclasında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan xalqına müraciət ünvanlanmışdır. Noyabrın 20-də isə Prezident İlham Əliyevin xalqa müraciəti ilk dəfə olaraq parlamentin iclas zalında canlı yayımlanmışdır.

Bu dövrdə qəbul olunmuş sənədlər sırasında hərbi vəziyyətin elan edilməsi və ləğv edilməsi haqqında ölkə Prezidentinin fərmanlarının təsdiq edilməsi barədə, Vətən müharibəsində qələbə münasibəti ilə ölkənin orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında", "Zəfər Günü"nün iş günü olmayan bayram günü hesab edilməsi, hər il sentyabrın 27-nin şəhidlərin xatirəsini yadetmə günü - Anım Günü kimi qeyd olunması barədə qanun və qərarları göstərmək olar.

Parlamentin 5 noyabr tarixində keçirilən iclasında 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Milli Məclisin bəyanatı qəbul olunmuş, bu bayram münasibətilə möhtərəm Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya parlament adından təbrik məktubları ünvanlanmışdır. Həmçinin Zəfər Günü münasibəti ilə Milli Məclisə bir sıra ölkələrin parlamentlərindən və beynəlxalq parlament təşkilatlarından çoxsaylı təbrik məktubu göndərilib və məktublar gəlməkdə davam edir.

Digər mühüm bir məsələ möhtərəm Prezident İlham Əliyev tərəfindən Zəfər Günü münasibəti ilə amnistiya elan edilməsi barədə təşəbbüs irəli sürülməsi və Milli Məclis tərəfindən müvafiq qərar qəbul olunmasıdır. Qeyd edim ki, hüquqi və demokratik dövlətin əsas təməllərindən biri olan insan hüquqlarının və azadlıqlarının müdafiəsi, ölkə həyatında mərhəmət və humanizm prinsiplərinin bərqərar edilməsi möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil edir. Onun rəhbərliyi altında səmərəli fəaliyyəti ilə böyük nüfuz qazanmış əfvetmə və bağışlama institutu şəxsiyyətə inam və hörmət, insanpərvərlik ideyalarının cəmiyyətdə geniş yayılmasına kömək göstərir. 1995-2021-ci illər ərzində əvvəlcə Ulu Öndər Heydər Əliyev, sonra isə möhtərəm Prezident İlham Əliyev tərəfindən 67 əfv fərman və sərəncamı qəbul edilmişdir. Bunların nəticəsində 9 minə yaxın məhkum azadlığa buraxılmışdır. Həmin dövr ərzində parlamentdə 11 amnistiya qərarı qəbul olunmuş, bütövlükdə 117 min şəxsə amnistiya qərarı tətbiq olunmuşdur.

*Beləliklə, Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində əldə olunmuş Qələbənin ildönümünü - Zəfər bayramını böyük sevinclə və böyük ümidlərlə qeyd edir. Azərbaycan gələcəyə daha böyük inamla baxır, öz yoluna əmin addımlarla, qətiyyətlə davam edir. Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş və qalib xalq kimi özünü dünyaya ləyaqətlə təqdim etmişdir. Ali Baş Komandan Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatmışdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq. Biz sonsuz qürur hissi ilə yurd yerlərimizə, doğma Qarabağa qayıdırıq. Bu haqqı bizə qaytardıqlarına görə Ali Baş Komandanımıza, Silahlı Qüvvələrimizə əbədi minnətdarlıq borcumuz var. Odur ki, biz qürurla söyləyirik: Müdrik rəhbərimizə, qəhrəman ordumuza, mətin xalqımıza eşq olsun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!*

**Sahibə QAFAROVA,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

# Böyük qələbənin mükəmməl diplomatiyası



*Əvvəli 1-ci səh.*

Azərbaycanın diplomatik səyləri nəticəsində beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə (BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 nömrəli qətnamələrində, Baş Assambleya, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və digər təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə) münaqişənin həlli ilə bağlı mövqe özündə bir neçə vacib elementi ehtiva etmişdir. İlk növbədə, ölkəmizin ərazi bütövlüyü tanınır və Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu təsdiqlənir. İkincisi, işğalın aradan qaldırılması və işğalçı qüvvələrin Azərbaycan ərazilərini tərk etməsi tələb olunur. Üçüncüsü, qaçqın və məcburi köçkünlərin öz evlərinə geri qayıtmaq hüququ təsbit edilir.

Azərbaycanın işğal altında olan ərazilərində işğalçı Ermənistan tərəfindən həyata keçirilən qanunsuz fəaliyyət, o cümlədən işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin aparılması, bu torpaqlardakı Azərbaycan xalqının zəngin tarixi, mədəni, dini irsinin məhv və talan edilməsi, təbii sərvətlərin qanunsuz istismarı, bu ərazilərdəki şəxsi və ictimai mülkiyyətin qanunsuz mənimsənilməsi və digər qeyri-qanuni addımlar da beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan sənədlərdə geniş yer almışdır. Bütün bunlar Azərbaycanın beynəlxalq təşkilatlara çoxsaylı müraciətlərinin və aparılan uğurlu xarici siyasətin nəticəsində mümkün olmuşdur.

Beynəlxalq hüququn norma və prinsiplərinə, həmçinin beynəlxalq təşkilatların qətnamə və qərarlarına uyğun olaraq, Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğaldan azad edəcəyi ümidi ilə Azərbaycan 30 ilə yaxın danışıqlar prosesinə sadiq qalmışdır. Keçmiş münaqişənin həlli üzrə aparılan danışıqlar prosesində Azərbaycanın sərgilədiyi mövqe prinsipial xarakter daşımaqla beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmış və uzun illər ərzində davam edən proses çərçivəsində dəyişilməz qalmışdır. Bu mövqe beynəlxalq hüququn dövlətlərin suverenliyi, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsi, qanunsuz işğal faktorunun aradan qaldırılması və öz evlərindən didərgin düşmüş insanların hüquqlarının bərpasından, onların evlərinə təhlükəsiz şəraitdə geri dönüşünün təmin edilməsindən ibarət olmuşdur. Təcavüzkar siyasətini davam etdirən Ermənistan isə danışıqlar prosesini ləngidərək, Azərbaycan torpaqlarının işğalının nəticələrini möhkəmləndirmək və onların ilhaqını həyata keçirmək məqsədini güdmüş və bu istiqamətdə ardıcıl addımlar atmışdır.

Beləliklə də, Azərbaycanın münaqişənin siyasi həll yoluna sadiq olmasına baxmayaraq, Ermənistan tərəfindən açıq şəkildə təxribatçı və təcavüzkar hərəkətlərin, habelə destruktiv mövqeyin nümayiş etdirilməsi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün hərbi-siyasi yolla bərpasını qaçılmaz etmişdir.

## Ermənistanda hakimiyyət dəyişikliyi ilə hərbi-siyasi təxribatların artması

Onilliklər ərzində Ermənistan tərəfindən həyata keçirilən təcavüz siyasəti bu ölkəni ciddi sosial-iqtisadi problemlər, dərin böhran ilə üz-üzə qoymuşdur. Belə bir şəraitdə Ermənistanda 2018-ci ildə hakimiyyət dəyişikliyi münaqişənin danışıqlar yolu ilə həllinə müəyyən inam yaratsa da, bu gözlənti özünü doğrultmamışdır. Yeni hakimiyyət tərəfindən təxribatçı addımların atılması, danışıqlar formatını dəyişdirməyə cəhdlərin edilməsi, işğal altında olan Azərbaycan ərazilərinə səfərlər edilərək işğala haqq qazandırılması danışıqlar prosesinə ciddi zərbə vurmuşdu. Ermənistanın yeni rəhbərliyinin "yeni ərazilər üçün yeni müharibə", "Qarabağ Ermənistandır və nöqtə" bəyanatları isə əslində Ermənistan hökumətinin açıq şəkildə təcavüz siyasətini genişləndirmək niyyətinin göstəricisi idi.

12-16 iyul 2020-ci il tarixlərində Ermənistan silahlı qüvvələrinin Ermənistan-Azərbaycan sərhədi boyunca Tovuz rayonu istiqamətində Azərbaycanın mövqelərinə hücumu, 12 azərbaycanlı hərbçi və 1 mülki şəxsi qətlə yetirməsi, daha sonra avqust ayında Ermənistanın diversiya qrupunun keçmiş təmas xəttini keçmək və Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı terror aktları törətmək cəhdi sülh danışıqlarına ciddi zərbə vurdu. 23 iyul 2020-ci il tarixində Tovuz təxribatından sonra Ermənistanın danışıqlar prosesində iştirakla bağlı 7 şərt irəli sürməsi, o cümlədən "qanunsuz rejimin danışıqlar prosesinin tam hüquqlu iştirakçısına çevrilməli olduğunu" iddia etməsi və Ermənistan hökumətinin çoxsaylı siyasi və hərbi təxribatları iki ölkə arasında beynəlxalq vasitəçilərin iştirakı ilə keçirilən danışıqlar formatını mənasız bir prosesə çevirməklə onu kökündən sarsıtdı.

Ermənistanın məqsədyönlü və sistematik xarakter daşıyan təxribatları bölgədə vəziyyəti gərginləşdirməyə və danışıqlar prosesinə xələl gətirməyə hesablanmışdı. Azərbaycan, öz növbəsində, bütün bu təxribatları lazımi şəkildə cavablandırmış, hər bir təxribatla bağlı bir çox hallarda, hətta dövlət rəhbəri səviyyəsində reaksiya özünü çox gözlətməmişdi. Bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının dövlət başçısı keçmiş münaqişə kontekstində səsləndirdiyi hər bir fikrin, mövqeyin, verdiyi ismarışın zamanını, məkanını xüsusi dəqiqliklə seçərək onun doğru hədəflərə və geniş beynəlxalq auditoriyaya çatmasına böyük önəm vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin 3 oktyabr tarixində Rusiya Prezidenti və dörd ölkə liderinin iştirakı ilə baş tutan "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı illik iclasının plenar sessiyasında çıxışı zamanı Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına layiqli cavab vermiş, "Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatını vermişdir. 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində münaqişə ilə bağlı təşkil olunan panel müzakirəsində iştirak edən Azərbaycan Respublikasının Prezidenti münaqişənin həm tarixi, həm də hüquqi aspektləri, eləcə də münaqişənin həlli prosesində Azərbaycanın sərgilədiyi beynəlxalq hüquqa əsaslanan mövqeyi barədə verdiyi dəqiq və dolğun məlumatla Ermənistanın baş nazirini çıxılmaz vəziyyətə salmışdır.

Azərbaycan Respublikasının Prezidenti 24 sentyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı Ermənistanın yeni təxribatları ilə bağlı dünya ictimaiyyətinə müraciət etmişdir: "Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin qanunsuz mövcudluğu regional sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən sülh prosesini pozmağa cəhd edir. Ermənistanın məqsədi işğalla bağlı hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaqdır. Azərbaycanın konstruktiv mövqeyinə zidd olaraq, Ermənistan məqsədyönlü şəkildə danışıqlar prosesinin format və mahiyyətini sarsıdır. Bizim sülhə nail olmaq üçün yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır".

Azərbaycanın dövlət başçısı tərəfindən istər yerli səviyyədə keçirilən görüş və verilən müsahibələrdə, istərsə də beynəlxalq tribunalardan edilən çıxışlarda Ermənistanın hərbi-siyasi təxribatlarına geniş yer ayrılaraq, bu ölkənin təcavüzkar siyasətinin nəticələri, habelə təxribatçı fəaliyyətinin məqsədləri barədə ətraflı məlumat verilmişdir. Lakin nə beynəlxalq hüquqi çərçivə, nə qəbul olunmuş qərar və qətnamələr, nə də Azərbaycanın xəbərdarlıqları Ermənistanı təcavüzkar siyasətindən çəkindirməmiş, əksinə, bu siyasətin nəticələrinin möhkəmləndirilməsi və daha da genişləndirilməsi təşəbbüsləri olmuşdur. Eyni zamanda Azərbaycan Respublikasının Prezidentinin Ermənistanın baş naziri ilə beynəlxalq tədbirlər çərçivəsində qeyri-rəsmi təmasları, habelə keçirdiyi rəsmi görüşlər Ermənistanın təcavüzkar mövqeyini dəyişməmişdir. Belə bir şəraitdə Azərbaycana qarşı təxribatların adekvat şəkildə cavablandırılması, beynəlxalq hüquq çərçivəsində cavab tədbirlərinin görülməsi qaçılmaz olmuşdur.

## 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın xarici siyasəti

27 sentyabr 2020-ci il tarixində Ermənistanın növbəti təxribatına cavab olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin əmri ilə "Dəmir yumruq" adlanan əks-hücum əməliyyatları başlandı.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 27 sentyabr 2020-ci il tarixli bəyanatında Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum və cavab tədbirlərinin həyata keçirildiyi və yaranmış vəziyyətə görə tam məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyü bəyan edildi.

Müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində zəfəri nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurası, BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Qoşulmama Hərəkatı, Türk Şurası, NATO, GUAM, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinin əsasında həllinə çağıran qərar və qətnamələrini həyata keçirdi, 30 illik işğala son qoyuldu.

Vətən müharibəsi müddətində Azərbaycan Respublikasının Prezidenti 8 dəfə xalqa müraciətlə çıxış edərək cəbhə bölgəsindəki son vəziyyətlə bağlı ən son məlumatları əhalinin diqqətinə çatdırmış, eyni zamanda həm beynəlxalq ictimaiyyəti dəqiq və dürüst şəkildə məlumatlandırmış, həm də Ermənistan da daxil olmaqla, dünya ictimaiyyətinə konkret ismarışlar göndərmişdir. Azərbaycanın işğaldan azad edilmiş hər bir rayonu, kəndi, qəsəbəsi barədə məlumatı Azərbaycan xalqı ilə bölüşən dövlət başçısı çıxışlarında azad edilmiş ərazilər, düşməndən əldə edilən hərbi qənimətlər barədə geniş məlumat verməklə yanaşı, bu torpaqlardakı vəziyyət, Ermənistan tərəfindən illər ərzində aparılmış qanunsuz fəaliyyət və onun nəticələri, genişmiqyaslı dağıntılar, habelə Ermənistanın müharibə cinayətləri barədə konkret məlumatları təqdim etmişdir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini raket atəşinə məruz qoyaraq günahsız mülki insanları hədəfə aldığını 17 oktyabr 2020-ci il tarixli müraciətində səsləndirən Prezident İlham Əliyev qarşı tərəfin bütün qeyri-insani və hüquqa zidd davranışına rəğmən Azərbaycanın sadiq qaldığı dəyərlərin dəyişməyəcəyini bildirmişdir. Prezident 44 günlük müharibə dövründə ilk gündən etibarən səsləndirdiyi çıxışlarında cavab əməliyyatlarının dayandırılmasının mümkün olduğunu, lakin bunun üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasının zəruri olduğunu bəyan etmişdir.

Lakin Ermənistan tərəfi nəinki bu çağırışlara qarşılıq verməmiş, əksinə, əməliyyatlar zamanı humanitar atəşkəsə dair əldə olunmuş razılıqları hər dəfə kobud şəkildə pozmuşdur. Belə ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin 9 oktyabr 2020-ci il tarixində Moskvada keçirilən görüşü nəticəsində 10 oktyabr tarixində tərəflər arasında humanitar atəşkəs razılaşdırılmışdır. Bu razılaşdırma humanitar xarakter daşımaqla, həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsini nəzərdə tuturdu. Lakin razılaşma əldə olunandan sonra Ermənistan atəşkəsi pozaraq, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə gecə saatlarında raket atəşi açmışdır. 10 günahsız mülki şəxsin öldürülməsi və 35 insanın yaralanması ilə nəticələnən bu cinayət Ermənistan tərəfinin təcavüzkar mahiyyətini bir daha nümayiş etdirmişdir. Tərəflər arasında növbəti humanitar atəşkəs 17 oktyabr tarixində elan olunmasına baxmayaraq, dəqiqələr sonra bu atəşkəsi pozan Ermənistan Gəncə şəhərinə növbəti namərd hücumunu etmişdir. 24 oktyabrda ATƏT-in Minsk qrupu həmsədrlərinin Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşlərinin ardınca 26 oktyabr tarixindən yeni humanitar atəşkəs elan olunmuş, bu dəfə də atəşkəsi pozan Ermənistan olmuşdur.

Beləliklə də, Azərbaycanın dövlət başçısının 44 günlük müharibə dövründə beynəlxalq ictimaiyyətə verdiyi əsas ismarışları, o cümlədən Azərbaycanın mövqeyinin beynəlxalq hüquqa əsaslanması əks-hücum əməliyyatının Azərbaycan ərazisində, özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə həyata keçirilməsi, habelə Ermənistanın təcavüzkar siyasətinin nəticələrinin, törətdiyi müharibə cinayətlərinin ifşa edilməsi, bir tərəfdən həqiqətlərin geniş ictimaiyyətə çatdırılması, digər tərəfdən isə Azərbaycanın haqlı mövqeyinin siyasi-hüquqi əsaslarının daha da möhkəmləndirilməsi məqsədlərinə xidmət edirdi.

## Müharibə müddətində dünya liderləri ilə təmaslar, keçirilən görüşlər

44 gün davam edən Vətən müharibəsi qüdrətli Azərbaycan Ordusunun döyüş meydanında apardığı şanlı mübarizə ilə yanaşı, diplomatiya meydanında mübarizəsi, müdrik xarici siyasəti ilə müşaiyət olunurdu. Bu dövr ərzində bir sıra dünya liderləri ilə aparılan telefon danışıqları, ölkəmizə edilən səfərlər çərçivəsində xarici nümayəndə heyətləri ilə keçirilən görüşlər, beynəlxalq tədbirlərdə iştirak, xarici ölkələrin aparıcı mətbuat nümayəndələrinə verilən çoxsaylı müsahibələr dövlətimizin başçısının Zəfər diplomatiyasının önəmli tərkib hissələrini təşkil edir.

Onilliklər ərzində münaqişənin həlli ilə bağlı danışıqlar prosesində iştirak etməklə Azərbaycan münaqişənin həllinin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl və qətiyyətli iş aparmış, beynəlxalq təşkilatların bu xüsusda qəbul etdiyi çoxsaylı qərar və qətnamələr böyük diplomatik uğur olmuşdur.

Vətən müharibəsi ərzində Türkiyə, Rusiya, İran, Fransa, Almaniya, Qətər, Belarus liderləri, BMT Baş katibi, Avropa İttifaqı Şurasının prezidenti tərəfindən Azərbaycan Respublikasının Prezidentinə telefon zəngləri edilmiş, xarici dövlət və təşkilatların rəhbərləri silahlı qarşıdurma ilə bağlı narahatlıqlarını bildirərək bölgədəki son vəziyyətlə maraqlanmışlar. Telefon söhbətləri zamanı dövlət başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımızın həlak olduğu və buna cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əks-hücum əməliyyatlarını həyata keçirdiyi barədə qarşı tərəfə məlumat vermişdir. Vurğulanmışdır ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət məhz bu ölkənin siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Diqqətçəkən məqamlardan biri də odur ki, Azərbaycan heç zaman sülh danışıqları, dialoq təkliflərindən yayınmamış, ərazilərimizi işğaldan azad etmək üçün aparılan uğurlu əməliyyatlar zamanı belə humanitar atəşkəs çağırışlarına qarşılıq vermişdir. Prezident İlham Əliyevin milli maraqlara söykənməklə beynəlxalq hüquq çərçivəsində apardığı xarici siyasəti hər zaman özündə ədalət və humanizm prinsiplərini ehtiva etmişdir. İstər xarici dövlət rəhbərləri ilə aparılan danışıqlar, istərsə də keçirilən görüşlərdə qarşı tərəfin "dinc yolla həll" çağırışlarına dövlət başçısının cavabı kifayət qədər tutarlı və əsaslı olmuşdur. Azərbaycan səbir nümayiş etdirərək onilliklər ərzində ərazilərinin işğalına son verilməsi, beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsi, beynəlxalq hüququn təmin edilməsi üçün danışıqlar aparmışdır. Lakin bu danışıqların heç bir nəticə verməməsi, düşmənin öz təxribatlarını davam etdirməsi və üstəlik, mövcud danışıqları pozmaq cəhdləri Azərbaycanı ədaləti təmin etmək üçün əks-həmlə əməliyyatlarına məcbur etmişdir.

Vətən müharibəsi zamanı Türkiyənin siyasi və mənəvi dəstəyinin əvəzsiz rolu olmuşdur. Həmin dövrdə Prezident İlham Əliyev qardaş Türkiyənin nümayəndə heyətlərini, o cümlədən Böyük Millət Məclisinin Sədrini, xarici işlər nazirini, milli müdafiə nazirini, milli kəşfiyyat idarəsinin rəisini, Baş Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyətini, Türkiyənin keçmiş baş naziri Binəli Yıldırımı qəbul etmişdir. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının özünü parlaq şəkildə nümayiş etdirdiyi bu dönəmdə qardaş ölkənin mənəvi dəstəyi ən yüksək səviyyədə olmuşdur. Dövlət başçısının Türkiyə televiziya kanalına verdiyi müsahibədə qardaş ölkənin müharibə dövründə oynadığı rol yüksək qiymətləndirilmişdir: "İlk günlərdən, ilk saatlardan qardaş Türkiyədən göstərilən dəstək, mənim qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın açıqlamaları, eyni zamanda digər yüksəksəviyyəli şəxslərin bəyanatları həm Azərbaycana mənəvi dəstək verdi, eyni zamanda bütün dünyaya göstərdi ki, Türkiyə Azərbaycanın yanındadır".

30 ilə yaxın davam edən işğalçı siyasətə son qoyan Azərbaycan Ordusu ərazilərimizi azad edərək qətiyyətlə irəlilədikcə, diplomatiya cəbhəsində də gərgin informasiya müharibəsi gedirdi və bu proseslərin mərkəzində Azərbaycan Respublikasının Prezidentinin həyata keçirdiyi Zəfərə aparan siyasət dayanırdı.

## Prezidentin dünyanın aparıcı media agentliklərinə müsahibələri: informasiya müharibəsində qələbə

Vətən müharibəsi dövründə Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə düşmənə qarşı apardığı mübarizəyə paralel olaraq, informasiya məkanında da gedən müharibədə ölkəmiz layiqincə, həm də bu müharibənin qaydalarına uyğun olaraq iştirak etmiş, Ali Baş Komandan, Prezident İlham Əliyev döyüş meydanında olduğu kimi, informasiya cəbhəsində də parlaq qələbəyə imza atmışdır.

Hərbi əməliyyatların ilk günlərindən başlayaraq müharibənin sonunadək dövlət başçısı dünyanın aparıcı media agentliklərinin nümayəndələri ilə görüşmüş, onlara müsahibələr vermişdir. Bu müddət ərzində Prezident İlham Əliyev Türkiyə, Rusiya, ABŞ, İtaliya, Fransa, Almaniya, İngiltərə, Qətər, Yaponiyadan və digər ölkələrdən olan, dünyaca məşhur 30-a yaxın media agentliklərinə müsahibələr verərək, ən yüksək səviyyədə və etibarlı məlumat mənbəyi olmaqla Azərbaycanla bağlı həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır.

Müsahibələrində dövlət başçısı bölgədəki son vəziyyətlə bağlı ətraflı məlumatı, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini, Ermənistanın təcavüzkar siyasətinin nəticələrini, törətdiyi müharibə cinayətlərini qarşı tərəfin diqqətinə çatdırmış, Azərbaycanın haqlı olduğunu bütün dünyaya sübut etmişdir. Azərbaycan Prezidentinin müsahibələrində bir qayda olaraq, konkret arqumentlərə, beynəlxalq təşkilatların qərarlarına, beynəlxalq hüquq prinsiplərinə, tarixi faktlara dəqiq istinadlar edilmiş, qarşı tərəfin iddiaları elə onun təmsil etdiyi ölkənin timsalında tutarlı şəkildə cavablandırılmışdır. Müsahibələrdə təhrikçi suallara dövlət başçısı təmkinlə cavab verərək, Qarabağın Azərbaycan torpağı olduğunu, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin tərkib hissəsini təşkil etdiyini vurğulamışdı: "Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Dövlət başçısı müsahibələrdə eyni zamanda bəzi ölkələrin nümayiş etdirdiyi qərəzli mövqeyi açıq şəkildə dilə gətirərək, bu xüsusda ismarışını sərt bir şəkildə çatdırmışdır. Hər hansı dövlət ermənilər üçün öz müqəddəratını təyinetmə hüququnu vermək istəyirsə, bunu öz ərazilərində yaşayan ermənilərə şamil edə biləcəyini vurğulayan Prezident, Azərbaycana qarşı ittihamların dayandırılmasını tələb etmişdir.

Vətən müharibəsi dövründə Azərbaycan tərəfindən müvafiq qurumların çevik və dəqiq reaksiyası, xüsusilə Müdafiə Nazirliyinin yaydığı videogörüntülər, sosial şəbəkələrdən geniş istifadə olunması, çoxsaylı xarici jurnalistlərin ölkəmizə səfərlərinin təşkili və yerindəcə hadisələri işıqlandırması, ən əsas isə dövlət rəhbəri səviyyəsində birbaşa məlumatların xarici auditoriyanın diqqətinə çatdırılması Ermənistanın yalan və dezinformasiya kampaniyasının qarşısını effektiv şəkildə almışdır.

## 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat və onun əhəmiyyəti

10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu, 27 sentyabr tarixində başlamış Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında böyük Zəfərlə yekunlaşdı. Üçtərəfli bəyanat tərəflər arasında hərbi əməliyyatlara son qoymaqla yanaşı, özündə bir sıra vacib müddəaları əks etdirən hərtərəfli sənəddir.

Üçtərəfli bəyanat Azərbaycanın döyüş meydanında əldə etdiyi şanlı qələbənin masa arxasında təsdiqi idi. Bəyanatda münaqişənin həllinə nöqtə qoyularaq, hərbi əməliyyatların dayandırılması, bölgədə təhlükəsizliyin təmin edilməsi üçün Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi, buna paralel olaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxması, məcburi köçkünlərin evlərinə geri qayıtması, hərbi əsir və girovların, habelə cəsədlərin mübadiləsi, habelə bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı müddəalar əks olunmuşdur.

Birgə bəyanatda Prezident İlham Əliyevin hərbi əməliyyatların başladığı ilk gündən etibarən söylədiyi, konkret vaxt çərçivəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxması ilə bağlı öhdəlik öz əksini tapdı. Bəyanata əsasən Ermənistan Azərbaycanın Ağdam, Kəlbəcər və Laçın bölgələrindən işğalçı qüvvələrini çıxarmağa məcbur olmuşdur. Azərbaycan insan itkilərinin qarşısını alaraq, əlavə qan tökmədən diplomatik qələbə ilə sözügedən ərazilərini geri almışdır.

Bəyanatda Rusiya sülhməramlılarının bölgədə yerləşdirilməsi, kontingentin sayı, hərbi texnika və yerləşmə məntəqəsi dəqiqliklə göstərilmiş və bu yerləşmənin konkret zaman çərçivəsində həyata keçirildiyi ifadə olunmuşdur. Atəşkəsə nəzarətlə bağlı mərkəzin yaradılması müddəası əsasında 11 noyabr 2020-ci il tarixində müvafiq memorandum imzalanmış və 2021-ci ilin 30 yanvar tarixində işğaldan azad olunan Ağdam rayonunun ərazisində Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılışı olmuşdur. Bu isə Türkiyənin rəsmi qaydada atəşkəsə nəzarət prosesində iştirakını təmin etmişdir.

Üçtərəfli bəyanat Ermənistanın etnik təmizləmə siyasətinin qurbanı olan və öz doğma evlərində yaşamaq hüququ kobud şəkildə pozulan bir milyona yaxın məcburi köçkünün fundamental hüquqlarının bərpasını təmin etmişdir. Bəyanatda BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında məcburi köçkünlər və qaçqınların Qarabağa geri qayıtması məsələsi də öz əksini tapmışdır.

Bəyanatın digər önəmli müddəalarından biri məhz Prezident İlham Əliyevin təkidi ilə daxil edilən, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsini təsbit edən bənddir. Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə quru yolla birləşdirilməsi istiqamətində atılan bu tarixi addım eyni zamanda bölgənin gələcək iqtisadi inkişafı baxımından önəmlidir. Bəyanatın imzalanmasından sonra Ermənistan tərəfinin həyata keçirilməsinə əngəllər yaratmağa çalışdığı bu müddəa əslində iqtisadi baxımdan bölgə dövlətlərinin maraqlarına cavab verir.

Bəyanatda diqqət çəkən ən önəmli məsələlərdən biri də odur ki, burada Qarabağın statusu ilə bağlı heç bir müddəa öz əksini tapmamışdır. Məlum olduğu kimi, uzun illər ərzində Azərbaycan tərəfi Qarabağa Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinin mümkünlüyünü bəyan etmiş və aparılan danışıqlar prosesi çərçivəsində bu mövqe ifadə edilmişdir. Lakin Ermənistan tərəfi əsassız şəkildə "müstəqillik" iddialarından əl çəkməmişdir. Vətən müharibəsi nəticəsində ərazi bütövlüyümüz bərpa edildikdən sonra dövlət başçısı status məsələsinin artıq tarixdə qaldığını elan etmişdir. Prezidentin 2021-ci il 7 iyul tarixli sərəncamı ilə Şərqi Zəngəzur və Qarabağ iqtisadi bölgələri yaradılmışdır. Bu bölgədə yaşayan ermənilər, əlbəttə, digər vətəndaşlarımız kimi, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunmuş bütün hüquq və azadlıqlardan bərabər şəkildə istifadə edəcəklər. Odur ki, üçtərəfli bəyanatda bu məsələ ilə bağlı hər hansı bir müddəanın olmaması düşünülmüş siyasətin növbəti təzahürü idi.

Hərbi əməliyyatlara son verən, bir çox mühüm məsələləri özündə ehtiva edən və bölgədə sülh və təhlükəsizliyin təmin olunması üçün zəruri çərçivəni müəyyən edən tarixi əhəmiyyətli birgə bəyanat Prezident İlham Əliyevin parlaq diplomatik qələbəsidir.

## Postmüharibə dövründə Azərbaycanın xarici siyasəti

Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi böyük Qələbə Azərbaycan tarixinin şanlı səhifəsini təşkil etməklə yanaşı, bölgədə yeni reallıqlar yaratmış, Azərbaycanın ərazi bütövlüyü təmin edilmiş, bir milyona yaxın azərbaycanlının pozulmuş fundamental hüquqları bərpa edilmiş, tarixi ədalət bərqərar olmuşdur. Azərbaycan Prezidentinin 24 sentyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 76-cı sessiyasında qeyd etdiyi kimi, "Azərbaycan Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb və hər kəs bunu nəzərə almalıdır. Ermənistan regional əməkdaşlıq və qonşularına qarşı qanunsuz və əsassız ərazi iddiaları arasında seçim etməlidir".

Prezident İlham Əliyev BMT Baş Assambleyası kürsüsündən birmənalı şəkildə bəyan etmişdir: "Azərbaycan beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini bundan sonra da dünya müstəvisində qətiyyətli şəkildə müdafiə edəcək və beynəlxalq sərhədlərimiz çərçivəsində ölkəmizin, xalqımızın inkişafına yönəlmiş səyləri davam etdirəcəkdir. Ümid edirik ki, çoxdan gözlənilən sülh, təhlükəsizlik və sabitlik, nəhayət, Cənubi Qafqazda bərqərar olacaq. Əks təqdirdə yenidən Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid olarsa, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik".

Hər bir dövlətin daxili və xarici siyasətinin uğurunun təməlində, ilk növbədə, xalqın birliyi və xalqın dəstəyi dayanır. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının birliyinin və inamının ən bariz göstəricisi olmuşdur. Prezident İlham Əliyev böyük Zəfərin əldə edilməsi ilə bağlı xalqa ünvanladığı müraciətində bunu çox aydın şəkildə ifadə etmişdir: "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla!"

*Əminik ki, təməlində milli maraqların dayandığı Azərbaycan xarici siyasəti bundan sonra da bölgədə və dünyada sülh və təhlükəsizliyin, beynəlxalq hüququn təmin edilməsinə töhfəsini verəcək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqının birliyinə əsaslanan uğurlu xarici siyasəti ölkəmizə yeni-yeni zəfərlər bəxş edəcəkdir.*

**Ceyhun BAYRAMOV,**
***Azərbaycan Respublikasının xarici işlər naziri***

# *Prezident İlham Əliyev:* “İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizdir, Azərbaycan tarixində buna bənzər qələbə olmayıb”

“İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur”.

“Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar”.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 113-cü kitabında yer alan bu fikirlər dövlət başçısının avqustun 16-da Kəlbəcər şəhərində dövlət bayrağını ucaltdıqdan sonra söylədiyi çıxışından götürülüb. Prezident dərin məzmunlu çıxışında İkinci Qarabağ müharibəsinin erməni mifologiyasını tamamilə məhv etdiyini vurğulayaraq deyib: “Çünki uzun illər ərzində, 30 il ərzində ermənilər dırnaqarası “hərbi qələbə” ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu “yenilməz ordu”dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah və sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu “yenilməz ordu” kimi təqdim edən mifologiyaya son qoyduq”. Prezident



İlham Əliyev çıxışında həmçinin deyib ki, hazırda əsas vəzifə azad edilmiş torpaqlarda möhkəmlənmək, yenidənqurma və bərpa işləri aparmaq, keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaqdır.

Çoxcildliyin yeni kitabındakı materiallar 2021-ci ilin iyun-avqust aylarını əhatə edir.

Bu kitaba Prezident İlham Əliyevin işğaldan azad edilən Kəlbəcər, Laçın, Füzuli rayonlarına, Şuşa şəhərinə səfərləri haqqında geniş informasiyalar daxil olunub.

Dövlət başçısı iyulun 22-də Daşkəsən və Goranboy rayonlarına, Naftalan şəhərinə səfər edib, bir sıra mühüm infrastruktur obyektlərinin açılış mərasimlərində iştirak edib, Daşkəsəndə Azərbaycan Televiziyasına müsahibə verib. Kitabda bununla bağlı materiallarla tanış olmaq mümkündür.

Yeni nəşrə Prezident İlham Əliyevin Ələt Azad İqtisadi Zonasının təməlini qoyduqdan sonra Azərbaycan Televiziyasına, habelə Qarabağ Zəfəri ilə bağlı Bakıda “CNN Türk” kanalına müsahibələrinin mətnləri daxil edilib.

Oxucular 113-cü cilddə Azərbaycan Prezidentinin “Qoşulmama Hərəkatı”nın xarici işlər nazirlərinin onlayn konfransında çıxışının mətni, Türkiyə, Pakistan, ABŞ və digər dövlətlərin Bakıya gəlmiş nümayəndə heyətlərini, görkəmli qazax şairi və ictimai xadim Oljas Süleymenovu qəbul etməsinə, dövlət başçıları ilə telefon danışıqlarına dair informasiyalarla da tanış ola bilərlər.

Çoxcildliyin yeni kitabında dövlət başçısının Abşeron DOST mərkəzinin açılış mərasimində iştirakı, Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə, Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimlərində çıxışlarının mətnləri, 6 saylı Bakı “ASAN xidmət” mərkəzinin, Bakının Xətai rayonu ərazisində yeni yaradılmış “Gənclik” parkının açılış mərasimlərində iştirakı haqqında materiallar toplanıb.

“Azərnəşr” tərəfindən buraxılan çoxcildliyin 113-cü kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Kambocanın Kralı Əlahəzrət Norodom Sihamoniyə

Əlahəzrət!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlər bundan sonra da dostluq məcrasında inkişaf edəcək, beynəlxalq təsisatlar, xüsusən də Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrimiz genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Kamboca xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2021-ci il*

# Dövlət komissiyasının fəaliyyətinin bir ilinin yekunları müzakirə edilib

Noyabrın 6-da Azərbaycan Respublikasının Baş naziri, 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan ərazisinə təcavüzünün nəticələrinin aradan qaldırılması üzrə Dövlət Komissiyasının sədri Əli Əsədovun rəhbərliyi ilə komissiyanın növbəti iclası keçirilib.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Əli Əsədov Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla, Azərbaycanın rəşadətli Silahlı Qüvvələrini 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər münasibətilə təbrik edib və Qələbəyə görə təşəkkürünü bildirib, şəhidlərə rəhmət, qazilərə sağlamlıq diləyib.

İclasda komissiyanın fəaliyyətinin bir ili ərzində görülmüş işlərin vəziyyəti müzakirə olunub.

Baş nazir qeyd edib ki, bütövlükdə dəymiş ziyanın aradan qaldırılması üçün indiyədək 113,7 milyon manat, o cümlədən infrastruktur (yollar, rabitə, su, elektrik və qaz təchizatı) üzrə 27,4 milyon manat, tikinti, təmir və bərpa işlərinə 50,0 milyon manat, Gəncə şəhərində 89 ailəyə çoxmənzilli evlərin alınmasına 6,6 milyon manat, kənd təsərrüfatı üzrə 1,4 milyon manat, sahibkarların dövriyyə vəsaitləri üzrə 4,8 milyon manat, nəqliyyat vasitələri üzrə 0,6 milyon manat, 8 təhsil müəssisəsində tikinti-təmir üzrə ilkin olaraq 7,4 milyon manat və əhalinin məişət və şəxsi əşyalarına dəymiş ziyan üzrə təxminən 50 min vətəndaşımızı əhatə edən 12 370 ailəyə maddi yardımlar üzrə 15,5 milyon manat vəsait xərclənib.

Komissiya tərəfindən 13 min 295 obyektin təmir və bərpası haqqında qərar qəbul edilib.

Ötən dövr ərzində 12 min 125 obyektdə, yəni bütün obyektlərin 91,2 faizində təmir, bərpa və tikinti işləri tam başa çatdırılıb.

Hazırda 1094 obyektdə, yəni bütün obyektlərin 8,2 faizində tikinti və təmir işləri davam etdirilir.

Beləliklə, təmir və tikintisi üzrə işlərin başa çatdığı və icra prosesində olan obyektlərin ümumi sayı 13,219 və ya 99,4 faiz təşkil edir.

Bu və ya digər səbəblərdən təmir və tikintisinə başlanmamış obyektlərin sayı 76 və ya ümumi obyektlərin 0,6 faizidir. Bu kateqoriyadan olan obyektlər üzrə zəruri dəqiqləşdirmələr aparılır.

İclasda məruzələr dinlənilib və işlərin yekun mərhələsinə dair müvafiq tapşırıqlar verilib.

# Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişaf perspektivləri müzakirə olunub

Noyabrın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonla görüşüb.



Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov ABŞ Dövlət katibinin köməkçisinin regiona səfəri çərçivəsində Azərbaycanda olmasının Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişaf perspektivlərinin müzakirəsi, habelə regiondakı cari vəziyyətlə tanışlıq baxımından əhəmiyyət kəsb etdiyini bildirib. Ölkələrimiz arasında uzun və uğurlu tərəfdaşlıq münasibətlərinin mövcud olduğu vurğulanıb.

ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olson səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti ilə çox məhsuldar görüşün keçirildiyini qeyd edib. Azərbaycanın NATO-nun sülhməramlı missiyası çərçivəsində Əfqanıstanda təhlükəsizliyin təmin edilməsinə verdiyi dəstək yüksək qiymətləndirilib və bu xüsusda təşəkkür ifadə olunub.

Görüşdə tərəflər postmünaqişə mərhələsində bölgədə mövcud olan cari vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

C.Bayramov üçtərəfli bəyanatların icrası ilə bağlı Azərbaycan tərəfindən birtərəfli qaydada atılan addımlar barədə qarşı tərəfə məlumat verib.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Biz, Azərbaycandakı dini konfessiyaların rəhbərləri zati-alinizi - dünya şöhrətli qalib siyasi lideri Azərbaycan xalqının Vətən müharibəsində qazandığı Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik etməkdən şərəf duyuruq. Azərbaycan xalqı və dövləti naminə misilsiz fəaliyyətinizdə Sizə Ulu Yaradandan uğurlar diləyirik.

Möhtərəm cənab Prezident, xalqımız öz tarixinin ən möhtəşəm bayram sevincini - Vətən müharibəsindəki Zəfərinin qürurunu yaşayır. Azərbaycan xalqının haqq mübarizəsinin qalibiyyət dastanını dünya tarixi səhifələrinə möhtəşəm Zəfər Günü kimi həkk etmiş şəxsiyyət olaraq bu bayramın sevinc və şərəfini ən çox haqq edən məhz zati-alinizdir. Tarixi ədalətin bərpası - əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün Ali Baş Komandan olaraq rəhbərlik etdiyiniz qalibiyyətli Vətən müharibəsi haqqın, ədalətin təntənəsinə inamı təcəssüm etdirir. Azərbaycan Ordusunun gücünə, Azərbaycan xalqının sarsılmaz həmrəylik və iradəsinə, dövlət-xalq birliyinə güvənən müzəffər sərkərdə olaraq Sizin dünya miqyasında apardığınız fəal, dərin zəka və dəmir məntiqə əsaslanan siyasət Azərbaycanın haqq işinin davamlı qələbəsini təmin etdi. Uca Yaradanın köməyi, dövlət rəhbərimizin qətiyyəti, ordumuzun hünəri ilə Azərbaycanın Dövlət Bayrağı azad Qarabağda dalğalanır, məscidlərin minarələrindən Azan səsləri ucalır, müqəddəs məbədlərimiz əsarətdən qurtulmuşdur.

Möhtərəm cənab Prezident, biz, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri fəxr edirik ki, dilindən və dinindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz fəxarət anları yaşadan şanlı Zəfərin müəllifi Azərbaycan xalqının böyük oğlu, müdrik və qətiyyətli dövlət rəhbərimiz zati-aliləri İlham Əliyevdir. Bu mübarək bayram bizə fürsət verir ki, Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinizə görə Sizə bütün Azərbaycan dindarlarının dərin təşəkkür və minnətdarlıqlarını bir daha ifadə edək. Sizin rəhbərliyinizlə multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycan monoetnik, faşizm, vandalizm təzahürlərinə haqq qazandıran Ermənistana qalib gəldi. İşğal olunmuş Azərbaycan torpaqlarında erməni vandalizminin acı nəticələrini - vəhşicəsinə dağıdılmış şəhər və kəndləri seyr etmək nə qədər ağır olsa da, Sizin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə bərabər həmin məkanların tezliklə bərpası istiqamətində həyata keçirdiyiniz genişmiqyaslı quruculuq işləri, Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı iradə və fəaliyyətiniz bizi hədsiz sevindirir. Qısa zamanda Azərbaycanın Qarabağ torpaqları Sizin möhkəm siyasi iradəniz sayəsində öz yeni, nəfis görkəmi, möhtəşəm infrastruktur layihələri, abad şəhər və kəndləri, beynəlxalq hava limanları ilə hər birimizi sevindirir. Azərbaycan dindarları Sizin xalq naminə gördüyünüz işləri yüksək dəyərləndirir, Uca Yaradanın lütfü, dövlət başçımızın rəhbərliyi ilə gələcəyimizə ümidlə baxır, zati-alinizin Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst-xətini və Sizinlə birgə böyük səylər göstərən silahdaşınız Mehriban xanım Əliyevanın dəyərli fəaliyyətini hər zaman dəstəkləyirlər. Biz dini konfessiya rəhbərləri olaraq Sizə ölkə daxilində və beynəlxalq müstəvidə təqdirəlayiq fəaliyyətinizə, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınıza görə təmsil etdiyimiz icmalar adından dərin minnətdarlığımızı bildirir, Uca Yaradandan bütün əməllərinizə xeyir-dualar diləyirik.

Möhtərəm cənab Prezident, ölkə dindarlarının adından Sizi bir daha Zəfər bayramı münasibətilə ürəkdən təbrik edirik. Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, şərəfli fəaliyyətinizdə uğurlar diləyirik. Qoy bu Zəfər bayramı, böyük Qələbəmizin ilk ildönümü dövlətimizin və xalqımızın regionda və dünyada yeni nailiyyət və uğurlarına vəsilə olsun! O Bir Yaradanımız daim yardımçınız olsun, öz lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin, Azərbaycanı və bütün Yer kürəsini hifz etsin! Amin!

*Hörmətlə,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri,***

***Melih YEVDAYEV,***
***Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri,***

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiya İdarəsinin katibi,***

***Yepiskop Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti,***

***Aleksandr ŞAROVSKI,***
***Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri,***

***Robert MOBİLİ,***
***Alban-udi xristian dini icmasının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasının Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatdı. Bu Qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildi, xalqımıza inam gəldi. Tarixi Zəfər Sizin uzun illər Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığınız mübarizə, diplomatik fəaliyyətiniz və ordu quruculuğu nəticəsində mümkün oldu.

Hazırda Qarabağ bölgəsində qarşıda böyük bərpa işləri durur. Füzuli Beynəlxalq Hava Limanının qısa zamanda tikilib istifadəyə verilməsi göstərdi ki, Sizin rəhbərliyiniz altında aparılan bərpa işləri böyük sürətlə həyata keçirilir və ölkəmizin ayrılmaz hissəsi olan Qarabağ bölgəsi dünyanın ən gözəl guşəsinə, respublikamızın mənəvi paytaxtına çevrilir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm cənab Prezident!

8 Noyabr - Zəfər Günü münasibətilə Sizə, qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan xalqı, rəşadətli Azərbaycan Ordusu onillər boyunca davam edən haqsızlığa, zülmə, ədalətsizliyə və hüquqsuzluğa son qoydu, Birləşmiş Millətlər Təşkilatının qətnamələrini öz gücü ilə icra etməklə ikili standartları zərərsizləşdirdi.

Bu şanlı Zəfər birlik, dönməzlik və əyilməz iradənin rəmzi kimi yalnız qardaş Azərbaycanın deyil, bütün türk dünyasının tarixinə qızıl hərflərlə əbədi həkk olundu.

Türk dünyasında milli kimliyin, düşüncə və fikir birliyinin yüksək səviyyəyə qalxmasına vəsilə olan, səmərəli və faydalı əməkdaşlığımıza yeni üfüqlər açan möhtəşəm Zəfər Günü münasibətilə zati-alinizi bir daha təbrik edirəm. Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, qardaş Azərbaycanımıza sülh, inkişaf, əmin-amanlıq və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Darxan KIDIRƏLİ,***
***Beynəlxalq Türk Akademiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi və Azərbaycan xalqını 8 Noyabr - Zəfər Günü münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) adından və şəxsən öz adımdan ən səmimi duyğularımla təbrik edirəm.

Zati-alinizin liderliyi ilə qazanılmış bu şanlı Zəfər Azərbaycan xalqının birlik və həmrəyliyini bütün dünyaya nümayiş etdirdi.

Əminəm ki, qardaş Azərbaycanın gələcək inkişafında bu Qələbənin böyük töhfələri olacaq, Qarabağdakı dağıdılmış tarixi və mədəni mirasımız tezliklə Sizin rəhbərliyinizlə bərpa edilərək dünya mədəniyyətinə qovuşacaqdır.

TÜRKSOY ilə Azərbaycan Respublikası arasında mədəniyyət sahəsindəki əlaqələrin daha da inkişaf etdirilməsini, zati-alinizin müdrik və qətiyyətli rəhbərliyi ilə Azərbaycan xalqının daim müstəqillik və əmin-amanlıq şəraitində yaşamasını arzu edirəm.

*Hörmətlə,*

***Düsen KASEİNOV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Bu günlərdə Azərbaycanın dostları Azərbaycan xalqını Vətənin ərazi bütövlüyünü təbii sərhədlər daxilində öz gücünə bərpa etməsi münasibətilə təbrik edirlər. 8 Noyabr Azərbaycanın müasir tarixində ən parlaq, ümummilli bayrama çevrilib. Keçmiş SSRİ respublikalarının çoxu müstəqillik əldə edəndə ciddi, bəziləri isə həlledilməz problemlərlə üzləşmişdi. Siz Ali Baş Komandan kimi Azərbaycanın əsas problemini müvəffəqiyyətlə həll etməyə nail oldunuz. Bu Qələbə erməni xalqının yeni nəsillərinə də çoxdan köhnəlmiş, təhlükəli fobiyalardan xilas olmağa, qonşularla əməkdaşlıq və qarşılıqlı anlaşma mühitində yaşamağa imkan verəcək.

Azərbaycana səmimi-qəlbdən sülh və tərəqqi, dahi Heydər Əliyevin oğluna və onun ailəsinə uzun ömür, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Oljas SÜLEYMENOV,***
***Qazaxıstanın Xalq yazıçısı, görkəmli şair və ictimai xadim***

# *Əsəd QEYSƏR:* “Pakistan hökuməti, parlamenti və xalqı Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib”

Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Əsəd Qeysər 8 Noyabr - Zəfər Günü münasibətilə Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubu ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, məktubda Milli Assambleyanın Sədri 44 günlük Vətən müharibəsinin birinci ildönümü münasibətilə təbriklərini çatdırıb. Ötənilki müharibədə Azərbaycanın qələbəsini əlamətdar nailiyyət kimi qiymətləndirib.

Əsəd Qeysər Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin Pakistanda da qeyd olunduğunu vurğulayıb. Bildirib ki, bu nailiyyətə görə Azərbaycan rəhbərliyi, Silahlı Qüvvələri və xalqı hörmətə və alqışa layiqdir.

Məktubda Azərbaycan torpaqlarının azad edilməsində yüksək peşəkarlıq və şücaət göstərmiş Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram ifadə olunub. Həmçinin diqqətə çatdırıb ki, Pakistan hökuməti, parlamenti və xalqı hər zaman BMT qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması işində ölkəmizi bundan sonra da dəstəkləyəcək.

Pakistan Milli Assambleyasının Sədri qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıb.

# YAP Mərkəzi Aparatında Zəfər Günü münasibətilə qanvermə aksiyası keçirilib

Noyabrın 6-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında 8 Noyabr - Zəfər Günü münasibətilə qanvermə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, qanvermə aksiyasında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və 300 nəfərə yaxın YAP üzvü iştirak edib.

Yeni Azərbaycan Partiyası ənənəvi olaraq hər il qanvermə aksiyaları keçirir. Xüsusilə partiya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünə qoşularaq qanvermə aksiyaları təşkil edib. YAP Mərkəzi Aparatında təşkil olunan növbəti qanvermə aksiyası da



partiya üzvlərinin vətənpərvərliyinin, onların ölkəmizdə həyata keçirilən bütün humanist işlərdə fəallıq göstərmələrinin ifadəsidir.

Aksiyaya Mərkəzi Qan Bankını təmsil edən tibbi heyət cəlb olunub. Mərkəzi Qan Bankının donorçuluq müayinə kabinetinin müdiri Namirə Abbasova bildirib ki, Yeni Azərbaycan Partiyasının mütəmadi olaraq qanvermə aksiyaları təşkil etməsi çox humanist addımdır. O deyib: “Burada toplanan qan talassemiya, irsi qan xəstəliklərindən əziyyət çəkən insanlar üçün istifadə olunacaq. Qanvermə aksiyasının 8 Noyabr - Zəfər Günü münasibətilə təşkil edilməsi çox yaxşı haldır. İnsanlar bu humanist addımı yüksək dəyərləndirərək qanvermədə fəal iştirak edirlər. Biz də Milli Hematologiya və Transfuziologiya Mərkəzi adından Yeni Azərbaycan Partiyasına və aksiyada iştirak edən hər bir kəsə təşəkkürümüzü bildiririk”.

## Qlobal Bakı Forumunda “Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq üçün perspektivlər” mövzusu müzakirə edilib





Noyabrın 6-da VIII Qlobal Bakı Forumu çərçivəsində “Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq üçün perspektivlər” mövzusunda səkkizinci panel iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Latviyanın keçmiş Prezidenti Valdis Zatlersin moderatorluğu ilə keçən panel iclasında ABŞ, Rusiya, İran, Türkiyə və Çinin maraqlarının kəsişdiyi strateji region sayılan Cənubi Qafqaz barədə fikirlər səsləndirilib.

İclasda çıxış edən Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ATƏT-in həmsədrlərinin göstərdikləri səylərin nəticə vermədiyini deyib. Bildirib ki, Azərbaycan uğurlu əməliyyat nəticəsində ərazilərini tamamilə işğaldan azad edib. Qarabağ münaqişəsinə son qoyulub, artıq Qarabağ Azərbaycanın daxili işidir. İndi Cənubi Qafqazda yeni vəziyyət formalaşır. Azərbaycan Cənubi Qafqazda Gürcüstanla birgə layihələr həyata keçirir, Ermənistanın da bu prosesə qoşulmasını istəyir.

“Zəngəzur dəhlizinin açılması regionda nəqliyyat əlaqələrinin bərpasını təmin edəcək. Azərbaycan Ermənistanla sərhədlərin delimitasiya və demarkasiyasına başlanmasını, sülh müqaviləsinin imzalanmasını istəyir”, - deyən Hikmət Hacıyev əlavə edib ki, Fransa ilə Almaniya arasında olduğu kimi, Azərbaycanla Ermənistan arasında da sülh müqaviləsi imzalanmasını istəyirik.

Azərbaycan Prezidentinin köməkçisi diqqətə çatdırıb ki, regionda sülh və inkişaf üçün yeni təfəkkür, yeni strategiya lazımdır. Xüsusilə Ermənistan öz strategiyasını köklü şəkildə dəyişməlidir. “Ermənistan Azərbaycanın əzəli torpaqlarını işğal etməyə köklənib, lakin uğursuzluğa düçar olub” deyən Hikmət Hacıyev qeyd edib ki, hazırda vəziyyət tamamilə dəyişib. İşğalçılıq siyasəti Ermənistanın müstəqilliyinə, iqtisadi potensialına zərər vurub. İki ölkə arasındakı sülh eyni zamanda onun inkişafına təkan verəcək. Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamasına baxmayaraq, Ermənistan yaxşı qonşuluq münasibətləri qursa, ərazi iddialarına son qoysa, bu, ona xeyir gətirəcək. Nəticədə Ermənistan tranzit ölkəyə çevrilə və dənizə çıxış əldə edə bilər.

“Bəllidir ki, uğursuzluğa düçar olan hakimiyyət yenidən seçilə bilməz. Ancaq Ermənistanda baş nazir yenidən seçildi və biz gördük ki, Ermənistan xalqı işğalçılıq siyasətindən yorulub. Birinci Qarabağ müharibəsində dörd mindən artıq Azərbaycan vətəndaşı itkin düşüb. Biz bu insanların taleyi haqqında məlumatları əldə etməliyik. Azərbaycan eyni zamanda minalardan ən çox əziyyət çəkən ölkədir. Ermənistan işğal dövründə Azərbaycan ərazilərini minalayıb. Onlar bunu inkar edirdilər, lakin sonra etiraf etdilər, bir neçə mina xəritəsi təqdim olundu. Lakin bu xəritələrin də cəmi 25 faizi faydalıdır. Revanşizm Ermənistanın özü və region üçün bir bəla ola bilər. Biz istəməzdik ki, hadisələr bu səpkidə davam etsin. Azərbaycan bütün region ölkələrinin əməkdaşlıq etməsini istəyir”, - deyə Hikmət Hacıyev söyləyib.

Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım çıxışında diqqətə çatdırıb ki, Azərbaycan 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarını azad edib. Şanlı Zəfər nəticəsində bu gün biz Cənubi Qafqaz regionunda sülhün bərqərar olması və inkişafı məsələsini müzakirə edirik.

Azərbaycanın Ermənistana sülh müqaviləsi təklif etdiyini bildirən Binəli Yıldırım qeyd edib ki, heç kim bu sülh müqaviləsinə qarşı çıxmamalıdır. Sülh razılaşması nəticəsində Türkiyə ilə Ermənistan arasında da münasibətlərin normallaşması istiqamətində hər hansı problem qalmayacaq. Türkiyə bu münaqişənin həlli istiqamətində region ölkələri ilə geniş iş aparır. Region dövlətləri arasındakı əməkdaşlıq, qarşılıqlı anlayış mühitində Cənubi Qafqaz regionu daha da inkişaf edəcək.

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin keçmiş köməkçisi Devid Merkel söyləyib ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir, beynəlxalq terrorizmlə mübarizədə böyük səylər göstərir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra çox şey dəyişib və xüsusilə ölkə artıq ərazi bütövlüyünü bərpa edib. Mürəkkəb regionda yerləşməsinə baxmayaraq, Azərbaycan istər qonşu ölkələrlə, istərsə də regiondan kənarda münasibətləri bacarıqla idarə edir. Cənubi Qafqaz regionunda Azərbaycan böyük geosiyasi əhəmiyyət kəsb edir. Devid Merkel onu da deyib ki, ATƏT Qarabağ münaqişəsinin həllində uğursuzluğa düçar olub.

Panel iclasında çıxış edən Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin söyləyib ki, Azərbaycan Ermənistanla olan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin biz buna nail ola bilmədik. Çünki Ermənistan hər zaman yeni ərazilər işğal etmək istəyirdi. Ermənistanın bölgədə qonşu ölkələrlə normal münasibətlər qurmasının əhəmiyyətini qeyd edən Hikmət Çətin erməni diasporunun bu məsələdə mənfi rol oynadığını deyib.

O, həmçinin qeyd edib ki, ABŞ, Rusiya və Fransanın həmsədri olduğu ATƏT-in Minsk qrupu münaqişənin danışıqlar yolu ilə həllini təmin edə bilməyib. Artıq başqa yol qalmadığı üçün Prezident İlham Əliyevin əmri ilə əks-hücuma keçən Azərbaycan Ordusu ötən il 44 günlük müharibədə işğal altındakı torpaqları azad edib. Azərbaycan torpaqlarını işğaldan azad edib, artıq gələcəyə baxmaq lazımdır. Regionda sülh, əməkdaşlıq məsələləri həll olunmalıdır.

“Azərbaycan bütün sahələrdə tərəqqi əldə edib. Lakin Ermənistanda vəziyyət ürəkaçan deyil, gənc nəsil Ermənistanı tərk edir. Onlar Ermənistanda gələcək görmürlər. Biz ermənilərlə yaxşı münasibətlər qurmaq istəyirik”, - deyə Türkiyənin sabiq xarici işlər naziri əlavə edib.

ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekuta bildirib ki, 44 günlük müharibədə Azərbaycan əzəli torpaqlarını işğaldan azad edib. Bu yeni vəziyyət Azərbaycanı bu ərazilərdə söz sahibinə çevirib.

Azərbaycanın sülh müqaviləsinə meyilliliyinin təqdirəlayiq olduğunu bildirən ABŞ-ın sabiq səfiri deyib ki, 30 il ərzində davam edən münaqişə azərbaycanlılarla ermənilər arasında düşmənçilik münasibətləri formalaşdırıb. Biz Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması üçün səylərimizi əsirgəməməliyik. Bu prosesin canlanmasına müsbət təsir göstərməliyik. Robert Sekuta onu da əlavə edib ki, tədqiqatlar nəticəsində Cənubi Qafqazın dünyaya az inteqrasiya etdiyini görmək mümkündür. Regionun inkişafı həm də burada sülhün, sabitliyin bərqərar olması potensialını artıracaq. İki ölkə arasında iqtisadi əməkdaşlıq barədə danışıqlar daha da genişləndirilməlidir.

Panel iclası müzakirələrlə davam edib.

## VIII Qlobal Bakı Forumu: Qərbi Balkan ölkələrinin Avropa İttifaqına qoşulmaq şərtləri o qədər də şəffaf deyil

Noyabrın 6-da VIII Qlobal Bakı Forumu çərçivəsində “Qərbi Balkan ölkələrinin qiymətləndirilməsi: İrəliyə doğru yol” mövzusunda doqquzuncu panel iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, Bosniya və Herseqovinanın sabiq Baş naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü Zlatko Laqumciyanın moderatorluğu ilə keçən iclasda Qərbi Balkan ölkələrində gedən siyasi proseslər, region ölkələrini gözləyən imkanlar və təhdidlər müzakirə edilib.

Panel iclasda Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, Monteneqronun sabiq Prezidenti Filip Vuyanoviç, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, Çex Respublikasının sabiq Baş naziri Jan Fişer, Amerika Xarici Əlaqələr üzrə Milli Komitəsinin prezidenti Susan Elliott çıxış ediblər.

Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov bildirib ki, Avropa İttifaqının genişlənməsi Qərbi Balkan ölkələrinin qoşulmaması ilə tamamlana bilməz. O, Avropa İttifaqının Qərbi Balkan ölkələrinə qoyduğu şərtlərin digərləri ilə müqayisədə daha sərt olduğuna diqqət çəkərək deyib: “Hazırkı vəziyyət isə Qərbi Balkan ölkələrinin Avropa İttifaqına inteqrasiyasını çətinləşdirir. Balkan ölkələrinin Avropa İttifaqına qoşulması şərtləri də şəffaf deyil. Bunu Türkiyənin qoşula bilməmə sindromu üzərində də görə bilərik”.

Serbiyanın sabiq Prezidenti Boris Tadiç qeyd edib ki, hər bir ölkə öz siyasətini qlobal iqtisadiyyatı nəzərə alaraq reallığa uyğun qurmalıdır. Azərbaycan özünün əsas problemini, yəni Qarabağ münaqişəni effektiv şəkildə həll edib. Problem öz həllini hərb üsulu ilə tapdı ki, bu da mövcud şəraitdə yeganə çıxış yolu idi.

Onun sözlərinə görə, ölkələr regionun xəritəsinə dar çərçivədə deyil, geniş şəkildə baxmalıdırlar. Siyasət bir sıra digər məsələlərlə, o cümlədən kommunikasiyalar, iqtisadiyyat və digər sahələrlə əlaqəlidir. Hesab edirəm ki, böyük dünya ölkələri bölgələrin xarakterik xüsusiyyətlərini nəzərə alaraq siyasət yürütməlidir.

Sabiq Prezident, həmçinin vurğulayıb ki, Serbiya dövlətinin Avropa ilə bağlı strategiyası bu ölkəyə uğur gətirib. Serbiyanın Avropa ilə münasibətləri uzun illər boyunca uğurlu olsa da, hazırda gələcəyimizin təhlükəsiz olmadığına dair Avropa İttifaqından siqnallar alırıq. Avropa İttifaqı Serbiyanın strateji və siyasi vəziyyətini dəyişir.

“Qərbi Balkan regionu Avropanın döyünən ürəyidir. Avropa İttifaqı Qərbi Balkan regionuna doğru genişlənməyə getməsə, strateji problemlərlə üzləşəcək. Gələcəkdə Qərbi Balkan ölkələrinin Avropa İttifaqına üzv olacağına ümid edirəm”, - deyə sabiq Prezident bildirib.

Boris Tadiç Kosovonun müstəqilliyini elan etməsinin Qərbi Balkan regionunun siyasi landşaftında köklü dəyişikliklərə səbəb olduğunu da diqqətə çatdırıb.

Monteneqronun sabiq Prezidenti Filip Vuyanoviç qeyd edib ki, Qərbi Balkan ölkələri ilə əməkdaşlıq, onların tərəfdaşlığa sövq edilməsi vacib amillərdəndir. O, həmçinin deyib: “Qərbi Balkan ölkələri sülh şəraitində yaşamalıdırlar. Mövcud reallıqda Balkan ölkələri öz mövqelərini bildirməli və regionda nüfuzlarını artırmalıdırlar. Bu cür beynəlxalq təşəbbüslər əsasında yeni əməkdaşlıqların formalaşması dünya ölkələri, xüsusilə də Qərbi Balkan regionu üçün əhəmiyyətlidir. Ümid edirəm ki, gələcəkdə vahid təşkilatların təsis edilməsi ilə dünya ölkələri partnyorluq çərçivəsində birləşə, xüsusilə Qərbi Balkan ölkələrinin perspektivlərinin reallaşmasına təkan verilər. Fikrimcə, VIII Qlobal Bakı Forumunda bu cür mövzuların müzakirəsi nəticəsində bir sıra sahələrdə irəliləyiş əldə ediləcək. Aktual məsələlər haqqında aparılan fikir mübadiləsi olduqca faydalıdır”.

Xorvatiya Respublikasının sabiq Prezidenti İvo Yosipoviç Qərbi Balkan ölkələrinin Avropa İttifaqına qoşulması şərtlərinin o qədər də şəffaf olmadığını diqqətə çatdıraraq deyib: “Bir sıra qaranlıq məqamlar hələ də qalmaqdadır. İstənilən halda, Qərbi Balkan ölkələrinin Avropa İttifaqına marağı artıb. Hesab edirəm ki, Balkan ölkələri beynəlxalq müstəvidə hər cür faydalı əməkdaşlıqlara hazır olmalıdırlar. Qərbi Balkan ölkələrinin vətəndaşlarının da bu məsələyə isti yanaşdığı hiss edilir. VIII Qlobal Bakı Forumundan aparılan müzakirələr, problemlər ətrafında fikir mübadiləsi bu baxımdan da çox əhəmiyyətlidir”.

Çex Respublikasının sabiq Baş naziri Yan Fişerin sözlərinə görə, Qərbi Balkan ölkələrinin Avropaya məxsus olması inkar edilə bilməz. Ona görə də Balkan ölkələrinin Avropa İttifaqına üzvlük məsələsi hər zaman müzakirə mövzusu olmalı və gündəmdə qalmalıdır ki, problem həllini tapsın. İnteqrasiya reallaşmadığı halda Qərbi Balkan regionu Avropa İttifaqı üçün problemə çevrilə bilər. Bu gün Qərbi Balkan ölkələrinin dəyərləndirilməsi mövzusunda aparılan müzakirələr zamanı onların Avropa İttifaqına inteqrasiyası ilə bağlı real vəziyyət diplomatlar tərəfindən aydın təsvir olundu. Fikrimcə, regionda millətçiliyin qarşısını almaq da vacib məsələlərdəndir. Çünki son dövrlər həmrəylik daha çox millətçiliklə əvəz olunub. Populizm isə təbii ki, demokratik idarəetmənin qarşısını alır. Qərbi Balkan regionunda dayanıqlı inkişafın qazanılmasının yollarını öyrənməli, bərabərsizliyin qarşısını almağa çalışmalıyıq. Qərbi Balkan ölkələri hələ də reallaşmayan böyük potensiala malikdir. Hesab edirəm ki, VIII Qlobal Bakı Forumunda aparılan müzakirələr bu baxımdan faydalı olacaq və bir sıra problemlər öz həllini tapacaq. Ümumiyyətlə, problemlərin qarşısını almaq üçün müxtəlif ideyaların səsləndirilməsi, müzakirələrin aparılması vacib əhəmiyyətə malikdir”.

Amerika Xarici Siyasəti Milli Komitəsinin Prezidenti Süzan Elliott da çıxışında Qərbi Balkan ölkələrinin Avropa İttifaqına daxil olmasını zəruri hesab edib və həmin regionla daha fəal işləməyin vacibliyini qeyd edib.

## VIII Qlobal Bakı Forumunun sonuncu panel iclası “Qlobal arenada Avropa İttifaqının gələcəyi” mövzusuna həsr olunub

Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “COVID-19-dan sonrakı dünya” mövzusunda VIII Qlobal Bakı Forumu öz işini başa çatdırıb. Hibrid formatda təşkil edilən beynəlxalq tədbirdə dünyanın 40-dan çox ölkəsindən 300-ə yaxın nüfuzlu qonaq iştirak edib.




AZƏRTAC xəbər verir ki, VIII Qlobal Bakı Forumunun sonuncu - on birinci panel iclası “Qlobal arenada Avropa İttifaqının gələcəyi” mövzusuna həsr olunub. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqanın moderatorluğu ilə keçirilən tədbirdə Avropa İttifaqının (Aİ) dünya nizamında gələcək rolu və yeri, onun qlobal aktor kimi imkanları, İttifaqın qarşısında duran daxili və xarici çağırışlar müzakirə edilib.

Panelin moderatoru, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa Avropa İttifaqının mövcud sistemdə üstün mövqelərini qorumasının vacibliyini bildirib. Qeyd olunub ki, yeni dünya nizamının formalaşması prosesi gedir. COVID-19 pandemiyasından doğan iqtisadi böhran və ziddiyyətlər yeni sistemin formalaşmasını labüd edir. Bütün bu nüansları nəzərə alaraq Avropa İttifaqının mövcud sistemdə üstün mövqelərini qorumaq və daha da gücləndirmək lazım gəlir.

Avropa İttifaqının tarix etibarilə yeni yaranan təsisatlardan olduğunu bildirən moderator mövcud problemlərdən bəhs edib. O, Avropa ölkələrinin İkinci Dünya müharibəsindən çıxandan sonra çətin dövr yaşadığını diqqətə çatdırıb. Həmçinin Aİ-nin yeni dünya nizamının formalaşmasında fəaliyyətini artıracağına ümid etdiyini bildirib.

Panel müzakirələrdə məruzəçilər qismində çıxış edən Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç Avropa ölkələrini birləşdirən dəyərlərin qorunub saxlanmasının vacibliyini vurğulayıb.

Qlobal tendensiyaların dəyişdiyini diqqətə çatdıran məruzəçi Aİ-nin hazırkı reallıqda yardımçı rolunu oynamadığını deyib. O bildirib: “Bizim Aİ-dən gözləntilərimiz çoxdur. Amma birinci növbədə özümüzə güvənməliyik. Biz vahid və işgüzar Avropanı görmək istərdik”.

Avropa İttifaqının çətin vəziyyətdə birləşə və vahid siyasət yürüdə bilmədiyini vurğulayan Xorvatiyanın sabiq Prezidenti ölkəsində demokratik nizamın bərqərar edildiyini deyib.

Boston Qlobal Forumunun həmtəsisçisi və baş direktoru Nguyen Anh Tuan güclərin birləşdirilməsinin vacibliyini qeyd edib. Vacib məsələlərdən birinin də maarifləndirmə olduğunu söyləyən baş direktor deyib: “Rəqəmsal idarəetmə üçün bir araya gəlməliyik. Düşünürəm ki, Aİ bu işi apara bilər. Elm, texnologiya və təhsil sahəsində əməkdaşlığı birləşdirməli və gücləndirməliyik”.

Boston Qlobal Forumu və Aİ arasında əlaqələrdən danışan Nguyen Anh Tuan innovasiya və yeni texnologiyaların tətbiqinin inkişaf üçün vacib şərt olduğunu vurğulayıb. Qeyd edib ki, üstün zəka, beyin burada mühüm rol oynayır.

Rumıniyanın sabiq Prezidenti Emil Konstantinesku mövcud problemlərin nəticəsi olaraq bəzi dövlətlərin Aİ-ni tərk edə biləciyini deyib. O, mədəniyyət modelinin əhəmiyyətindən danışıb. Hər bir ittifaqda hərbi və iqtisadi amillərin böyük rol oynadığını diqqətə çatdıran Rumıniyanın sabiq Prezidenti pandemiyadan sonra Aİ-də parçalanmanın daha da çox nəzərə çarpdığını diqqətə çatdırıb. O, Yaxın Şərqdən və başqa ərazilərdən miqrasiyanın artmasının mövcud vəziyyəti daha da gərginləşdirdiyini bildirib və Aİ-nin gələcəyi ilə bağlı imkanlardan danışıb.

Müdafiə və təhlükəsizlik məsələlərinin vacib amil olduğunu vurğulayan Belçikanın sabiq Baş naziri İv Löterm qeyd edib ki, hərbi təhlükəsizlik məsələləri bizi ciddi düşündürür. O deyib: “Aİ tarixi məsuliyyət daşıyır. Qarşıda yerinə yetirilməyən vəzifələr var. Biz öz məsuliyyətimizi dərk etməli və qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlməliyik”. O, inteqrasiyanın müsbət proses olduğunu deyib və bu prosesə uyğunlaşmağın vacibliyini qeyd edib.

Panel iclası müzakirələrlə davam edib.

## VIII Bakı Qlobal Forumu çərçivəsində “Şərq Tərəfdaşlığı proqramı: potensialı nədir?” mövzusunda müzakirələr aparılıb

Noyabrın 6-da VIII Bakı Qlobal Forumu çərçivəsində “Şərq Tərəfdaşlığı proqramı: potensialı nədir?” mövzusunda panel iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, Gürcüstanın Baş nazirinin sabiq müavini Eka Tkeşelaşvilinin moderatorluğu ilə keçən panel iclasda çıxış edən Rumıniyanın Baş nazirinin sabiq müavini Ana Birçal deyib ki, “Şərq Tərəfdaşlığı” sağlam münasibətlərə söykənir. COVID-19 və digər problemlərin həllində də bu istiqamət əsas götürülməlidir. “Şərq Tərəfdaşlığı” ölkələri arasında daim sülh və əməkdaşlıq əlaqələri olmalıdır.

Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenko deyib ki, son dövrlərdə dünyada qlobal problemlər yaşanır. Belə problemlərdən biri də Sovet İttifaqının dağılması idi. O proseslər zamanı milyonlarla insan aclıq və tələfat ilə üzləşmişdi. Belə problemlər bu gün kiberhücumlar, pandemiya kimi təhlükələrlə əvəzlənib. Ona görə də “Şərq Tərəfdaşlığı” ölkələri, həmçinin dünya dövlətləri problemlərə qarşı birgə mübarizə aparmalıdırlar. “Qarabağ döyüşlərində Azərbaycan Ordusu 4 milyard dollarıdək qiyməti olan erməni hərbi texnikasını məhv etdi. Soruşmaq lazımdır, bu silahlar haradandır? “Şərq Tərəfdaşlığı”nın bəzi ölkələrinin heç ümumilikdə bu qədər hərbi ehtiyatı yoxdur. Məncə, bu məsələyə aydınlıq gətirilməlidir”, - deyə Viktor Yuşşenko əlavə edib.

Azad olunan torpaqlarımızda yenidənqurma işləri barədə danışan Latviyanın sabiq Prezidenti Valdis Zatlers qeyd edib ki, bu işlərdə zərər çəkmiş tərəf kimi Azərbaycana yardım əli uzadılmalıdır.

Moldovanın sabiq Prezidenti Petru Luçinski çıxışında postpandemiya dövrünə dair fikirlərini bölüşüb. Bildirib ki, COVID-19-dan sonra dünyada müsbət tendensiyalar yaşanacaq. Lakin bunun üçün çox çalışmaq, sıx qarşılıqlı əməkdaşlıq etmək lazımdır.

### *Binəli YILDIRIM:* “Biz Türkiyə olaraq hər zaman Azərbaycanın yanındayıq”

“Qlobal Bakı Forumu beynəlxalq və regional vəziyyətlə bağlı məsələlərin müzakirəsi üçün mühüm əhəmiyyətə malikdir”.

Bunu AZƏRTAC-a açıqlamasında Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım deyib.

O bildirib ki, İkinci Qarabağ müharibəsi ilə bağlı həqiqətlərin, ədalətin dünyaya çatdırılmasına görə bu cür tədbirin təşkili təqdirəlayiqdir. “Bildiyimiz kimi, burada bir çox sabiq prezidentlər, nazirlər, ziyalılar iştirak edirlər. Hazırda bir çox dünya ölkələrinin diqqəti bu forumdadır. Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Biz Türkiyə olaraq hər zaman Azərbaycanın yanındayıq”.

### *İsmail SERAGELDİN:* “Forumda müzakirə edilən mövzular problemlərin həllinə faydasını verəcək”

“Noyabrın 4-dən 6-dək keçirilən VIII Qlobal Bakı Forumu böyük qlobal əhəmiyyətə malikdir. Forumda müxtəlif mövzularda müzakirələr aparılır. “COVID-19 pandemiyasından sonrakı dünya” mövzusuna həsr edilmiş forumda bir sıra qlobal problemlər, o cümlədən COVID-19 pandemiyasının təsirləri müzakirə edilib”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında VIII Qlobal Bakı Forumunda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin deyib.

“Hesab edirəm ki, forumda müzakirə olunan mövzular problemlərin həllinə faydasını verəcək. COVID-19 pandemiyasına qarşı dünya ölkələrinin birgə mübarizəsi problemlərin həlli istiqamətində öz bəhrəsini verəcək. VIII Qlobal Bakı Forumunun işini yüksək qiymətləndirirəm”, - deyə İ.Serageldin bildirib.

### *Pol REVAY:* “Qlobal Forum bir çox məsələlərin həlli yollarının müzakirəsi baxımından çox mühümdür”

“Qlobal Bakı Forumunda 4-cü dəfədir iştirak edirəm və bundan böyük məmnunluq duyuram. Bu tədbir bir çox məsələlərin həlli yollarının müzakirəsi baxımından çox mühümdür”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri üçtərəfli Avropa (trilateral Europe) qurumunun sabiq direktoru Pol Revay jurnalistlərə açıqlamasında söyləyib. Forumun geniş müzakirələrlə davam etdiyini vurğulayan P.Revay qeyd edib: “Çağırışlarımız eyni qalıb, dəyişməyib. Hətta iqlim dəyişikliyi və buna bənzər təbiət hadisələri ilə bağlı vəziyyət daha da gərginləşib. G20-də bu məsələlərlə bağlı müzakirələr aparılıb. Biz yeni çıxış yolları tapmasaq, vəziyyət daha da pisləşə bilər. Buna görə də bu forum bir çox məsələlərin həlli yollarının müzakirəsi baxımından çox mühümdür”.

O diqqətə çatdırıb ki, forumda iştirak etmədən orada baş verənləri və aparılan müzakirələri izləmək çətin olur. “Biz bilirik ki, bu forum Prezident İlham Əliyevin təşəbbüsü və liderliyi ilə keçirilir. Burada iştirak etdiyim müzakirələrdən aldığım zəngin təəssüratlarla ölkəmə qayıdacağıma ümid edirəm”, - deyə o bildirib.

### *İtaliya Prezidentinin sabiq müşaviri:* “Bakı Forumu mənim üçün ən yaxşı müzakirə platformalarından biridir”

“Forum möhtəşəmdir. Bakı forumlarını çox bəyənirəm. Artıq bir neçə dəfə Bakıda olmuşam. Bu, mənim üçün çox böyük təcrübədir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində İtaliya Prezidentinin sabiq baş müşaviri Antonio Zanardi Landi söyləyib.

O bildirib ki, Prezident İlham Əliyevin forumda səmimi çıxışını çox bəyənib. “Forumun auditoriyası və panel iştirakçıları rəngarəngdir. Burada Pakistandan, Şimali Afrikadan, ABŞ-dan iştirakçılar var. Şəxsən mənim üçün Bakı Forumu ən yaxşı müzakirə platformalarından biridir. Çünki bu məkanda fərqli insanlarla, əvvəllər görüşmək imkanı olmayan şəxslərlə ünsiyyətdə olmaq fürsəti yaranıb. Düşünürəm ki, Belqradda və Podqoritsada səfir olduğum üçün Bakı Forumu köhnə dostlarımla görüşmək və son hadisələr barədə fikir mübadiləsi aparmaq baxımından əlverişlidir”, - deyə o əlavə edib.

# Zəfərə gedən yol

**8 Noyabr - Zəfər Günü Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə əks etdirən mühüm tarixi hadisələrdən biridir. Bir il bundan əvvəl sentyabrın 27-də Ermənistanın hərbi təxribatı nəticəsində başlayan Vətən müharibəsi Azərbaycanın şanlı qələbəsi ilə başa çatdı və 30 il ərzində torpaqlarımızı işğal altında saxlayan erməni faşizminə sarsıdıcı zərbə vuruldu.**

Zəfərə gedən yol müxtəlif mərhələlərdən keçdi, Azərbaycan dövlətinin milli maraqlara əsaslanan daxili və xarici siyasətinin nəticəsində mümkün oldu.

Dövlət müstəqilliyini yenidən bərpa etdiyi ilk dövrdə ölkəmizdə xaos və anarxiya hökm sürürdü. Ağır sosial-iqtisadi və siyasi böhranın nəticəsində cəmiyyət idarəolunmaz vəziyyətlə üzləşmişdi ki, bu da Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına şərait yaradırdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da inkişaf mərhələsinin bünövrəsi qoyuldu və Ermənistanın hərbi təcavüzünün qarşısı alındı.

Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün qətiyyətli diplomatik mübarizə apardı, onun təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurası qətnamələr qəbul etdi. 1993-cü ilin dekabr ayından 1994-cü il yanvar ayının əvvəllərinə kimi davam edən Horadiz döyüşlərində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş bir sıra yaşayış məntəqələri azad edildi. Heydər Əliyevin hakimiyyəti dövründə ölkəmizin hərbi təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə mühüm işlər görüldü. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu Prezident İlham Əliyev uğurla davam etdirməsi nəticəsində Qarabağ münaqişəsinin aradan qaldırılması üçün ciddi sosial-iqtisadi və mənəvi-psixoloji zəmin yarandı ki, bu da özünü 44 günlük Vətən müharibəsində göstərdi. Torpaqlarımızın işğaldan azad olunması Azərbaycan tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edir. Bu möhtəşəm Zəfərin əldə edilməsi Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, son 18 ildə ordu quruculuğu və sosial-iqtisadi sahələrdə, xarici siyasətdə əldə etdiyi uğurlar, milli birlik və vətəndaş həmrəyliyi ilə sıx şəkildə bağlıdır.

## Ordu quruculuğunda uğurlar

Ötən illər ərzində Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində apardığı məqsədyönlü siyasətin nəticəsində müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşdı. Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biri oldu. Son illər Azərbaycanda 20-dən çox hərbi sənaye müəssisəsi tikilib istifadəyə verilib.

Vətən müharibəsi başlamazdan əvvəl də Ermənistanın hərbi təxribatlarının qarşısını Azərbaycan Silahlı Qüvvələri qətiyyətlə alırdı. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə ölkəmizin düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan tərəfindən intensiv atəşə məruz qalanda Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatı ilə təxribatların qarşısını aldı, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad olundu, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər işğaldan qurtuldu, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci ilin iyul ayında baş vermiş Tovuz döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri böyük qəhrəmanlıq göstərərək Ermənistanın törətdiyi hərbi təxribatların qarşısını qətiyyətlə aldılar.

Əvvəllər ermənilər dünyaya orduların yenilməz, güclü olması haqqında yalan və şişirdilmiş məlumatlar yayırdılar. Lakin Vətən müharibəsi ermənilərin bu cür iddialarının reallıqdan uzaq, cəfəngiyyat olduğunu sübut etdi. Azərbaycan Silahlı Qüvvələri cəmi 44 gün ərzində Ermənistanın hərbi birləşmələrini darmadağın etməklə öz gücünü bütün dünyaya göstərdi. Müharibə dövründə hərbçilərimizin əhval-ruhiyyələri və mənəvi-psixoloji hazırlıqlarının yüksək səviyyədə olduğuna, döyüş tapşırıqlarını böyük məharətlə yerinə yetirdiklərinə şahid olduq.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bildirirdi ki, Azərbaycan dövləti öz ərazilərinin Ermənistanın işğalı altında qalmasıyla heç vaxt barışmayacaq: "Dediyim sözlər həyatda öz yerini tutdu və Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi". Hələ Vətən müharibəsi başlamazdan əvvəl Ermənistanın hərbi təxribatlarının və təcavüzünün qarşısının alınması istiqamətində Azərbaycan dövləti mühüm hazırlıq işləri gördü. Prezident İlham Əliyevin dediyi kimi: "Dondurulmuş münaqişə vəziyyətində olsa da, müharibə şəraitindəki ölkədə həyatın bütün halları üçün döyüş əməliyyatlarının aparılması planı, təbii ki, çoxdan işlənib hazırlanıb. Əlbəttə, yeni reallıqlar, Azərbaycanın yeni imkanları, o cümlədən texnoloji imkanları nəzərə alınmaqla bu plana vaxtaşırı dəyişikliklər edilirdi və hər dəfə həmin dəyişikliklər mənim tərəfimdən təsdiq olunurdu".

Vətən müharibəsi dövründə düşmən əlverişli coğrafi mövqe tutmasına və yerləşdiyi ərazinin relyefinin ona böyük üstünlük verməsinə baxmayaraq, Azərbaycan Silahlı Qüvvələrinin qarşısında tab gətirə bilmədi, 10 min nəfərdən çox erməni əsgər və zabit fərarilik edərək döyüş meydanından qaçdı. Ermənilərdən fərqli olaraq, Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri isə döyüşlərdə qəhrəmanlıq və fədakarlıq göstərərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdilər ki, bununla da tarixi ədalət zəfər çaldı. Düşmənin 30 il ərzində qurduğu istehkamları Azərbaycan hərbçilərinin canı-qanı bahasına torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərmələri, bu yolda şəhidlik zirvəsinə ucalmaları və qazi olmaları yenilməzlik, mətinlik, qəhrəmanlığın parlaq təzahürüdür.

Vətən müharibəsi erməni faşizminin iç üzünü bir daha dünyaya göstərdi. Müharibə dövründə düşmən döyüş meydanında məğlub olarkən yenə də insanlığa sığmayan ən çirkin əməllərə əl atdı. Ermənistan qadağan olunmuş silahlardan və ballistik raketlərdən istifadə edərək ölkəmizin şəhər və kəndlərinə müntəzəm olaraq atəş açmağa başladı. Lakin düşmənin bu cür mənfur hərəkətlərinin qarşısını İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri aldı.

## Fəal diplomatik mübarizə

Azərbaycanın Vətən müharibəsində sosial-iqtisadi baxımdan inkişaf edən dövlət kimi iştirakı şanlı qələbənin əldə olunmasında böyük rol oynadı. Bu gün ölkə iqtisadiyyatının şaxələnməsi, adambaşına düşən milli gəlirin artması, makroiqtisadi sabitliyin qorunması, qeyri-neft sektorunun inkişafı və digər sahələrdə böyük uğurlar əldə edilir. Azərbaycanın beynəlxalq enerji-nəqliyyat layihələrində fəal iştirakı ölkəmizin iqtisadiyyatının inkişafına mühüm təsir göstərir. Azərbaycanla dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələr möhkəmlənir və ölkəmizin iqtisadiyyatına böyük həcmdə xarici sərmayələr qoyulur. Regionların inkişafını nəzərdə tutan dövlət proqramlarının həyata keçirilməsi qeyri-neft sektorunun inkişafına, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına mühüm təkan verir.

Azərbaycan bir çox postsovet dövlətləri ilə müqayisədə ümumi iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur. Ölkə iqtisadiyyatının neftdən və xarici amillərdən asılılığının azalması ümumi daxili məhsulda qeyri-neft sektorunun payını artırır. Prezident İlham Əliyev sosial-iqtisadi sahədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirməklə Azərbaycanın davamlı inkişafını, xalqımızın əmin-amanlıq şəraitində yaşamasını təmin edir ki, bu da Vətən müharibəsində qələbəni şərtləndirən vacib faktorlardan biri oldu.

Ötən illər ərzində Azərbaycanın dünya dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrini möhkəmləndirməsi və bundan davamlı inkişafda səmərəli vasitə kimi istifadə etməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması və digər istiqamətdə atdığı addımlar Vətən müharibəsində qələbənin əldə edilməsində mühüm rol oynadı. Prezident İlham Əliyevin apardığı xarici siyasətdə Qarabağ münaqişəsinin həlli məsələsi daim xüsusi yer tuturdu. Azərbaycan Prezidenti beynəlxalq münasibətlərdə hökm sürən ikili standartlar siyasətinə və Qarabağ münaqişəsinə münasibətdə beynəlxalq təşkilatların seyrçi mövqedən çıxış etmələrinə həmişə kəskin etirazını bildirirdi. Prezident İlham Əliyev həm Ermənistan prezidentləri və baş naziri ilə danışıqlarda, həm də BMT Baş Məclisinin sessiyalarında, ATƏT, Avropa Şurası, İƏT, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların tədbirlərində çıxışı zamanı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum dörd qətnamənin Ermənistan tərəfindən beynəlxalq hüquqi prinsiplərə zidd olaraq yerinə yetirilmədiyini vurğulayırdı.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində Ermənistan hakimiyyətinin danışıqlardan yayınmaq və onun formatını dəyişdirmək cəhdlərinin qarşısı alındı. Ötən illər ərzində nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Qarabağ münaqişəsinə xüsusi diqqət yetirildi. BMT Baş Assambleyasının 2006-cı və 2008-ci illərdə keçirilən sessiyalarında qəbul edilmiş sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması faktı pislənildi, BMT Təhlükəsizik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi bildirildi. ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında Qarabağ münaqişəsinin həllinin mümkünlüyü vurğulandı.

Qarabağ münaqişəsinin yaranması səbəbləri və nəticələri ilə bağlı həqiqətləri Prezident İlham Əliyevin mütəmadi şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması Ermənistanın Azərbaycana qarşı qarayaxma kampaniyasını fiaskoya uğratdı. Buna misal olaraq, 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısında, həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş iclasında, 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın qətiyyətli mövqeyini ifadə edən çıxışlarını göstərmək olar. Prezident İlham Əliyev dəfələrlə bildirirdi ki, Qarabağ münaqişəsi yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilməsi yolu ilə həll oluna bilər. Azərbaycan Prezidentinin beynəlxalq hüquqi prinsiplərə əsaslanan bu çağırışlarına və tələblərinə Ermənistan əməl etmədi və nəticədə Vətən müharibəsində öz cəzasını aldı.

## Azərbaycana dəstək

Dünya dövlətləri Vətən müharibəsi dövründə hərbi əməliyyatlara böyük həssaslıqla yanaşdı. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan, həmçinin digər dövlət və hökumət nümayəndələri Azərbaycanın öz ərazi bütövlüyünün və suverenliyinin bərpası naminə apardığı mübarizəni fəal şəkildə dəstəklədi, öz çıxışlarında daim ölkəmizin yanında olduqlarını bildirdilər. Rusiya Prezidenti Vladimir Putin bəyan etdi ki, "Ermənistan KTMT çərçivəsində müttəfiqdir, amma Dağlıq Qarabağ Ermənistana aid deyil. Odur ki, Qarabağ ərazisindəki hərbi əməliyyatlarla bağlı Rusiya vasitəçilikdən savayı, hər hansı öhdəlik daşımır".

Böyük Britaniya Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini müdafiə etdi və ölkəmizin ərazi bütövlüyünü dəstəklədi. BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair Təhlükəsizlik Şurasının sədri adından hazırlanan və Azərbaycanın əleyhinə olan bəyanat layihəsi Təhlükəsizlik Şurasının daimi üzvü olan Böyük Britaniyanın vetosu ilə qəbul edilmədi. Pakistanın Xarici İşlər Nazirliyi Azərbaycanın haqlı mövqe tutduğunu və BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi məlum dörd qətnamənin tələblərinin yerinə yetirilməsinin vacibliyini bəyan etdi. İsrailin "Yisrael Beiteinu" Partiyasının lideri, keçmiş xarici işlər və müdafiə naziri Aviqdor Liberman Qarabağın Azərbaycanın ərazisi olduğunu vurğuladı: "Elə buna görə də BMT üzvü olan heç bir dövlət, o cümlədən Ermənistanın özü də Dağlıq Qarabağı suveren qurum kimi tanımayıb. Tarixi gerçəklik, beynəlxalq hüquq, İsrail dövlətinin mənafeyi baxımdan bizim mövqeyimiz tamamilə birmənalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu ərazi bütövlüyü bərpa olunmadan regionda məsələnin həllinin mümkün olmadığını düşünürük. Azərbaycanın ərazi bütövlüyü tarixi, beynəlxalq, milli mənafe baxımdan İsrailin rəsmi mövqeyidir". Müharibə dövründə ATƏT-in Minsk qrupunun amerikalı keçmiş həmsədri Riçard Hoqland bildirdi ki, Ermənistan Azərbaycanın suveren ərazisini işğal edib. Həmçinin İtaliya Azərbaycanın haqlı mövqeyini müdafiə edərək, onun ərazi bütövlüyünü dəstəklədi. İtaliyanın Kampobasso əyalətinin Sepino və San Culiano del Sannio bələdiyyələri, Milan əyalətinin Korbetta şəhər Bələdiyyə Şurası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz, etnik təmizləmə və soyqırımı siyasətini pisləyən, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirən sənədlər qəbul etdi. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Djaferoviç və Demokratik Fəaliyyət Partiyasının lideri Bakir İzetbegoviç Azərbaycana dəstək verdiklərini və Ermənistanı qınadıqlarını bildirdilər. Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində yerləşdiyini bəyan etdi.

## Milli birlik və həmrəylik

Ölkəmizdə milli həmrəyliyin və vətəndaş birliyinin möhkəmlənməsi istiqamətində aparılan dövlət siyasəti özünün məntiqi nəticəsini Vətən müharibəsi dövründə göstərdi. Azərbaycan dünyada müxtəlif sivilizasiyaların qovuşduğu tolerant məkan, multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Ölkəmizdə müxtəlif millətlər və dinlər arasında qarşılıqlı etimad mühiti mövcuddur. Milli və dini münasibətlərin inkişafı sahəsində Prezident İlham Əliyevin apardığı siyasət etnik və dini mənsubiyyət, mədəni dəyərlər və adət-ənənələrdən asılı olmayaraq ölkə vətəndaşları tərəfindən dəstəklənir. Qeyd edək ki, müharibədən əvvəl də ermənilərin hərbi təxribatlarının qarşısının alınmasında xalq-dövlət-ordu birliyi mühüm rol oynayırdı.

Ermənistan Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki kəndləri, qəsəbələri və şəhərləri yerlə-yeksan etməklə yanaşı, həm də xalqımıza məxsus tarixi-dini abidələri dağıdıb, onların bir qismini isə erməniləşdirməyə çalışıb. Bu ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılıb, digər yarıdağılmış məscidlərdə isə xalqımızı və ümumiyyətlə, bütün dünya müsəlmanlarını təhqir etmək məqsədilə mal-heyvan saxlanılıb. Bütün bunlar Ermənistanda azərbaycanfobiya və islamofobiyanın rəsmi ideologiya səviyyəsinə qaldırıldığını sübut edir. Bunun nəticəsidir ki, 30 il ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində erməni faşizminin dağıdıcılığı tüğyan edib.

## Yeni reallıqlar

Ermənistanın hərbi birləşmələrini Azərbaycan Silahlı Qüvvələrinin cəmi 44 gün ərzində darmadağın etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması xalqımızın milli qürur hissini və ləyaqətini özünə qaytardı. Müharibənin ilk günlərindən başlayaraq Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri ilə fəxr etdiyini, onlarla qürur duyduğunu bildirdi. Həm işğal, həm də müharibə dövründə xarici təzyiqlərə və ikili standartlar siyasətinə baxmayaraq, Azərbaycan özünün tarixi ərazilərini işğaldan azad etdi. Ermənistan silahlı qüvvələrinin darmadağın edilməsi ilə bütün dünya "yenilməz Ermənistan ordusu" mifologiyasına son qoyulduğunu gördü.

Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə 30 ilə yaxındır ki, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələbləri yerinə yetirildi, bölgədə yeni geosiyasi və geoiqtisadi reallıq yarandı. Şanlı qələbədən sonra Prezident İlham Əliyevin dediyi kimi: "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalanması tarixə Vətən müharibəsində Azərbaycanın hərbi Zəfəri, Ermənistanın isə kapitulyasiyası kimi daxil oldu. Bununla da Qarabağ münaqişəsi hərbi-siyasi yolla həll edilərək tarixə çevrildi. Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü və xalqımızın milli ləyaqəti bərpa olunmaqla yanaşı, həm də erməni faşizminin başı əzildi. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Silahlı Qüvvələrinin gücünü bütün dünyaya göstərdi.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərman imzalaması Vətən müharibəsinin yekunlarından biri kimi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasını ifadə edən mühüm siyasi-tarixi hadisə oldu. Müharibədən sonrakı şəraitə və reallığa uyğun yeni tələblər ortaya çıxdı. Bu aspektdən yanaşsaq, iqtisadi rayonların yeni təsnifatının aparılmasının uzaqgörən addım olduğunu görərik. İqtisadi rayonların yeni təsnifatına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının daxil edilməsi vacib əhəmiyyət daşıyır. Qarabağ iqtisadi rayonunun yaradılması "Qarabağ Azərbaycandır!" şüarının növbəti rəsmi ifadəsi idi. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü ermənilərin "status" məsələsinə birdəfəlik son qoydu, Xankəndi, Xocalı və Xocavəndin taleyi ilə bağlı spekulyasiyaların üstündən xətt çəkdi. "Şərqi Zəngəzur" iqtisadi rayonunun yaradılması isə mühüm geosiyasi və geoiqtisadi əhəmiyyət kəsb edən hadisə oldu.

Vətən müharibəsi dövründə Azərbaycanın haqq işinə Türkiyənin siyasi və mənəvi dəstəyini xüsusi qeyd etməliyik. Məlumdur ki, həmin vaxt bəzi xarici ölkələrdə erməni lobbisinin təsiri altında olan siyasi dairələr qeyri-obyektiv və ədalətsiz mövqe tutaraq Ermənistanın işğalçılıq siyasətini dəstəkləyir və ölkəmizə qarşı şər-böhtan kampaniyası aparırdı. Türkiyənin Azərbaycanı dəstəkləməsi isə ermənipərəst xarici dairələri ciddi narahat edirdi. Müharibə dövründə dünyanın nüfuzlu telekanallarına verdiyi müsahibələrində Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq aləmin diqqətinə çatdırması informasiya müharibəsində də dövlətimizin qələbəsini təmin etdi. Xüsusilə, Türkiyədən olan mətbuat nümayəndələrinin Prezident İlham Əliyevdən aldıqları müsahibələr, cəbhə bölgəsindən verdikləri məlumatlar və reportajlar beynəlxalq ictimai rəyin obyektiv şəkildə formalaşmasına mühüm təsir göstərdi.

Türkiyədən alınmış müasir silahlar Azərbaycanın hərbi əməliyyatlarda uğur qazanmasında böyük rol oynadı. 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında müttəfiqlik haqqında Bəyannamənin imzalanması iki dövlət arasında strateji münasibətlərin yüksək zirvəsi oldu. Sənəddə göstərilən müddəalar Azərbaycanla Türkiyə arasında müdafiə sənayesi, nəqliyyat, siyasi, eləcə də digər sahələrdə inkişaf üçün yeni prioritetlər müəyyənləşdirdi. Xüsusilə, Vətən müharibəsindən sonra yaranmış yeni reallığın nəticəsi olaraq Zəngəzur dəhlizinin açılması məsələsinin Bəyannamədə öz əksini tapması geosiyasi əhəmiyyət daşıdı. Xalqımız Türkiyə ilə yanaşı, digər ölkələrin də müharibə dövründə Azərbaycana verdiyi siyasi-mənəvi dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan xalqı Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edir. Müharibə dövründə şəhid olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq bu il sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə yürüş keçirildi, Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyuldu.

Vətən müharibəsində qələbənin yekunlarından biri olaraq, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış layihələrinin sürətlə həyata keçirilməsi Azərbaycan dövlətinin gücünü və qüdrətini bir daha göstərir. Bu ərazilərdə məcburi köçkünlərin məskunlaşmasının təmin edilməsi məqsədilə geniş quruculuq işləri aparılır, yollar salınır, enerji stansiyaları açılır, hava limanları fəaliyyətə başlayır. Bütün bunlar hər birimizdə böyük qürur və fəxarət hissi yaradır.

Azərbaycan dövləti bölgədə sülhün və sabitliyin yaradılmasının tərəfdarıdır. Prezident İlham Əliyevin çıxışlarında bildirdiyi kimi, hazırda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmalı, ölkəmizin ərazi bütövlüyü Ermənistan tərəfindən tanınmalı və sərhədlərin delimitasiyası prosesinə başlanılmalıdır.

Son 18 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətlər və beynəlxalq arenadakı böyük nüfuzu, xalq-iqtidar birliyi, xüsusilə ordu quruculuğu sahəsində görülmüş işlər Vətən müharibəsində qələbəni şərtləndirən vacib amillərdir. Xalqımız 30 ilə yaxındır işğal altında olan torpaqlarımızın azad olunmasını və ölkəmizin ərazi bütövlüyünün bərpasını böyük sevinc hissi ilə qeyd edir.

*Vətən müharibəsi dövründə dünya birliyi Azərbaycanın öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu bir daha gördü. Hamıya aydın oldu ki, Vətən müharibəsindəki şanlı qələbə Prezident İlham Əliyevin milli maraqlara söykənən uzaqgörən siyasətinin, güclü lider kimi beynəlxalq aləmdə yüksək nüfuzunun və xalq-dövlət-ordu birliyinin parlaq nəticəsidir.*

**Mübariz QURBANLI,**
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri***



# Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır



## Üçrəngli bayrağınla məsud yaşa!

Bir il öncə müzəffər Azərbaycan Ordusu otuz ilə yaxın düşmən işğalında qalan Vətən torpaqlarını xilas etdi. O günlərdə bütün Azərbaycan xalqını ən çox qürurlandıran anlardan biri də döyüşçülərimizin Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq, azad etdikləri ərazilərimizdə dövlət bayrağımızı ucaltmalarını və bu barədə Ali Baş Komandan İlham Əliyevə məlumat vermələrini əks etdirən videogörüntülər idi.

Bu mənzərəni seyr etdikcə xalqımızın sevinci yerə-göyə sığmırdı. Çünki bayraq dövlətin simvollarından biridir. Onun müstəqilliyinin, qüdrətinin rəmzidir. Harada Azərbaycan bayrağı dalğalanırsa, orada dövlətimizin gücü, vətənimizin adı var.

Düşmənin otuz ilinə yetirə bilmədiyi işğal bitdi. Ermənistan öz layiqli cavabını döyüş meydanında aldı. Düşmənin silahlı qüvvələri qəhrəman Azərbaycan ordusu tərəfindən darmadağın edildi. Otuz ilə yaxın davam edən həsrətimiz, nigarançılığımız, narahatlığımız bitdi. Bu gün yağılardan geri aldığımız ərazilərimizdə - Qubadlıda, Cəbrayılda, Zəngilanda, Füzulidə, Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında... Azərbaycan bayrağı dalğalanır.

Bu, o bayraqdır ki, 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin hökumət başçısı Fətəli xan Xoyskinin məruzəsi əsasında təsdiqləndi. Azərbaycanın üçrəngli, ay-ulduzlu dövlət bayrağı 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin açılışı zamanı binanın üzərində dalğalanmağa başladı.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk müstəqil, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Azərbaycanda dövlətçilik ənənələrinin bərpası reallaşanda əhəmiyyətli məsələlərdən biri də əsas dövlət atributlarından, simvollarından birinin - bayrağın necə hazırlanması oldu. Bayraq haqqında Cümhuriyyət hökuməti ilk qərarı 1918-ci il iyunun 21-də verdi. Qərarda Azərbaycanın dövlət bayrağı qırmızı rəngdə, orta hissəsində ağ aypara və səkkizguşəli ulduz təsvirli qəbul edildi. Həmin il iyunun 21-də hökumət bayraq haqqında qərar verdi.

Bu, o bayraqdır ki, 1919-cu ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin bir illiyinə həsr olunmuş "Bir yaş" adlı məqaləsində Üzeyir bəy Hacıbəyli onun rənglərinin mənası barədə yazırdı: "Mavi rəngi türklüyə, yaşıl rəngi islamlığa və al rəngi mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəviyyəsi də budur".

...Bu, o bayraqdır ki, tarixin qovğalarında, siyasətin fırtınalarında, düşmənlərin məkrli planları, hiylələri ilə qurulmuş hadisələrdə müsibətlər çəkdi. 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyəti quruldu. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan dövlət atributlarını sovet Rusiyasının atributlarına uyğunlaşdırmaq məcburiyyətində qaldı. O vaxtdan Azərbaycan dövlətinin müstəqilliyinin rəmzi olan üçrəngli, ay-ulduzlu bayrağımızın yeri vətənsəverlərimizin, millətsevərlərimizin qubar bağlamış könülləri oldu. Sovet hakimiyyətinin Azərbaycanı bu bayrağa həsrət qoyduğu illər on illər boyu davam etdi. Ancaq bir gün üçrəngli, ay-ulduzlu bayrağımızın yenidən müstəqil Azərbaycanın başı üzərində dalğalanacağına inam yaşadı.

Nəhayət, o günlər yaxınlaşdı. 1980-cı illərin sonlarında meydan hərəkatında üçrəngli, ay-ulduzlu bayrağımız qaldırıldı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli, ay-ulduzlu bayrağımız Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" qanun qəbul etdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, həmçinin Dövlət bayrağını bərpa etdi. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirildi.

Prezident İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamla 9 Noyabr tarixi Dövlət Bayrağı Günü kimi qeyd olunur.

*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə,*
*Cümlə gənclər müştaqdır.*

1919-cu ildə şair Əhməd Cavadın sözlərini, Üzeyir bəy Hacıbəylinin musiqisini yazdığı dövlət himnimizdə ifadə olunan bu həqiqəti Azərbaycan gəncləri 2020-ci ilin payızında, 44 gün davam edən İkinci Qarabağ müharibəsində öz canları, qanları bahasına təsdiq etdilər.

İkinci Qarabağ müharibəsində bütün Azərbaycan xalqı öz dövlətinin yanında bir yumruq kimi birləşərək Vətən üçün can verməyə hazır, qan tökməyə qadir olduğunu bir daha göstərdi. Odur ki, ucalarda dayan, inamla, arxayınlıqla, qürurla dalğalan, ey möhtəşəm ölkəmizin bayrağı! Üçrəngli bayrağınla məsud yaşa, Azərbaycan!

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Bağışlamaq qəlbin böyüklüyüdür

# Dövlətin vətəndaşlarına yüksək dəyər verdiyini göstərən humanizm nümunəsi

Azərbaycanda həyata keçirilən dövlət siyasəti humanizm və sosial ədalət prinsiplərinə əsaslanır, həmçinin dövlətin öz vətəndaşlarına verdiyi yüksək dəyəri əks etdirir. Bu kontekstdə respublikamızda vaxtaşırı olaraq azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən əfv sərəncamlarının imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması mühüm əhəmiyyət kəsb edir.

Bu müsbət ənənənin əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra insan hüquqlarının təmin olunması istiqamətində mühüm addımlar atılıb, ölüm hökmünə moratorium qoyulub. O dövrdən etibarən Azərbaycanda heç kimə ölüm hökmü tətbiq olunmayıb və sonradan bu cəza növü ləğv edilib. Bununla yanaşı, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövründə, müstəqil respublikamızda 1996-cı ildən başlayaraq çoxsaylı əfv sərəncamı imzalanıb, amnistiya aktları qəbul edilib.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən müddət ərzində Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamlarının və fərmanlarının icrası nəticəsində minlərlə məhkum azadlığa qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb. Xüsusi vurğulamaq lazımdır ki, sonuncu amnistiya aktı təşəbbüsü 2016-cı ildə Mehriban xanım Əliyeva tərəfindən olub. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları əsasında minlərlə məhkum müxtəlif növ cəzalardan azad edilib.

Yeri gəlmişkən, 8 Noyabr - Zəfər Gününün Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq və humanizm ənənələrini davam etdirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən amnistiya elan edilməsi təşəbbüsünün irəli sürülməsi bu baxımdan xüsusi qeyd edilməlidir. Vətən müharibəsində qazanılmış tarixi Zəfərin birinci ildönümü ilə bağlı bu Qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilən amnistiya aktının ümumilikdə 16 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 3 mindən çox şəxsin azad ediləcəyi, habelə 3 minədək şəxsin cəzalarının çəkilməmiş hissəsinin azaldılacağı proqnozlaşdırılır. Bütövlükdə, amnistiyanın tətbiq ediləcəyi şəxslərin sayına və əhatə etdiyi cinayət məsuliyyətindən və cəzadan azadetmə institutlarının dairəsinə görə bu aktın ən böyük amnistiya olacağı ehtimal edilir.

Şübhəsiz ki, əfv olunanlar dövlətin onlara inam və etibarını daim hiss edirlər və bu onlara layiqli vətəndaş olmaq stimulu verir. Azərbaycan ictimaiyyətinin nümayəndələri isə humanizm nümunəsi olan və böyük sosial əhəmiyyətə malik bu addımları yüksək dəyərləndirirlər.

***Siyavuş NOVRUZOV,***
***Milli Məclisin Regional məsələlər komitəsinin sədri***

# Gəncə Şəhər İcra Hakimiyyətində şəhid ailələri və qazilərlə görüş keçirilmişdir







Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində böyük Zəfərə imza atdı. Düz bir ildir ki, xalqımız dövlət başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun bəxş etdiyi möhtəşəm Qələbənin sevinci ilə yaşayır.

Müasir tariximizə qızıl hərflərlə yazılan bu misilsiz hərbi nailiyyət haqqında hələ illərlə danışılacaq. Müharibədə itkilərimiz də oldu. Söz yox ki, Vətən uğrunda canından keçən qeyrətli, cəsur oğullarımıza, şəhidlərimizə, sağlamlığını itirən qazilərimizə ömür boyu minnətdar olacağıq. O qanlı-qadalı günlərdən bizi bir il ayırsa da, sanki hər şey dünən olub. Lakin xalqımız torpaqlarımızın düşməndən azad olunmasında canından keçən, bu yolda şərəfli qazi adını alan igidlərimizi unutmur, onların adını həmişə uca tutur.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə xüsusi diqqət və qayğı göstərirlər. Dövlət başçısının müvafiq göstərişlərinə əsasən dövlət qurumları mütəmadi olaraq şəhid ailələri və qazilərin qayğıları ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirirlər.

Gəncədə də şəhid ailələri və qazilər daim diqqət mərkəzində saxlanılır. Bu günlərdə qələbəmizin birinci ildönümündə, Zəfər günü ərəfəsində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov şəhid ailələri və qazilərlə görüşüb, onların arzu və istəklərini dinləyib. Pandemiya qaydalarına uyğun şəkildə baş tutan görüşdə Nizami və Kəpəz rayon icra hakimiyyətlərinin nümayəndələri, bələdiyyələrin sədrləri, şəhərdə fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.

Görüşdə əsasən mənzil növbəsinə götürülmə, maddi yardımın göstərilməsi, fərdi yaşayış evinin təmiri, müalicə üçün göndərişin verilməsi və digər müraciətlər yer alıb. Şəhər rəhbəri iştirak edən şəhid ailələri və qaziləri tək-tək dinlədikdən sonra onları narahat edən məsələlərin həlli istiqamətində müəyyən tapşırıqlar verib, problemlərin bir çoxu isə yerindəcə öz həllini tapıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan neftçilərinin Xəzər möcüzəsi

## Dünyada dəniz neftinin erası 72 il əvvəl "Neft Daşları"ndan başlanmışdır

72 yaşı tamam olan Neft Daşlarını çox vaxt "Möcüzələr adası" adlandırırlar. Yaranışından bəri onu bir çox digər adlarla da çağırıblar. Bu, Neft Daşlarının maraqlı tarixi və keçdiyi şərəfli yolla bağlıdır.

"Neft Daşları", ilk növbədə, karbohidrogenlərlə zəngin dəniz yatağıdır. Bu yataq Xəzər dənizinin akvatoriyasında, Abşeron neftli-qazlı rayonunda, Bakı şəhərindən 110, Pirallahı adasından 50 kilometrlik məsafədə yerləşir. Yataq "Neft Daşları" NQÇİ (Neft və Qazçıxarma İdarəsi) tərəfindən istismar olunur. 1951-ci ildən "Neft Daşları"nın, 1963-cü ildən isə "Palçıq Pilpiləsi"nin sənaye əhəmiyyətli işlənməsinə başlanıb. Həmin vaxtdan indiyədək bu yataqlardan fasiləsiz olaraq neft və qaz çıxarılır. Bu, Xəzərin fırtınalı qoynunda ekstremal şəraitdə işləyən Azərbaycan neftçisinin fədakar əməyinin, ona hərtərəfli qayğısını getdikcə artıran Azərbaycan dövlətinin dəstəyinin nəticəsidir.

"Neft Daşları" əvvəlcə "Qara daşlar" adlanıb. Çünki ərazisi sulardan baş qaldıran çıxıntıların - qara daşların yaxınlığında olub. Tarix bu yatağın "doğuluş"unu öz yaddaşında belə qoruyub saxlayır: "...1948-ci ildə 23 nəfərdən ibarət ilk dəniz neftçiləri dəstəsi birinci quyunun kəşfiyyatına başladı. Böyük neft təşkilatçısı Sabit Orucovun, geoloq Ağaqurban Əliyevin və qazma sahəsində zəngin təcrübəyə malik mühəndis Yusif Səfərovun təklifi ilə əlavə xərclərə yol verməmək və işçi qüvvəsinə qənaət etmək üçün Bakı gəmi təmiri zavodlarından istifadədən silinmiş 7 iritonnajlı gəmi gətirilərək "Qara daşlar"ın yanında basdırıldı. Süni buxta yaradıldı. Beləcə, buranı "7 gəmi adası" deyə çağırmağa başladılar. Qəhrəmanlıq mücəssəməsi olan əfsanəvi "7 gəmi adası" Xəzərin fatehlərini fırtınalardan qoruyan sığınacağa və dənizin dərin qatlarına nüfuz etmək üçün istinad nöqtəsinə çevrildi... Usta Mixail Kaveroçkinin başçılıq etdiyi qazmaçılar briqadasının 1 saylı quyudan götürdüyü nümunə 100 tona yaxın ilk neft fontanının yaxınlaşmasından xəbər verirdi. 1949-cu il noyabrın 7-də quyu fontan vurdu".

Bununla da Azərbaycanda dünya dəniz neftinin erası başlandı. Sonrakı illərdə Xəzərdə tikinti işləri geniş vüsət aldı. 1951-ci ildən estakada və meydançaların tikintisinə, hidrotexniki qurğuların, kommunikasiya xətlərinin, istehsal və yaşayış təyinatlı obyektlərin inşasına başlandı. Bu isə dünyada analoqu olmayan Neft Daşları adlı şəhərin qurulmasının başlanğıcı idi. Polad dirəklər üstündə qurulan, o vaxt da, elə indinin özündə də heç yerdə bənzəri, tayı olmayan, 70 ildən çoxdur dünyanı heyrətə gətirən bir şəhərin...

Elə bütün bunlara görə də Neft Daşlarını "Möcüzələr adası" adlandırıblar. Lakin Neft Daşları reallıqdır, əfsanəyə bənzəsə də, əsl həqiqətdir. O, işləyən, yaşayan, qurub-yaradan şəhərdir. Odur ki, onu mədən-şəhər adlandıranlar da haqlıdırlar.

...Estakadalar sağdan-soldan bir-birinə calanaraq açıq dənizdə müxtəlif istiqamətlərə doğru şaxələnib. Uzaqdan baxanda onlar yollara bənzəyir. Amma bunlar adi yollar deyil. Sularla əhatə olunduqları üçün hər iki yandan polad məhəccərlərlə örtülüb. Dəniz şəhərindəki bu bənzərsiz yolların uzunluğu onlarca kilometrdir. Gah paralel, gah da perpendikulyar şəkildə uzansalar da, bir-birinə bitişikdirlər. Neftçilər polad dirəklər üstündə qərar tutan bu yollarla bəzən piyada hərəkət edir, bəzən də idarənin avtobusları ilə gedirlər. Bu asılıdır hər kəsin iş yerinin yaxın-uzaqlığından, neftçinin həvəsindən, bir də havadan...

Dəniz qasırğalı olanda estakada ilə hərəkət etmək qadağandır. Burada qayda-qanun belədir.

Estakadalar boyunca rəngbərəng borular uzanır. Bu yaşıl, mavi, qırmızı, sarı, ağ boruların təyinatları da müxtəlifdir. Biri neft, digəri qaz, üçüncüsü lay suları daşıyır. Başqa biri ehtiyat xətdir. Onlara estakadaüstü kəmərlər də deyirlər.

Neftçiləri əmək növbəsinə aparan gəmi və vertolyotların biz də dəfələrlə sərnişini olmuşuq. Jurnalist kimi Xəzərin fatehlərinin fədakar əməyini çox seyr etmişik, maraqlı söhbətlərini dinləmişik. Həm də hər dəfə dəniz şəhərində yeniliklərə rast gəlmişik. Neftçilər də sanki bu yeniliklərə heyrətləndiyimizi duyaraq deyiblər: "Düşünməyin ki, Neft Daşları qocalır. O, bir yandan yaşa dolduqca, bir yandan gəncləşir. Sıradan çıxan qurğular təzələnir, yəni yeni estakadalar, meydançalar tikilir. Şəhərdə yeni sosial infrastruktur yaradılır".

Son illər ərzində "Neft Daşları" və "Palçıq Pilpiləsi" yataqlarında onlarca stasionar dəniz özülü, geniş sahəsi olan estakadayanı meydançalar, estakadalar inşa edilib. Bütün qurğuların saz vəziyyətdə olması daim diqqət mərkəzindədir. Odur ki, mütəmadi olaraq yataqların ərazisində cari təmir işləri də həyata keçirilir.

Burada beş və doqquzmərtəbəli yataqxanalar, yeməkxanalar, vertolyot meydançası, tibbi-sanitar hissə, mağazalar var. Bu şəhərin sakinləri yalnız neftçilərdir. Neftçilər dedikdə təkcə dənizin dərin qatlarından "qara qızıl"ı çıxaranlar deyil, böyük neftçi "ailə"sinin bütün üzvləri - geoloqlar, kəşfiyyatçılar, qazmaçılar, inşaatçılar, rabitəçilər, energetiklər, nəqliyyatçılar və xidmət sahələrində çalışanlar nəzərdə tutulur. Onlar "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin, eləcə də neçə-neçə digər - müəssisə və təşkilatın nümayəndələridir. Növbələşərək işləyirlər - bir həftə dənizdə, növbəti həftə quruda, ev-eşiklərində olurlar. Beləcə, Xəzər neftçisinin ömrünün az qala yarısı sərt dalğalar qoynunda keçir.

Neft Daşlarında - bir qarış torpağı olmayan ərazidə yamyaşıl park salınıb, cürbəcür gül-çiçək əkilib. Əlbəttə, qurudan torpaq gətirməklə... Bu da "Möcüzələr adası"nın növbəti möcüzəsidir. İstirahət saatlarında ikimərtəbəli "Çay evi", qapalı idman zalı neftçilərin üzünə öz qapılarını geniş açır.

...Bu bənzərsiz məkana hər gün yenə də vertolyotlar enir, gəmilər yan alır. Yaşının üstünə yaş gəldikcə dəniz şəhərində neftçi nəsilləri dəyişir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan neftçilərinin qəhrəmanlıq abidəsi adlandırdığı Neft Daşlarının qəhrəmanlıq salnaməsi davam edir. Prezident İlham Əliyevin əfsanəvi şəhərin gələcəyinə ümid və inam ifadə edərək dediyi kimi: "Neft Daşları hələ uzun illər Azərbaycana çox ləyaqətlə xidmət edəcəkdir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Gəncədə "ZƏFƏR" fləşmobu



Vətən müharibəsinin birinci ildönümünün qeyd olunması ilə bağlı Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən təsdiq olunmuş tədbirlər planına uyğun olaraq Gəncə Şəhər Təhsil İdarəsinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr edilən "ZƏFƏR" adlı fləşmob keçirilib. Fləşmob Gəncənin Heydər Əliyev adına meydanında təşkil olunub.

Fləşmobda M.Mehdizadə adına 4 nömrəli xarici dillər təmayüllü məktəb liseyin, 17 nömrəli və M.A.Abbaszadə adına 20 nömrəli tam orta məktəblərin şagirdləri iştirak ediblər. Şagirdlər müharibə zamanı Vətənin keşiyində duran əsgərlərimizin və ZƏFƏR sözünün əksini canlandırıblar.

Qeyd edək ki, fləşmob 1200 şagirdin iştirakı ilə reallaşıb.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# 7-10 noyabr 2020-ci il ZƏFƏR gündəliyi

**Noyabrın 7-nə** keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Cəbhənin Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar var. Düşmənin bir neçə avtomobil texnikası və minaatan qurğusu sıradan çıxarılır.

Azərbaycan Ordusu bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının 1-ci taboru bölmələrinin şəxsi heyəti arasında itkilər var. Düşmənin D-30 artilleriya divizionunun 3-cü batareyasının topları da sıradan çıxarılıb.

Cəbhənin bütün istiqamətlərində döyüş əməliyyatları davam edir.



❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Şıxarx qəsəbəsini, Qazyan və Hüsənli kəndlərini, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini, Ağdam rayonunun Çullu və Çıraqlı kəndlərini artilleriya atəşinə tutur.

❖ ❖ ❖

Prezident İlham Əliyev rəsmi "Tviter" hesabında müjdəli xəbər paylaşır:

"Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxa-


İlham Əliyev @azpresident · 52 c.
Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli,
156 716 3 510

İlham Əliyev @azpresident · 51 сек
Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
29 457 2 346

rı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ermənistan daha bir dezinformasiya yayır. Guya Qubadlı rayonu ərazisindən Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi bölmələrimiz tərəfindən atəşə tutulur. Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, bu, Ermənistan tərəfinin yaydığı təxribat xarakterli növbəti dezinformasiyadır.

Əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutur.

Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Bərdə rayonunun Əyricə kəndini atəşə tutur. Nəticədə bir nəfər kənd sakini həlak olur.

❖ ❖ ❖

**Noyabrın 8-də** döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulur. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Cəbhədə müqavimət göstərə bilməyən düşmən çıxış yolunu dinc əhalini və mülki infrastrukturu atəşə tutmaqda görür. Keçən gün ərzində Ermənistan silahlı qüvvələri bölmələrinin Tərtər, Bərdə, Ağdam, Ağcabədi və Qubadlı rayonlarının kəndlərini artilleriya atəşinə tutması nəticəsində dinc sakinlər arasında ölən və xəsarət alanlar var, mülki infrastruktura ziyan dəyir.



Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd T-72 tankı, 2 ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili məhv edilir və sıradan çıxarılır.

❖ ❖ ❖

Saat 07:40-dan 08:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

❖ ❖ ❖



Müzəffər Ali Baş Komandan İlham Əliyev öncə Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edir. Sonra Prezident Şəhidlər xiyabanında xalqa müraciət edir: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!" Prezident bəyan edir ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, tarixi abidələrimizi dağıtdı, məscidlərimizi dağıtdı, təhqir etdi. Azərbaycan dövləti bütün tarixi abidələrimizi bərpa edəcək, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcək: "Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir".

❖ ❖ ❖

Saat 14:00 radələrində cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin ön idarəetmə məntəqəsinə hava zərbələri endirilir.



Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 həmlə təyyarəsi və PUA-nın tətbiqi ilə endirilən aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları dağıdılır, yüksək vəzifəli şəxsləri məhv edilir.

❖ ❖ ❖

Saat 16:30-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər və Ağdam rayonlarının kəndlərini atəşə tutur.



Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

❖ ❖ ❖

Azərbaycan Ordusunun cəbhənin Xocavənd istiqamətində keçirdiyi hücum əməliyyatı nəticəsində düşmənə ağır zərbələr endirilir.

Cəbhənin bu istiqamətində düşmənin mövqelərinə atəşlə zərər vurulur. Ağır itkilər verən düşmən bəzi hədləri ataraq qaçır.

Müdafiə Nazirliyi həmin anları əks etdirən videogörüntülər yayır.

❖ ❖ ❖

Birinci vitse-prezident Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə rəsmi "İnstaqram" səhifəsində paylaşım edir. Paylaşımda deyilir: "Şuşa işğaldan azad edilib. Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!



İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

**Noyabrın 9-da** cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edir. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulur. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd T-72 tankı, 1 ədəd D-30 topu, 1 minaatan heyəti, döyüş sursatı ilə dolu bir hərbi yük avtomobili məhv edilir və sıradan çıxarılır.

Döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tərtər rayonunun Ulu Qarabəy (keçmiş Metsşen) məntəqəsindəki atəş nöqtəsində qərarlaşan minaatan heyəti Azərbaycan Ordusunun mövqelərini atəşə tutur. Bölmələrimiz tərəfindən həmin atəş nöqtəsindəki minaatan heyəti dəqiq zərbə ilə məhv edilir.

Bölmələrimiz tərəfindən Tonaşen məntəqəsi yaxınlığındakı düşmənin 1 ədəd T-72 tankı və cəbhənin Xocavənd istiqamətində hərəkət edən şəxsi heyəti də sərrast atəşlə məhv edilir.

❖ ❖ ❖

Şuşa istiqamətində düşmənin mühasirəyə alınan qüvvələrinin məhv edilməsi əməliyyatı davam edir.



Laçın-Şuşa yolu üzərindəki Zarıslı kəndi yaxınlığında mühasirədən çıxmaq məqsədilə bölmələrimizin üzərinə hücum etməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin 1 tankı və 1 PDM-i zərbə PUA-ları ilə məhv edilir.

❖ ❖ ❖

Prezident İlham Əliyev özünün "Tviter" hesabında xalqa ard-arda müjdəli xəbərlər verir. İlk paylaşımda deyilir:


İlham Əliyev @azpresident · 1 dk
Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx,
290 930 4 718

İlham Əliyev @azpresident · 1 dk
Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
43 534 2 867

"Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ali Baş Komandanın "Tviter" hesabındakı növbəti müjdəsində qeyd edilir:


İlham Əliyev @azpresident · 39 sn
Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı,
Bu Tweet dizisini göster

İlham Əliyev @azpresident · 38 sn
Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli,

İlham Əliyev @azpresident · 39 sn
Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

"Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, şəhər Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbird, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Azərbaycan Ordusunun cəbhənin Xocavənd istiqamətində düşmənin mövqelərinə və canlı qüvvəsinə atəşlə zərər vurması davam edir. Düşmənin səngərləri və sığınacaqları artilleriya zərbəsi ilə dağıdılır.

❖ ❖ ❖



Saat 15:50-də cəbhənin Xocavənd istiqamətində düşmən tərəfindən fərdi yaşayış evlərinin arasında yerləşdirilmiş və aviasiya vasitələrimizə qarşı tətbiq olunan "Tor-M2KM" zenit-raket kompleksi (ZRK) bölmələrimizin dəqiq atəşi ilə məhv edilir.

Xocavənd istiqamətində düşmənə daha bir ağır zərbə vurulur. Belə ki, düşmənin atəş mövqeyinə çıxarılan "OSA" zenit-raket kompleksi (ZRK) bölmələrimizin dəqiq atəşi ilə məhv edilir. Eyni zamanda düşmənin canlı qüvvəsi darmadağın edilir.

❖ ❖ ❖

**Noyabrın 10-da** saat 00:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutur.

Bir nəfər mülki şəxs xəsarət alır.

❖ ❖ ❖



Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan sahəsində Rusiya Hərbi Hava Qüvvələrinin helikopteri vurulur. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək başsağlığı verir.

İlham Əliyev bu faciəli təsadüfə görə üzrxahlıq edərək bildirir ki, günün qaranlıq vaxtında həmin helikopter Ermənistan hərbi hava qüvvələrinin helikopteri hesab edilib.

Dövlət başçısı həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verilməsini xahiş edir, xəsarət almış pilotun tezliklə sağalmasını arzu edir.

Prezident Azərbaycan tərəfinin həlak olmuş və xəsarət almış pilotların ailələrinə kompensasiya ödəməyə hazır olduğunu da bildirir.

İlham Əliyev deyir ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bu fakt üzrə cinayət işi qaldırılıb, təhqiqat aparılır. Təqsirkarlar cəzalandırılacaq və bu barədə Rusiya tərəfi məlumatlandırılacaq.

Vladimir Putin telefon zənginə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirir, belə insidentlərin yolverilməz olduğunu qeyd edir. Tərəflər gələcəkdə belə hallara yol verilməyəcəyinə əmin olduqlarını bildirirlər.

❖ ❖ ❖



Prezident İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüş keçirirlər. Görüşdə Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin üçtərəfli bəyanatı imzalanır.

Vladimir Putin bildirir ki, bəyanatda şərh edilmiş bu qərar nəinki Ermənistan ilə Azərbaycan arasında çoxillik qarşıdurmaya son qoyacaq, bu torpaqlarda qan tökülməsinə son qoyacaq, həm də bəyanatda təsbit edilən razılaşmalara etibarlı nəzarət mexanizmi yaradacaq, ən başlıcası, uzunmüddətli tarixi perspektiv üçün, regionda münasibətlərin, ilk növbədə, həm Azərbaycan, həm də erməni xalqlarının mənafeyi naminə tərəflər arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradacaq.

Prezident İlham Əliyev vurğulayır ki, bu gün Ermənistan ilə Azərbaycan arasında çoxillik münaqişənin nizamlanması işinə nöqtə, Azərbaycan torpaqlarının işğalına son qoyulur. Münaqişənin hərbi-siyasi nizamlanması regionda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq.

❖ ❖ ❖



Prezident xalqa müraciət edib qələbə xəbərini verir.

Qalib Sərkərdə bildirir ki, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur, imzalanmış üçtərəfli bəyanat isə məsələnin həlli istiqamətində son nöqtə olacaq:

"Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

Sonra dövlət başçısı bəyanatın mətni ilə hər kəsi tanış edir.

Bununla da 44 günlük Vətən müharibəsi Azərbaycanın şanlı Zəferi ilə başa çatır.

❖ ❖ ❖



Prezident İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olur. Dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik edirlər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirir.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin ölkəsinin dəstəyinə verdiyi yüksək qiymətə görə təşəkkür edir.

Telefon söhbəti zamanı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya sülhməramlı mərkəzinin yaradılması yüksək qiymətləndirilir, bu mərkəzin regionda uzunmüddətli sülhün təmin edilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunur.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "İnstaqram" səhifəsində paylaşım edir:

"Bu gün böyük gündür - Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu.

Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!"

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Vətənin nurlu oğlu



**- Salam, oğlum!**
**- Salam, oğlum!..**
**Əynində əsgər paltarı, ayağında əsgər çəkməsi, saçlarına çal düşmüş qocaman bir şəhid atası Şuşada oğlunun ruhunu haraylayırdı...**
**"...Sənə Tanrı deyərdim, oğul, Tanrı bağışlasaydı", deyə elə nalə ilə hayqırırdı ki, bu yalvarış dolu səsdən, bu fəryaddan dağ-daş dilə gəlirdi, duyanların ürəyi parça-parça olurdu...**
**Yer də, göy də bir anlıq qulaq kəsildi, həyəcanla, intizarla o cavabı eşitmək istədi...**
**- Salam, ata!**
**- Salam, ata!**
**Heyhat...**
**Dəhşətli susqunluq, daş sakitlik pozulmadı...**

## Şuşaya bir nəfəs qədər yaxın...

Zaman 2020-ci ilin 6 noyabrı, məkan isə Şuşanın bir addımlığıydı...

İndi onları Şuşadan sadəcə qarşıdakı kiçik təpə ayırırdı. Bu əfsanəvi şəhəri azad etməkdən ötrü nəhəng dağları, sıldırım qayaları, dərin dərələri bir həmlədə aşıb gəlmişdilər...

Yaralı olsa da, Rövşən özünü sanki quş kimi hiss edir, İlahi bir qüvvə ona güc verirdi. Və o, bu qeyri-adi gücdən qüvvət alaraq "İrəli" deyə hayqırıb bir andaca təpənin Şuşa üzünə şığımışdı...

Elə həmin an göydən güllə yağışı yağmağa, snayperlərdən açılan ölüm güllələri sağdan-soldan şütüyərək ətrafında torpağa sancılmağa başlamışdı. Qəfildən düşmən hərbçiləri ilə üz-üzə gəlmişdilər. Düşmən sayca çox, silah-sursat baxımından təminatlı idi, amma Rövşəngil də o an düşmənə 30 illik nifrət hissi ilə silahlanmış, qəzəb tanrısına dönmüşdülər. Bu ölüm-dirim çarpışmasına çıxmazdan öncə, hər nə olur-olsun düşmənə aman verməməyə, son damla qanlarına qədər vuruşaraq onları qarşılarında diz çökdürməyə and içmişdilər. Coşan qəzəb hissi ilə Rövşən də düşməni sərrast atəşlə bir-bir dənləyir, qarış-qarış, addım-addım Şuşaya yaxınlaşırdı...

Birdən sanki sağ çiyninə iynə sancdılar, ağrısı düz ürəyinə işlədi. Amma o, bədənindəki hansısa ağrıya fikir verəcək halda deyildi, bütün fikri-zikri düşməni məhv etmək idi...

Amma ikinci dəfə, yenə də sağ tərəfində hiss etdiyi dəhşətli ağrıdan gözləri qaraldı...

O, Şuşanın düz girəcəyində, ana torpağın bağrına uzanmış halda yavaş-yavaş torlanan baxışlarını qala qapılarına dikərək öz-özünə pıçıldamağa başladı: "...Bu qədər yolu qələbə ilə gəlmişiksə, indi Şuşanın girəcəyində ölməyə ixtiyarımız yoxdur..."

Daha ətrafa qulaqbatırıcı sükut çökmüşdü, nə güllə, nə də partlayan mərmilərin səsi eşidilirdi... Sadəcə gözləri önündən üçrəngli bayraq daşıyan döyüşçülər keçib Şuşanın qapısından içəri keçirdilər... O da xəyalən həmin döyüşçülərə qoşulub şəhərə tərəf getməyə başladı...

Bir az da keçdi, haradansa qulağına azan səsi gəldi, gözlərini açıb ətrafına baxdı, gördü ki, Şuşa məscidindədir, o da səf-səf düzülən insanlar arasında namaz qılır, üzünü Allaha tutub dualar edir...

Sonra isə...

## İnsan başlı nəhəng qayalar göyə tərəf diyirlənirdi

Hündür dağlar anidən partlayır, insan başlı yekə, yumru daşlar sürətlə yuxarı, səmaya doğru uçuşurdu. O isə heyrətlə aşağıdan yuxarı, nəhəng qayaların arxasınca baxır, təəccüblə düşünürdü ki, axı bu daşlar aşağı diyirlənməlidir, bəs necə olub ki, göyə üz tutub?! Bu qeyri-adi mənzərəni izləyir, həmin qayalar uzaqlaşdıqca, səbəbini bilmədiyi bir həsrət, hüzn ürəyini bürüyür, qəlbi elə sıxılırdı ki...

Və elə daldığı dərin röyadan da ürəyindəki dəhşətli ağrı hissi ilə hövlnak ayıldı...

"Xeyir olsun!", deyə gördüyü yuxunun təsirindən üşəndi. Qəlbinə minbir şübhə düşmüşdü, "görəsən, Rövşənin başına bir iş gəlməyib ki?" deyə istər-istəməz fikrindən keçirdi. Tezcə də, sanki bu dəhşətli fikirləri özündən uzağa qovurmuş kimi başını silkələyərək, astadan pıçıldadı: "Allahım, sən özün, Rövşəni qoru"...

2020-ci ilin 6 noyabrı Qarabağın, işğal altındakı torpaqlarımızın azadlığı uğrunda mərdliklə savaşan Azərbaycan Silahlı Qüvvələrinin zabiti, baş leytenant Rövşən Əli oğlu Nurzadənin son döyüş günü...

Azərbaycanın Xalq artisti, Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Akademik Milli Dram Teatrının aparıcı aktyoru Əli Qayıb oğlu Nurzadənin oğlunu itirdiyi, şəhid atası olduğu gün...

## İndi onun bu dünyada danışacağı bütün sözlər də, düşündüyü fikirlər də, hətta aldığı nəfəs də Rövşənlə bağlıdır...

Hər gününə igid oğullarımızın cəsurluq, hünər, məğrurluq salnaməsi həkk etdiyi və Zəfərlə sonlandırdığı Vətən müharibəmizin bir ilinin tamamlanmasını qeyd etdiyimiz bu qürurlu günlərdə Xalq artisti Əli Nurzadə "Qarabağ söhbətləri"ndə qonağımız oldu. Hər zaman alışmışdıq ki, görkəmli sənətkarımızla teatrdan, kinodan danışaq, yeni-yeni rollarından, uğurlarından, tamaşaçı sevgisindən bəhs edək...

Amma bu dəfə hər şey tamamilə başqa, daha fərqli idi...

Bu dəfə Əli müəllimi bir aktyor, həm də şəhid atası kimi dinləyirdik. Görkəmli aktyorla səhnədə oynadığı obrazlardan daha çox, özünün yaratdığı, ruhuna, qəlbinə vətənpərvərlik eşqi aşıladığı şah əsərindən danışırdıq. Tanrının onun qismətinə yazdığı həyatdakı gerçək və ağır rolundan söz açırdıq...

Nə qəribə idi, ətrini və qoxusunu almaq üçün şəhid övladının hərbçi geyimini əynindən çıxarmayan, hər yerə bu doğma formada gedən nurani ata, 70 ildən çox zaman sığdırdığı, başdan-başa səhnə uğurları ilə dolu ömrünü, çox qısa, yığcam ifadələrlə 5-6 dəqiqəlik zaman dilimində anladıb qurtarmışdı...

İndi Əli Nurzadənin bu dünyada danışacağı bütün sözlər də, düşündüyü fikirlər də, hətta aldığı nəfəs də Rövşənlə bağlı idi...

Fizikən yanımızda olsa da, dili bizimlə danışsa da, xəyalən oğlu ilə söhbətləşir, ruhən onunla birlikdə göylərdə gəzirdi...













## Ömür pərdələri

Əli Qayıb oğlu Nurzadə 1948-ci il yanvar ayının 10-da, şaxtalı-qarlı bir qış günündə Ağsu rayonunun Bico kəndində dünyaya göz açmışdı. O zaman bütün şairlərin, yazıçıların "bala Paris" adlandırdıqları Bico müasir və inkişaf etmiş bir kənd idi. Elektriklə işıqlandırılan Biconun küçələrinə başdan-başa asfalt döşənmiş, kənd böyük xəstəxana, məktəb, klub, dəyirman, hamam, ümumiyyətlə, hər cür imkana malik olmuşdu. Bu cür inkişaf etmiş kənddə böyüyüb-boya başa çatan Əlu Nurzadə hələ məktəb illərindən istedadı ilə digər şagirdlərdən seçilirdi. O, 9-cu sinifdə şagird şurasının sədri seçilmişdi. Böyük tənəffüsdə yeganə şagird idi ki, romanlardan axıra qədər parçalar danışır, şeirlər oxuyurdu. 7-ci sinifdə dram dərnəyinə üzv, 10-cu sinifdə isə oranın rəhbəri olmuşdu. Orta məktəbi bitirdiyi il qabiliyyət imtahanı tez keçirildiyi üçün sənədlərini çox istədiyi İncəsənət İnstitutuna verməyə gecikmişdi. Buna görə də, o zaman əla qiymətlərlə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun Sənayenin iqtisadiyyatı fakültəsinə daxil olmuşdu. Amma ürəyindəki sənət eşqinə, aktyorluğa olan sevgisinə görə, bir ildən sonra köçürülmə yolu ilə İncəsənət İnstitutunun Aktyorluq fakültəsinin birinci kursuna gəlmişdi. Hələ tələbə ikən institutda İ.Əfəndiyevin, Şillerin, C.Məmmədquluzadənin və digər görkəmli yazıçı və dramaturqların tamaşaya qoyulan əsərlərində ona verilən rolları məharətlə oynamışdı.

İnstitutu müvəffəqiyyətlə bitirdikdən sonra istedadlı məzunu orada müəllim kimi saxlamaq istəsələr də, Əli Nurzadə bunu istəməmişdi. O, bu həyata aktyor olmaq üçün gəlmişdi və səhnədən aralanmaq istəmirdi.

## Heydər Əliyev: "Sizin belə gözəl tamaşanız var, niyə məni dəvət etməmisiniz baxım?"

Beləliklə, 1972-ci ildə təyinatla Sumqayıt Dövlət Dram Teatrına göndərilən Əli Nurzadə burada səhnə fəaliyyətinə başlayır və çox keçmədən teatrın aparıcı aktyoruna çevrilir. İstedadlı aktyor bu teatrda çalışarkən çoxsaylı yaddaqalan rollarda çıxış etmişdi. Əli Nurzadənin səhnədə həyat verdiyi möhtəşəm rollardan biri də general Şıxlinski obrazı olmuşdu...

1982-ci il idi. Sumqayıt Dövlət Teatrı Moskvada Nəriman Həsənzadənin Nəriman Nərimanovun həyatından bəhs edən "Bütün Şərq bilsin" adlı tamaşası ilə çıxış edərək qastroldan qayıtmışdı. Həmin vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan Heydər Əliyev də bu tamaşaya baxmaq istəmişdi. Beləliklə, həmin il mart ayının 22-də (Sumqayıt Dövlət Dram Teatrının öz binası olmadığı üçün) Akademik Milli Dram Teatrında həmin tamaşanı oynayırlar.

Tamaşa Heydər Əliyevin çox xoşuna gəlir və o səhnəyə çıxaraq deyir ki, "...Sizin belə gözəl tamaşanız var, niyə məni dəvət etməmisiniz baxım?"

Daha sonra general paltarında səhnəyə çıxan Əli Nurzadə məlumat verir ki, Sumqayıtda teatr binası yoxdur və onlar kirayədə fəaliyyət göstərirlər.

O zaman Ulu Öndər elə oradaca qərar verir, yeri də özü seçir və Sumqayıtda Heydər Əliyevin dediyi yerdə nəhəng bir teatr binası tikilir. Əli Nurzadə isə həmin il teatra direktor təyin edilir və 5 il bu vəzifəni icra edir. Daha sonra isə Akademik Milli Daram Teatrının çağırışı ilə və Mədəniyyət Nazirliyinin əmri ilə həmin teatra aktyor təyin olunur.

Əli Nurzadə Akademik Milli Dram Teatrının səhnəsindəki tamaşalarda da silsilə və yaddaqalan rolların ifaçısı olur. "Şeyx Xiyabani" tamaşasında Şirzad bəy, "Atabəylər"də Nizami Gəncəvi, "Torpağa sancılan qılınc"da Qazan xan, "Fəryad"da Nəsimi, "Mənsiz dunya"da Mirzə Fətəli Axundzadə və sair kimi möhtəşəm rolları müvəffəqiyyətlə canlandırır... Ümumiyyətlə, istedadlı sənətkar hər zaman səhnədə və filmlərdə yaratdığı parlaq obrazlarla tamaşaçı qəlbini fəth etməyi bacarır...

1972-ci ildə ailə həyatı quran Əli Nurzadənin üç övladı olur: iki oğul, bir qız. Kiçik oğlu Rövşənin doğulması isə çox qəribə bir günə təsadüf edir. Aktyor Sumqayıt teatrında işlədiyi müddətdə bir erməni dramaturqunun əsərini işləyərək səhnəyə qoyur. Baş rolda oynadığı tamaşanın səhnəyə qoyulduğu ilk gün isə, 1975-ci il, martın 24-də oğlu olması barədə muştuluq alır. Tamaşadan bir neçə gün sonra sevinclə uşağı çıxarıb evə gətirirlər. Sanki nağıl dünyasından çıxıb gələn, ətrafına nur saçan bu şip şirin uşağa adqoyma mərasimi edirlər və ona əfsanəvi qəhrəman Koroğlunun əsl adı olan Rövşən (mənası işıqlı, nursaçan deməkdir) adını qoyurlar. Elə onun da xalqımızın qəhrəmanı olacağını hiss edirmiş kimi...

Əli müəllim deyir ki, burada sanki bir paradoks var: "Rövşən erməni əsəri tamaşaya qoyulan gün doğuldu və erməni əlində də şəhid oldu..."

## 9-cu sinifdə oxuyanda evdən qaçaraq Birinci Qarabağ müharibəsinə yollanır

Rövşən lap kiçik yaşlarından dözümlülüyü, ürəkli olmasıyla seçilir, bu xüsusiyyəti ilə hər kəsin diqqətini çəkirdi. Heç nədən çəkinmir, çətinliklərin üzərinə qorxmadan yeriyirdi...

- Hələ heç iki yaşı yox idi, evdə yaratdığım ayrıca kitabxanadan kitab götürməyə gedəndə Rövşən də iməkləyə-iməkləyə arxamca gəlmişdi, lakin mənim bundan xəbərim olmamışdı. Qapını açmaq istəyəndə çeçələ barmağı qapının arasında qalıb sınmışdı, o isə səsini çıxarmamışdı. Bir vaxt ayıldım ki, qapının ağzında sakit durub. Barmağının sındığını biləndən sonra qucağıma alıb maşınla təcili xəstəxanaya apardım, inanırsınız, o yolda da, müalicə ərəfəsində də səsini heç çıxarmadı...

Bir dəfə kəndimizdə Rövşən uşaqlarla futbol oynayanda top gedib düşmüşdü itlərin yanına. Heç kim cəsarət edib topu götürə bilməmişdi. Rövşən demişdi ki, mən gedib götürəcəm. O zaman itlər düşmüşdü onun üstünə, başı, sifəti, bədəni yaralanmışdı, atam güclə almışdı uşağı əllərindən. Mənə zəng vurmuşdular, gedib gördüm ki, xəstəxanadadır...

Kitabxanamda xüsusi bir rəfə dünya sərkərdələri haqqında hərbi memuarlar yığmışdım. O, lap kiçik yaşlarından həmin memuarları götürüb oxuyurdu, tarixlə maraqlanırdı...

Birinci Qarabağ savaşının ən qızğın vaxtı Rövşən 9-cu sinifdə oxuyurdu, Sumqayıtda 31 nömrəli məktəbin şagirdi idi. O zaman məktəbin şagirdlərinə deyib ki, Qarabağa döyüşməyə gedirəm. Beləcə bizə xəbər vermədən avtobusa oturub yola düşür. Həmin vaxt məktəb direktoru xəbər tutaraq bunu mənə bildirdi. Gəldim Saray postundan ratsiya ilə danışdım ki, avtobusda belə bir uşaq gedir, onu geri qaytarın. Rövşən gedib Ağdamda avtobusdan düşəndə soruşurlar ki, sən kimsən, nəçisən? Deyib ki, tələbəyəm, texnikumda oxuyuram. Soruşublar ki, bəs bura niyə gəlmisən? Deyib ki, xalamgilə gəlmişəm. Halbuki bizim Qarabağda heç bir qohumumuz yox idi...

Hətta o zaman kinorejissor Ənvər Əbluc Rövşənin bu davranışı haqqında simvolik olaraq bədii film çəkmişdi...

Onu da deyim ki, Birinci Qarabağ müharibəsi zamanı aktyor kimi hər zaman ön cəbhəyə gedir, əsgərlərimiz qarşısında çıxış edir, konsertlərin aparıcısı olurdum. 1991-ci ilin mart ayında isə Şuşada idim. Aktyor Nurəddin Mehdixanlı da, mən də əlimizdə silah döyüşçülərin arasında idik. Elə həmin ay axırıncı dəfə biz Cıdır düzündən hərbi vertolyotla Ağdama uçduq. Ermənilər aşağıdan bizi gülləyə tutdular. Birtəhər gəlib Ağdama çatdıq. Yəni mən mütəmadi Qarabağda olurdum, orada baş verənlərin hamısının şahidi və iştirakçısı idim...

Rövşən də öz davranışları ilə sanki mən tökdüklərimi yığışdırırdı...

Onda qorxmaq söhbəti yox idi, çox ciyərli, ürəkli idi. Elə bu xüsusiyyəti ilə də mənə oxşamışdı. Mən özüm də zamanında o qədər xəta-bəladan qurtarmışam ki, amma Allah qoruyub...

## Gülə-gülə gəlib dedi ki, müharibəyə gedirəm...

- Rövşən həm də idmançı idi. O, orta məktəbdə oxuyanda Sumqayıtda, Bakıda, Şirvanda, Gəncədə, Qazaxda boks yarışlarında iştirak edirdi. Orta məktəbi bitirib hərbi sahəni seçdi. Hərbi Akademiyada oxuduqdan sonra Qarabağa getdi. Ağdamdakı hərbi hissədə 10 il bölük komandiri oldu. O zamanlar vəziyyət çox pis idi, mən hər zaman onun yanına gedib-gəlirdim, görürdüm ki, onlar səngərlərdə yaşayırlar, orada yatırlar. Hətta Rövşən öz maaşı ilə spirt, bint alıb əsgərlərinin ayağını sarıyırdı ki, göbələk xəstəliyi düşməsin...

2002-ci ilin avqust ayında tərxis olundu, zabit kimi ehtiyata buraxıldı.

Sonra ikinci ali təhsil olaraq iqtisadiyyat üzrə oxudu, bank sahəsində işini davam etdirdi. Bir neçə bankın direktoru oldu. Bir müddətdən sonra restoran işlətdi...

Amma fikri-zikri hər zaman hərbidə idi. İkinci Qarabağ müharibəsindən biriki gün qabaq səhər tezdən qapını hövlnak açıb içəri girdi. Anası soruşdu ki, Rövşən, nə olub sənə? Dedi ki, yuxuda gördüm ki, atam ölüb... Kitab oxuyurdum, başımı qaldırıb dedim ki, a bala, hələ ölməmişəm, öləndə məni özün aparıb dəfn edərsən, ehsanımı verərsən...

Üzərindən bir neçə gün keçəndən sonra gördüm yenə tezdən gəldi, bu dəfə gülürdü. Dedi müharibəyə gedirəm. Anasının pis olduğunu görüb söylədi ki, mən gedib sadəcə təlim keçəcəm, yaşlı adamam. Demə, əvvəldən gedib Yasamal Rayon Hərbi Komissarlığına ərizə verib, müharibəyə getmək istədiyini bildirib. Onun bu barədə səs yazısı da var. Deyir ki, "cavan uşaqlar gedib müharibədə şəhid olacaqlar, ora bizim kimi təcrübəli zabitlər lazımdır..." Rövşənə dedim ki, axı müharibədə sənə çətinlik olacaq, yaşın o yaş deyil... O söylədi ki, "Cənab Prezident elə bir ordu yaradıb ki, biz qısa bir müddətdə torpaqlarımızı azad edəcəyik. Erməni bizim qabağımızda dura bilməyəcək..."

Təsadüfən Türkiyədə Ağdəniz Universitetinin 2-ci kursunda oxuyan böyük oğlu Vaqif də burada idi. Mən, oğlanları Vaqif və Kənan onu aparıb komissarlıqdan yola saldıq. Maşına oturandan sonra dedim ki, "Rövşən, ehtiyatlı ol, müharibədir". O, barmağını qaldırıb qələbə rəmzi göstərdi və "narahat olma, ata, mən zəfər ilə qayıdacam", deyib getdi...

*Səninlə xoş, gözəl günüm gedibdi,*
*Zilim yoxa çıxıb, bəmim gedibdi.*
*Bir uzaq səfərə gəmim gedibdi*
*İndi həsrət çəkən liman kimiyəm.*

## "Şuşada məsciddə namaz qılacam, qurbanlar kəsəcəm..."

Rövşən tabor komandiri olaraq əvvəlcə Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdi. Füzuli azad olunandan sonra Cəbrayıla keçdi. Onun səs yazıları var. Deyir ki, "Biz Zəfər yolundayıq", "Mən Cəbrayıldayam, Bakıda qala bilmədim. Cavan uşaqlar necə döyüşə bilər bu mənfur düşmənlə, biz zabitlər xilas etməliyik vətəni". Qubadlıda da çəkilən videoları var... Gündəlik anası ilə, mənimlə, yoldaşı ilə, oğlanları ilə danışırdı. Demə, o, Qubadlıda yaralanıbmış, amma bizə heç nə deməmişdi. Sonradan şəkillərdə baxıram ki, əlində əsa var...

Onun əsgərləri, zabitləri danışır ki, başqa taborun əsgər və zabitləri də səhərə qədər gəlib Rövşənin vətənpərvərlik əhvalında olan çıxışlarına, söhbətlərinə qulaq asırdı. O, sanki bizə döyüşmək üçün ruh verirdi...

Noyabrın 2-də tezdən Rövşən mənə zəng vurub dedi ki, Cəbrayıla gəlmişik. Dedim axı siz Cəbrayılı azad etmisiz?! Dedi bilmirəm, harasa getməliyik. Axşamtərəfi zəng etdi, dedi ki, ata, biz buradan gedirik, amma telefonda deyə bilmərəm ki hara. Ayın 2-dən sonra daha ona zəng çatmadı. Çox narahat idim. Demə, onlar Şuşaya gedirmişlər... 30 kilometr məsafədə meşənin içi ilə, dağların başı ilə palçığın içində, dumanlı havada yol gedirlər. Əslində Rövşən Qubadlıda qalmalı imiş, amma deyir ki, mən Şuşanın alınmasında mütləq iştirak etməliyəm...

Noyabrın əvvəlində Daşaltıda şiddətli döyüşlər gedəndə Rövşəngilin də yanına mərmi düşür və nəticədə həm özü, həm də 4 əsgəri yaralanır. Həmin əsgərləri arxaya təxliyyə edirlər, Rövşənə də deyirlər ki, komandir, sən də yaralısan, onlarla get. Deyir ki, "birimiz canımızla, birimiz qanımızla əldə etməliyik Qələbəni". Çantasından sonuncu ağrıkəsici dərmanı çıxarır və döyüşçü yoldaşlarına deyir ki, bunu mənə vurun. Həm də əlavə edir ki, "narahat olmayın, Şuşanı alacağıq və orada məsciddə namaz qılacam, qurbanlar kəsəcəm. Öz əlimlə sizə kabab çəkəcəm..."

## Rövşən kimi mərd oğullar sayəsində Vətən xilas oldu

Ayın 6-da artıq onlar Şuşanın girəcəyinə çatırlar. Orada bir təpə var, oranı dönüb qapıdan içəri, şəhərə daxil olursan. Rövşən həmin təpəyə birinci keçir. Hətta o zaman IX taborun Sərxan adlı komandiri deyir ki, "Rövşən, axı biz nizam-intizamla getməliyik, sənin yerin bizdən sonradır". O isə inadından dönməyib irəli gedir. Həmin vaxt qəflətən qabaqlarına 20-30 nəfər silahlı erməni çıxır. Atışma zamanı Rövşənə iki güllə dəyir. Bir güllə qadağan olunmuş güllə olub, fırlana-fırlana düz ürəyinə çatıb. Özü də ayağından yaralı olan Sərxan Rövşənin başını alır qucağına. Rövşən ona deyir ki, "Sərxan, biz bu qədər yolu qələbə ilə gəlmişik, indi Şuşanın girəcəyində ölməyə haqqımız yoxdur. Biz Şuşaya girməliyik..." Amma döyüş yoldaşları nə qədər çalışsalar da, Rövşəni ölümün əlindən ala bilmirlər. Üzərindən 45 dəqiqə keçdikdən sonra o kəlmeyi-şəhadətini pıçıldaya-pıçıldaya haqq dünyasına qovuşur...

Rövşənin şəhidliyindən noyabrın 11-də xəbər tutdum. Həmin axşam qardaşım, kürəkənim gedib Füzulidən onun nəşini gətirdilər. Rövşəni II Fəxri xiyabanda dəfn etdik. Onun dəfnində çox adam iştirak edirdi. Orada çıxış etdim, dedim ki, mən tək Rövşən Nurzadənin deyil, bütün Azərbaycan şəhidlərinin atasıyam...

Bir müddət əvvəl Şuşaya Rövşənin, igid oğullarımızın qanları, canlarıyla açdığı "Zəfər yolu" ilə səfər etdim. O yollardan keçdikcə qəhrəman övladlarımızın necə çətin çığırlardan, sıldırımlardan, dərələrdən keçərək Şuşanı azad etməsinin bir daha şahidi oldum və onlarla fəxr etdim. Bu günü, Qələbə gününü bizə Cənab Prezident İlham Əliyev və onun müzəffər ordusu yaşatdı...

Bütün dünya Azərbaycan xalqının gücünü gördü. Biz dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır!

Rövşən "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Onu da deyim ki, mən "Zəfər yolu" ilə Şuşaya gedib Rövşənin son arzusunu reallaşdırdım, Şuşada məsciddə namaz qıldım, onun və Vətən uğrunda canından keçən əziz şəhidlərimizin ruhuna dualar etdim...

Rövşən kimi mərd oğullarımız olmasaydı, torpağı kim xilas edəcəkdi?! Müharibə vaxtı kim cəbhədə şəhid olursa, o qəhrəmandır...

## Bu dərdin təskinliyi yoxdur

Amma hər bir şəhidin ölümü ailədə tükənməyən, sonsuz faciədir, göz yaşıdır. İnsanlar yaşlaşır, dünyasını dəyişir, ata, ana, bacı, qardaş itkisi ilə üzləşir, amma övlad dərdi başqadır... Bu dərdi unutmaq olmur, bu dərdin təskinliyi yoxdur. Müəyyən vaxtlar olur, danışırsan, deyirsən, gülümsəyirsən, amma ürəyində başqa hisslər keçirirsən. Buna ikinci plan deyirlər. Viktor Hüqonun bir fikri var, deyir ki, insan danışmayanda da fəryad edir. Bax mən indi o vəziyyətdəyəm. Rövşənin təbəssümlü, gülümsəyən sifəti gözlərimin önündən getmir. O öz yoxluğu ilə mənim də, anasının da ürəyinə dağ qoyub getdi. Biz hər zaman düşünürdük ki, yaşlaşacağıq, xəstələnəcəyik, dünyamızı dəyişib öləcəyik, Rövşən də bizi öz çiynində bu dünyadan yola salacaq... Amma...

Elə bil həmişə qara bir fikirlə yaşayırdım ki, mən Rövşəni nə vaxtsa tez itirəcəm... "Əsgər atası" filmində də yaralı oğulun atanın qolları üstündə həlak olma səhnəsi hər zaman məni diksindirirdi...

Bax eynilə o dəhşətli hadisə mənim də başıma gəldi...

*Səni ürəyimdə dəfn eyləmişəm,*
*Mənimlə birgəsən, gündüz, həm gecə.*
*Kimsə verə bilməz, mənə təsəlli,*
*Gəlib o dünyada sənə yetincə...*

## "Hay ver mənə, cənab leytenant"...

Azərbaycanın Xalq artisti, Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Akademik Milli Dram Teatrının aparıcı aktyoru Əli Nurzadənin acılı-şirinli həyat dəftərini vərəqlədik, işıqlı ömrünün siyah üzünə bələd olduq. Bundan sonrakı həyatına yazılan ağrılı, Rövşənsiz tale yolunu irəliləməyin onun üçün necə çətin olduğunun, yaralı atanın bu dəhşətli qədərdən qaçmaq, zamanı geriyə qaytarmaq üçün əbəs çırpıntılarının şahidinə çevrildik...

İndi Əli Nurzadə teatrda obrazdan-obraza girən bir aktyor, həyatda isə şəhid atasıdır. Dəli nərə kimi səhnələrdə gurlayan səsinə indi titrəklik hakim kəsilib, qəm-kədər üzündə, alnında qüssəli bir cığır salıb, gözlərindən daim axmağa hazır olan acı yaş damlaları kirpiklərində ağır bir daş kimi ömürlük asılıb qalıb...

Sadəcə təsəllisi Rövşənin oğul yadigarları Vaqiflə, Kənandır...

Bir də bütün Azərbaycan xalqının qəhrəmanına, əfsanəvi Şuşa fatehinə çevrilən Rövşən kimi mərd oğulun atası olmağın qüruru...

*Əli müəllimlə söhbətimizin elə bu məqamında onun telefonundan çox tanış melodiya, ardınca isə həzin səs yüksəldi. Şəmistan Əlizamanlı, "Hay ver mənə, cənab leytenant" söyləyirdi...*

*Qeyri-ixtiyari bir anlıq susaraq qulaq kəsildik, lap uzaqlardan küləyin gətirdiyi bir doğma hay gəldi qulaqlarımıza...*

*- Salam, ata!*
*- Salam, ata!*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



## Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə

**Zati-aliləri, möhtərəm cənab Prezident!**

**Ali Baş Komandan kimi Sizin rəhbərliyiniz altında Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda 44 günlük zəfər savaşının qalibiyyətlə başa çatmasının bir ili tamam olur. Zəfər savaşının nəticəsi olaraq Ermənistanın kapitulyasiya sazişini imzalamağa məcbur olduğu 10 noyabr 2020-ci il Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə həkk olunmuşdur. Bu tarixi zəfərin ildönümü münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət, qazilərə şəfa diləyirəm.**

**Azərbaycanın əldə etdiyi bu tarixi qalibiyyət zati-alinizin ölkə rəhbəri kimi apardığı uzaqgörən daxili və xarici siyasətin, müdafiə, iqtisadiyyat, sosial sahə, mədəniyyət, vətənpərvər tərbiyə və digər sahələrdə həyata keçirdiyi islahatların məntiqi nəticəsidir. Eyni zamanda dünya təcrübəsində görünməmiş yeni hərbi strategiya və taktika ilə qazanılan bu qələbədə Sizin həm də bacarıqlı bir sərkərdə kimi həlledici rolunuz olmuşdur. Azərbaycan ordusu da məhz öz sərkərdəsindən, onun qətiyyətindən ilhamlanaraq düşmənə sarsıdıcı zərbələr endirmişdir.**

**Azərbaycanın bir il bundan öncə qazandığı möhtəşəm zəfər bölgədə yeni reallıqlar yaratmışdır. Artıq beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış Azərbaycanla hər kəs hesablaşmaq məcburiyyətindədir. İndi Cənubi Qafqazda sülh, sabitlik və davamlı inkişaf üçün tələb olunan şərtləri məhz Azərbaycan diktə edir.**

**Hazırda Azərbaycan bölgədə davamlı sülhün bərqərar olması üçün beynəlxalq səylər göstərməklə yanaşı, 30 illik işğaldan azad edilmiş torpaqlarda sürətli bərpa və quruculuq işləri aparır. Zati-alinizi əmin etmək istəyirəm ki, Azərbaycanda 26 ildən artıq fəaliyyət göstərən, yatırdığı sərmayələri ilə Azərbaycan iqtisadiyyatının inkişafına töhfə verməyə çalışan ailəmiz müharibədən sonrakı dövrdə də bütün səylərini, güc və potensialını Azərbaycanın çiçəklənməsinə sərf edəcəkdir.**

***Şəxsinizə və Azərbaycan xalqına dərin hörmət və ehtiramla,***

***Eran MÜDÜROĞLU***
***LANDMARK Kompleksinin investoru və rəhbəri***




## Naxçıvan Qarnizonu Qoşunlarında andiçmə mərasimləri keçirilib

Zəfər Günü ərəfəsində Naxçıvan Qarnizonu Qoşunlarında andiçmə mərasimləri keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, Əlahiddə Ümumqoşun Orduda, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında keçirilən mərasimlərdə gənc əsgərlər Vətənə sədaqət andı içiblər.

Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Gənc əsgərlər Azərbaycan Respublikasının mənafeyini, ərazi bütövlüyünü və müstəqilliyini canları bahasına qoruyacaqlarına and içiblər.

Tədbirdə 8 Noyabr - Zəfər Günündən və hərbi andın mahiyyətindən danışan polkovnik Mübariz Rzayev şəxsi heyətə xidmətlərində uğurlar arzulayıb.

Gənc əsgər Tayfun Qədimli 44 günlük Vətən müharibəsi ilə xalqımıza qələbə sevinci yaşadan hərbi qulluqçularımızın davamçıları olaraq Vətənimizin müdafiəsində cəsarətlə dayanacaqlarına və ayıq-sayıq döyüş növbətçiliyi aparacaqlarına söz verib.

Valideynlər adından çıxış edən Elsevər Dünyamalıyev övladının hərbi andı qəbul edərək tam hüquqlu əsgər olmasının sevinci və qüruru ilə gənc əsgərləri təbrik edib.

General-mayor Rəhim Cəfərov Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıraraq bildirib ki, Ümummilli Lider Heydər Əliyevin hərbi-elmi əsaslarla formalaşdırdığı milli ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində işğal altındakı torpaqlarımızı düşməndən azad edən müzəffər ordumuz dövlət-xalq-ordu birliyindən güc alaraq tarix yazdı. İnanırıq ki, Zəfər Günü ərəfəsində hərbi andı qəbul edən gənclərimiz də Vətən müharibəsində şücaətləri ilə seçilən hərbi qulluqçularımız kimi vicdanla və şərəflə xidmət edərək döyüş növbətçiliyinin uğurlu təşkilində fəal iştirak edəcəklər.

Təbrik oxunduqdan sonra şəxsi heyətin təntənəli keçidi olub.

Uzun illərdir davam edən ənənəyə əsasən Naxçıvan Qarnizonu Qoşunlarında hərbi andı qəbul edən əsgərlərə qısamüddətli məzuniyyət verilir və Naxçıvan Muxtar Respublikasından həqiqi hərbi xidmətə çağırılan əsgərlərimizdən hər hansı biri də evlərinə gedən zaman Azərbaycanımızın digər bölgələrindən hərbi xidmətə çağırılmış əsgərlərdən birini özü ilə bərabər qonaq apara bilir. Xalqımızın qonaqpərvərliyini göstərən bu tədbirlər həm də əsgərlər arasında ömürlük dostluq münasibətləri yaradır.

## Zəfər Günü münasibətilə hərbi hissədə tədbir keçirilib

Noyabrın 6-da "N" saylı hərbi hissəsində Zəfər Günü münasibətilə tədbir keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin hərbi hissənin ərazisindəki abidəsi ziyarət olunub, önünə əklil və gül dəstələri qoyulub.

Ümummilli Liderimizin və ərazi bütövlüyümüz uğrunda canlarını qurban verən şəhidlərimizin ruhları bir dəqiqəlik sükutla anılıb. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi və ictimaiyyət nümayəndələrinin, şəhid ailələrinin, qazilərin, hərbi hissənin şəxsi heyətinin iştirak etdiyi mərasimdə Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan qələbədən, qəhrəman oğullarımızın göstərdiyi şücaətdən danışılıb. Bildirilib ki, döyüşlər zamanı Azərbaycan Ordusu qüdrətini, Azərbaycan əsgəri gücünü bütün dünyaya nümayiş etdirdi. Vətən müharibəsi ilə haqq-ədalət bərpa edildi, xalqımızın otuz ilə yaxın həsrətinə son qoyuldu.

Şəhid ailələri göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Sonra hərbi hissənin şəhid hərbi qulluqçularının əziz xatirəsinə salınmış memorial kompleksin açılışı olub.

Mərasimin bədii hissəsində ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Milli Müdafiə Nazirliyinin Mehteran Birliyinin ifasında Türkiyə-Azərbaycan qardaşlığını və vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirilib.

SOCAR
SOCAR PETROLEUM QSC

8 Noyabr - Zəfər Günü



GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

8 Noyabr - Zəfər Günü
münasibətilə təbrik edir, əbədi sülh arzulayır

QARABAĞ AZƏRBAYCANDIR!




Coca-Cola
Şirkəti
Azərbaycan xalqını

8 Noyabr –
Zəfər Günü
münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər
arzulayır

## Ukraynanın Krivoy Roq şəhərində Azərbaycanın Zəfər Günü münasibətilə bilbordlar yerləşdirilib

Ukraynanın Krivoy Roq şəhərində Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə, 8 Noyabr - Zəfər Günü münasibətilə bilbordlar quraşdırılıb.

AZƏRTAC xəbər verir ki, Ukrayna Azərbaycanlıları Konqresinin Krivoy Roq şəhər təşkilatının təşəbbüsü ilə keçirilən bayram aksiyasında nümayiş etdirilən bilbordlarda "Azərbaycanın Qələbə Günü", "Qarabağ-Azərbaycandır!" şüarları yazılıb, Zəfərimizin rəmzi "Xarıbülbül"ün və Azərbaycanın Dövlət Bayrağı, hərbçilərimizin şəkilləri əks olunub.

Ukrayna Azərbaycanlıları Konqresinin Krivoy Roq şəhər təşkilatının sədri Rəmzi Rzayev AZƏRTAC-a bildirib ki, Zəfər Günü ilə bağlı şəhərin mərkəzi hissələrində 4 bilbord yerləşdirilib. Bilbordlar bir ay müddətdə nümayiş olunacaq.

"Nabucco Memarlıq və İnşaat" MMC
Azərbaycan xalqını



8 Noyabr - Zəfər Günü
münasibətilə təbrik edir, firavan həyat və xoş gələcək arzulayır
NABUCCO A & C
Sənaye, kommersiya və kənd təsərrüfatı təyinatlı tam kompleksli hermetik polad binaların layihələndirilməsi, istehsalı, çatdırılması, quraşdırılması və servisi

## Kiyevdə Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsinin ildönümünə həsr edilmiş "dəyirmi masa" keçirilib

Kiyevdə, "Ukrainskiye Novosti" informasiya agentliyinin ofisində "İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi beynəlxalq hüququn qələbəsinin və dövlətin ərazi bütövlüyünün bərpa edilməsinin mühüm presedentidir" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, 8 Noyabr - Azərbaycanın Zəfər Gününə həsr edilmiş tədbirin təşkilatçısı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzidir.

"Dəyirmi masa" iştirakçıları Azərbaycan ərazilərinin işğaldan azad edilməsi prosesini, Qarabağın və ona bitişik yeddi rayonun 30 il işğal altında olmasının nəticələrini, Azərbaycanın ərazi bütövlüyünün və beynəlxalq hüququn aliliyinin, işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı, regiona sülhün və sabitliyin qaytarılması, Azərbaycan təcrübəsinin Ukrayna üçün əhəmiyyəti məsələlərini müzakirə ediblər.

Tədbirin moderatoru Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Ukraynadakı nümayəndəsi Marina Qonçaruk tədbiri açaraq qeyd edib ki, Ukrayna üçün mühüm strateji tərəfdaş olan Azərbaycanla hərtərəfli, o cümlədən təhlükəsizlik və müdafiə sahələrində əməkdaşlıq fəal inkişaf edir. M.Qonçarukun sözlərinə görə, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi regiona sülhü və sabitliyi qaytarıb, həm Azərbaycanın, həm də bütün regionun tarixində keyfiyyətcə yeni səhifə açıb. O deyib: "Azərbaycanın yaratdığı presedent - ölkənin ərazi bütövlüyünü və beynəlxalq hüququnun aliliyini müstəqil surətdə, öz səyləri hesabına bərpa etməsi bütün dünya üçün, xüsusən öz ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizə aparan Ukrayna üçün çox vacibdir".

Tədbir çərçivəsində politoloq, jurnalist, "Pryamoy" telekanalının aparıcısı, bu yaxınlarda bir qrup jurnalist və politoloqla birlikdə Qarabağda səfərdə olmuş Taras Berezovets çıxış edib. O deyib: "Azərbaycanın nümunəsi bizim üçün ona görə maraqlıdır ki, 44 günlük müharibə başa çatandan dərhal sonra Azərbaycan öz ərazilərini bərpa etməyə başlayıb. Artıq bu ilin sentyabr ayında gördük ki, yüzlərlə kilometr yeni yollar salınıb, yolkənarı infrastruktur yaradılıb, işğal dövründə tamamilə məhv edilmiş, indi Qafqazın Hirosiması adlanan Ağdam kimi şəhərlərin bərpası planları artıq hazırdır.

Erməni xalqının indi revanşist şüarlara uyması, məğlubiyyətin əvəzini çıxmaq cəhdi çox böyük səhv olar. Radikal əhvali-ruhiyyəli siyasətçilər erməni xalqını yeni hərbi münaqişəyə cəlb etmək istəyir, lakin belə cəhdlər onun üçün daha böyük fəlakət olar".

Milli Strateji Tədqiqatlar İnstitutunun xarici siyasi araşdırmalar mərkəzinin əməkdaşı Mıkola Zamikula da bu yaxınlarda bir qrup jurnalist və politoloqla birlikdə səfərdə olub. O deyib: "Mənə Ağdam şəhərindən daha çox Cəbrayıla gedən yol güclü təsir bağışladı. Bu yolun ətrafında çoxsaylı keçmiş yaşayış məntəqələri var. Onlara baxdıqca düşünürdüm: bu evlərin yüzlərlə yaşı var. Burada kiminsə əcdadları yaşayıb və indi bu evlər dağıdılıb".

Jurnalist, "Senzor.NET" internet portalının baş redaktoru Yuri Butusov deyib: "Mən də bu yaxınlarda Qarabağda olmuşam. Azərbaycanın çox mürəkkəb siyasi şəraitdə inkişaf etməsi məni heyrətləndirdi. Axı həmhüdud ölkələrin bəziləri ona düşmən münasibəti bəsləyir. Bütün bunlara baxmayaraq, Azərbaycan öz siyasətinin reallaşması üçün çox mükəmməl strategiya qura bilib. Prioritetlər düzgün müəyyən edilib, resurslar düzgün paylanıb".

"Den" qəzetinin siyasət şöbəsinin redaktoru jurnalist İvan Kapsamun vurğulayıb ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə kömək etməli olan bir sıra beynəlxalq qurumlar, o cümlədən ATƏT-in Minsk qrupu əslində yalnız status-kvonun saxlanmasına şərait yaradıblar. Onun sözlərinə görə, Azərbaycan vəziyyətdə dönüş yaradıb və beynəlxalq təşkilatlara ümid etmədən öz ərazilərini qaytara bilib.

Azərbaycanşünas tarixçi Oleq Kupçik ermənilərin Azərbaycan ərazilərinə və bütövlükdə Qafqaza köçürülməsinin ilkin tarixi şəraiti barədə məlumat verib. Ötən əsrin əvvəlində erməni millətçiliyi aktları barədə tarixi məlumatlar səslənib.

Hərbi ekspert Yuri Koçevenko öz çıxışında qeyd edib ki, Azərbaycan nümunəsi ukraynalıları ruhlandırır, Azərbaycanın qələbəsi dövlətin diplomatik, hərbi, iqtisadi, informasiya və digər səylərinin düzgün əlaqələndirilməsi nümunəsidir.

"Doktrina" siyasi araşdırmalar mərkəzində beynəlxalq siyasət istiqamətinin əlaqələndiricisi Denis Moskalik beynəlxalq tərəfdaşların Azərbaycanı dəstəkləməsinin vacibliyi, habelə Qarabağın bərpasında xarici şirkətlərin iştirakının rolu barədə söhbət açıb.

"Doktrina" siyasi araşdırmalar mərkəzinin təhlükəsizlik siyasəti departamentinin rəhbəri Qleb Parfyonov Azərbaycanın yalnız öz qüvvələrinə və tərəfdaşlarının siyasi dəstəyinə güvənərək ərazi bütövlüyünü bərpa etməsi barədə danışıb.

Günay Bank

Azərbaycan xalqını
8 Noyabr - Zəfər Günü
münasibətilə təbrik edir,
ölkəmizə əbədi müstəqillik arzulayır



QARABAĞ AZƏRBAYCANDIR!

CEG CASPIAN ENERGY GROUP
www.caspian-energy.net
012 5555 000

ТЕХНОНИКОЛЬ

Azərbaycan xalqını
8 Noyabr - Zəfər Günü
münasibətilə təbrik edir



QARABAĞ AZƏRBAYCANDIR!

**44 günlük Vətən müharibəsinin qalibiyyət bayrağını Qarabağda zirvələrə sancan Azərbaycan əsgəri düşmənə layiq olduğu yeri göstərdi. Bir ildir ki, bu Zəfərin sevincini yaşayan xalqımız, əlbəttə, döyüşlərin getdiyi günlərdə xilaskar ordusunun arxasında dayanmağı özünün borcu hesab etdi.**







# Zəfər tariximizin qəhrəmanları

## Azərbaycanda ordu quruculuğu Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin əsasını təşkil edirdi

Xalq Ali Baş Komandana və onun əmri ilə hərəkət edən ordusuna inanırdı. Bu inam isə hələ illər öncə formalaşmağa başlamışdı. Daha doğrusu, Ulu Öndərin hakimiyyətinin birinci dövründən başlayan ordu quruculuğu ilə əlaqədar siyasətinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin layiqincə davam etdirməsi, Silahlı Qüvvələrin NATO standartları səviyyəsində inkişafına nail olması ilə bağlı idi. İnam isə qələbənin rəhnidir. Bu, məhz 44 günlük Vətən müharibəsində özünü bir daha təsdiqlədi...

Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də, təbii ki, onun silahlı qüvvələridir. Azərbaycan Ordusunun 1918-ci ildən başlayan keşməkeşli və şərəfli inkişaf yolu hərb tariximizin möhtəşəm salnaməsidir. Zamanın sınağından çıxan silahlı qüvvələrimiz Vətəni istənilən hücumdan qorumağa qadir bir qüvvə kimi günümüzün danılmaz reallığına çevrilib. Bu uğuru Ümummilli Lider Heydər Əliyevin azadlıq və müstəqillik ideyalarının tam təmin olunması naminə hazırlanan ordu quruculuğu konsepsiyasının təntənəsi kimi dəyərləndirmək olar.

### Misilsiz, əvəzedilməz xidmət

Silahlı Qüvvələrin yaradılması həm də müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra müstəqil dövlət quruculuğu istiqamətində tarixi, həm də misilsiz, əvəzedilməz, danılmaz xidmətlərindən biri də Silahlı Qüvvələri ağır böhranlı vəziyyətdən çıxarması, ordunu siyasi oyunlardan kənarlaşdırması oldu. Ordu quruculuğuna yeni məzmun verdi, yəni ölkədə müasir ordunun formalaşdırılmasının əsasını qoydu.

Ulu Öndər Heydər Əliyev hələ Azərbaycanda ilk dəfə hakimiyyətə gəldikdən sonra 1971-ci il iyunun 20-də C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi lisey yaratdı. Ötən illər ərzində minlərlə gənc bu məktəbi bitirdi. Onlar bundan sonra ali hərbi məktəblərə daxil olaraq böyük ordu həyatına vəsiqə aldılar.

Çox da uzaq olmayan tariximizin səhifələrini vərəqlədikcə görüb və xatırlayırıq ki, Azərbaycan xalqının üzləşdiyi əsas problemlərdən biri hələ müstəqilliyini bərpa etməmişdən öncə ölkəmizin Ermənistanın hərbi təcavüzünə məruz qalması idi. Belə ağır günlərdə xalqı öz ətrafında səfərbər edə biləcək şəxsiyyətin respublika rəhbərliyində olmaması Azərbaycanda toplanmaqda olan hərbi qüvvələri də güclü böhran qarşısında qoymuşdu.

O vaxtlar dövlət müstəqilliyinin itirilməsi təhlükəsi yaranmışdı. Bundan istifadə edən təcavüzkar Ermənistan havadarlarının hesabına əvvəlcə Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhaliyə qarşı qırğınlar törətdi. Sonra separatçılar onun ətrafındakı rayonların işğalına başladılar. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, əgər Ümummilli Lider Heydər Əliyev həmin illərdə respublikanın rəhbərliyində olsaydı, Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısı alınardı. Bu sözlərin doğru olduğunu Heydər Əliyev əvvəlcə Naxçıvanda fəaliyyət göstərdiyi zaman, sonra Azərbaycan xalqının tələbi ilə respublika hakimiyyətinə qayıtdıqdan sonra gördüyü müstəsna xidmətləri ilə sübut etdi.

Tarixi varislik ənənəsinə uyğun olaraq, Ulu Öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı fərmanla Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk əlahiddə Azərbaycan korpusunun yaradıldığı gün - iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi.

### Mükəmməl, müasir ordu quruculuğunun nəticəsidir ki...

Ümummilli Lider Heydər Əliyevin 1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının fəaliyyətə başlaması, 20 avqust 2001-ci ildə respublikamızda olan hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002-ci ildə Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanlar, ordunun formalaşmasında əsaslı dönüşə səbəb oldu. Bütün bunların nəticəsidir ki, bu gün Azərbaycanda güclü maddi-texniki təchizata, həmçinin müasir texnologiyalara malik, yeni tədris metodları ilə fəaliyyət göstərən, uğurları ölkəmizin sərhədlərindən də uzaqlara yayılan hərbi təhsil sistemi mövcuddur. Bu gün Azərbaycanın ali hərbi məktəblərdə, hətta bir sıra xarici ölkələrin nümayəndələri təhsil alırlar.

Azərbaycanda hərbi quruculuq bu gün də yüksələn xətlə inkişaf edir. Bunun ən başlıca səbəbi isə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən Ümummilli Liderin həyata keçirdiyi strateji əhəmiyyətli tədbirləri və ənənələri uğurla davam etdirməsi, o cümlədən, ordu quruculuğu işini prioritet elan etməsi ilə bağlıdır.

Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, başlanğıcını hələ sovetlər dövründən götürüb. Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanov deyir ki, Ulu Öndər Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, XX əsrin 70-ci illərindən etibarən peşəkar hərbi kadrların hazırlanması məsələsi Azərbaycan xalqının əsas vəzifələrindən birinə çevrilmişdi. Bütün bunların nəticəsində həm gənclərin hərbi xidmətə çağırış işi təkmilləşdirildi, həm də azərbaycanlıların xüsusi ixtisas hazırlığı verən hərbi hissələrə göndərilməsi artdı: "Ümummilli Lider Heydər Əliyevin Sovet İttifaqı dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. Ona görə də azərbaycanlı zabitlərin sovet qoşunlarında hansı vəzifələrdə olmasını və vəzifə təyinatlarında necə irəliləməsini daim izləyirdi. Ulu Öndər çalışırdı ki, yüksək vəzifəli sovet zabitləri arasında azərbaycanlılar da olsun".

Heydər Əliyevin özünün də xatırladığı kimi, bu ali hərbi məktəblərin hər birinə ildə 300 nəfər qəbul olduğu halda, XX əsrin 70-ci illərində Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində cəmi 10-15 nəfər, Bakı Ali Hərbi Dənizçilik Məktəbində isə cəmi 1-2 nəfər azərbaycanlı gənc zabit peşəsinə yiyələnirdi.

### Zəfərin mübarək, ordum!

Ulu Öndər hazırda hərbi lisey adlanan C.Naxçıvanski adına məktəbin açılmasını belə xatırlayırdı: "Mən bu gün böyük iftixar hissi ilə demək istəyirəm ki, milli ordumuzun yaranması haqqında biz vaxtilə düşünmüşük. Nəinki düşünmüşük, on illər bundan əvvəl tədbirlər görmüşük və onlar indi öz nəticəsini verir. Xatirimdədir, 1970-ci ildə, 25 il bundan öncə mən Azərbaycanda əvvəllər heç vaxt oxşarı, analoqu olmayan ixtisaslaşdırılmış hərbi orta məktəb yaratmaq haqqında fikir irəli sürdüm. Bu məktəbi yaratdıq. Doğrudan da, mənim həyatımda gördüyüm işlər içərisində bu addımı, bu işi, bu təşəbbüsü o dövrdən artıq 25 il keçəndən sonra şəxsən özüm çox yüksək qiymətləndirirəm. Mən belə bir addım atarkən, təşəbbüs irəli sürərkən, o vaxt Sovet İttifaqının çərçivəsində belə bir qeyri-adi qərar qəbul edərkən təkcə o günləri yox, Azərbaycanın gələcəyini düşünürdüm. Mən çox istəyirdim ki, Azərbaycanın milli ordusu olsun. Əgər o vaxt milli ordu yaratmaq mümkün deyildisə, Sovet İttifaqı ordusunun tərkibində Azərbaycanın güclü zabit korpusu, zabitləri olsun. Mən istəyirdim ki, Azərbaycan zabitləri Sovet İttifaqı ordusunun tərkibində özlərinə layiq yer tutsunlar, respublikamızın mövqeyini müdafiə etsinlər və Azərbaycanın təsirini bütün Sovet İttifaqına yaya bilsinlər. Mən istəyirdim ki, zabitlər korpusumuz olsun, çünki bu, Azərbaycanın gələcəyi üçün lazım idi. O vaxt bunu dərk edə bilməyən adamlar da, buna adicə bir hadisə, tədbir kimi baxanlar da indi yəqin artıq bilirlər ki, bu addımı atarkən nə qədər böyük uzaqgörənlik olmuşdur. Deməliyəm ki, o vaxt biz məktəbi yaradanda onun əleyhinə Moskvadan, Sovetlər İttifaqının mərkəzindən çox etirazlar edirdilər. Buraya bir neçə dəfə komissiyalar göndərdilər, yoxladılar, bunun qeyri-qanuni olması barədə qərarlar çıxardılar. Ancaq mən öz fikrimdən dönmədim. Heç bir təzyiq mənə güc gələ bilmədi. Mən tutduğum işi davam etdirdim. İxtisaslaşdırılmış bu hərbi məktəb - Azərbaycanın böyük sərkərdəsi, generalı Cəmşid Naxçıvanskinin adını daşıyan məktəb yaşadı, inkişaf etdi, kadrlar hazırladı..."

Bəli, məhz həmin illərdən başlayan hərbi quruculuq prosesi 2020-ci il noyabrın 8-də Qarabağın zümrüd tacı, Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada üçrəngli bayrağımızın yüksəldilməsi ilə nəticələndi. Şəhidimiz də oldu, qazimiz də, lakin xalqımızın illərlə gözlədiyi gün gəldi. Bu günə çatacağımıza Ulu Öndər özü inanırdı. İnanırdı ki, gün gələcək, vaxtilə yaratdığı ordu inkişaf edib güclənəcək, zəfər salnaməsini yazacaq.

Zəfər hərb tariximizə məhz belə yazıldı!

Budur, bir ildir dünya əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Ali Baş Komandan İlham Əliyevin formalaşdırdığı Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qazandığı zəfərdən danışır...

Zəfərin mübarək, ordum!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***





# Şəhid ailələri və qazilər üçün sosial dəstək proqramları daha da genişlənəcək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında bu ilin doqquz ayında görülən işlər, postmüharibə dövründə sosial dəstək tədbirləri müzakirə olunub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun bir il bundan əvvəl Vətən müharibəsində əldə etdiyi möhtəşəm Zəfəri qeyd edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tarixi Qələbənin xalqımızda sonsuz qürur hissi yaratdığını vurğulayan nazir Vətən müharibəsindən sonra Prezidentin tapşırığı ilə böyük sosial dəstək paketi icra olunduğunu qeyd edib. O, şəhid ailələri və qazilər, erməni terrorundan zərər çəkənlərdən ibarət 33 min şəxsin dəstək tədbirləri ilə əhatə olunduğunu, şəhidlərin ailə üzvləri və qazilərlə əlaqədar icra olunan sosial dəstək proqramlarının daha da genişlənəcəyini bildirib.

Qeyd edilib ki, mühüm bir dəstək istiqaməti olaraq Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin sosial təminat hüquqlarının çevik şəkildə həyata keçirilməsi təmin olunub. Onların müraciətinə, zəruri sənədləri təqdim etməsinə ehtiyac qalmadan həmin sənədlər aidiyyəti qurumlardan alınıb və e-sistem üzərindən proaktiv qaydada sosial ödənişlər təyin olunub. Şəhid ailələrinin üzvlərindən ibarət 7 min 900 nəfərə 15 min 700 sosial ödəniş (Prezidentin aylıq təqaüdü, pensiya və ya müavinət) təyin edilib. Həmçinin Vətən müharibəsi qazilərinin əlilliyinin qiymətləndirilməsi işləri də davam edir. Onlardan 2 min 165 qaziyə əlillik və sosial ödənişlər təyin edilib.

Bu il şəhid ailələri və müharibə əlillərinə 1850 mənzil verilib və ilin sonunadək həmin rəqəm 3 minə çatacaq. Həmçinin müharibə əlillərinin avtomobillə təminatı işləri də davam edəcək.

Bu il 16 min şəxsin özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulub. Onlardan artıq 13 min şəxs proqrama cəlb olunub. Özünüməşğulluq proqramına şəhid ailələri və qazilərin cəlb edilməsi xüsusi qeyd edilə bilər. Vətən müharibəsindən sonrakı bir ildə həmin kateqoriyadan olan 5 min 500-ə yaxın şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun gəlirləri də artmaqda davam edir. Müsbət haldır ki, bu ilin doqquz ayında fondun sosial sığorta daxilolmalarında daha 8 faiz və ya 208 milyon manat artım olub. Büdcə təşkilatları üzrə illik proqnoz da 105 faiz, qeyri-büdcə sektoru üzrə illik proqnoz 113 faiz icra edilib.

Sosial sahədə elektronlaşma proqramı uğurla icra olunur. Nazirliyin elektron xidmətlərinə bu ilin doqquz ayında 11,5 milyon müraciət qeydə alınıb. Bu gün nazirlik üzrə 170 xidmətdən 105-i e-sistemlər üzərindən, o cümlədən 44 e-xidmət proaktiv qaydada göstərilir. Hazırda nazirlik üzrə daha 56 xidmətin də elektronlaşdırılması işləri aparılır. Həmçinin bu ilin yanvar-sentyabr aylarında nazirliyin fəaliyyət sahələri üzrə olan 30 e-arayış xidməti vasitəsilə 465 min e-arayış verilib.

İclasda bir sıra peşə və kvalifikasiya standartlarının təsdiq edilməsi qərara alınıb.

Nazirliyin tabeliyindəki DOST Agentliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyinin bu ilin doqquz ayına dair fəaliyyətinə, habelə sosial müdafiə, pensiya və sosial təminat, təhlil, strateji planlaşdırma və digər aidiyyəti sahələrdə aparılmış işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

# Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.shusha.today portalının təqdimatı olub

Noyabrın 5-də Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə www.shusha.today portalının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, portalda Şuşa şəhərinin yaranması tarixindən başlamış işğal və 44 günlük müharibə zamanı işğaldan azad olunduğu dövrü əhatə edən bütün məlumatlar yerləşdirilib.

Portalın işçi qrupunun üzvü Zaur Məmmədov bildirib ki, 7 bölmədən ibarət olan portalda Şuşanın tarixi, erməni vandalizmi nəticəsində Şuşanın dağıdılmış tarixi və mədəni abidələri, Şuşanın işğaldan azad edilməsi və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu münasibətlə xalqa müraciəti, Prezident İlham Əliyevin bu bölgəyə səfərləri, Şuşada aparılan quruculuq işləri və digər məlumatlar əks olunub.




"Şuşanın qəhrəmanları" bölməsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı və Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının siyahısı təqdim olunub.

"Şuşanın məşhur insanları" bölməsində Şuşada anadan olan, yaşayan, yaradan, Şuşanın tarixində və mədəniyyətinin formalaşmasında misilsiz rolu olan tarixi şəxsiyyətlər barədə məlumat, foto və videomateriallar verilib.

Tədbirdə çıxış edən Xalq yazıçısı Anar deyib: "Qazandığımız Qələbə gözlənilməz olması ilə yanaşı, tarixi və misilsiz bir hadisədir. Buna görə Azərbaycan xalqı öz ordusuna və Ali Baş Komandan İlham Əliyevə minnətdar olmalıdır. Bu 30 il ərzində ermənilər dünyaya o qədər yalanlar danışıblar ki, dünya ictimaiyyətini nəyəsə inandırmaq çətin olacaq. Bununla belə portalın ingilisdilli auditoriyaya ünvanlanması olduqca əhəmiyyətlidir".

Tanınmış alım Elmira Süleymanova qeyd edib ki, düz bir il bundan qabaq analar ruh yüksəkliyi ilə öz oğullarını cəbhəyə göndərir və gözünü qırpmadan düşmənlə üz-üzə gələn oğullarından Zəfəri gözləyirdilər: "Bu həqiqətdir ki, indi ermənilərin yaratdığı mif yavaş-yavaş məhvə doğru gedir. Bu da həqiqətdir ki, bacarıqlı sərkərdə olmasaydı, Azərbaycan bu Qələbəni qazana bilməzdi. Müharibə bir imtahandır. Müharibə göstərdi ki, Azərbaycan xalqı bir yumruq altında birləşə bilər".

Allahdan şəhidlərimizə rəhmət diləyən Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Qarabağda vuruşan qəhrəmanların şücaətindən danışıb.

Xalq yazıçısı Çingiz Abdullayev portalla bağlı fikirlərini bölüşüb: "Xarici dillərdə təbliğat aparmaq olduqca vacibdir. Saytın ingilis dilində hazırlanması geniş auditoriyaya hesablanıb".

8 Noyabr - Zəfər Gününə həsr edilən tədbirdə Əməkdar artistlər Fərqanə Qasımova, Azər Zadə, beynəlxalq müsabiqələr laureatı, pianoçu Səidə Tağızadə və digər sənətçilərin ifalarından ibarət musiqili proqram təqdim olunub.

"Bakı Abadlıq Xidməti" MMC

Azərbaycan xalqını

8 Noyabr - Zəfər Günü

münasibətilə təbrik edir, sülh, xoşbəxtlik, əmin-amanlıq, birlik, firavan həyat, ruzi-bərəkət və xoş gələcək arzulayır



QARABAĞ AZƏRBAYCANDIR!







# Akira MATSUNAQA: “Vətən müharibəsində Zəfər qazanan Azərbaycan dağıdılmış ərazilərini də tezliklə bərpa edəcək”

“Əminəm ki, Vətən müharibəsində böyük Zəfər qazanan Azərbaycan dağıdılmış əraziləri də tezliklə bərpa edəcək, həmin torpaqlarda ən müasir şəhər və kəndlər salınacaq”.

Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə məxsusi müsahibəsində Tokio Sahibkarlığın Tədqiqi İnstitutunun professoru, “ajmedia.jp” saytının baş redaktoru Akira Matsunaqa deyib. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən işğal olunan torpaqları azad etməsini möhtəşəm hadisə adlandıran yapon professor bu münasibətlə Azərbaycan xalqına təbriklərini çatdırıb. Bildirib ki, həmin ərazilər Azərbaycan rəhbərliyinin dəmir iradəsi, Silahlı Qüvvələrin böyük qəhrəmanlığı və şücaəti nəticəsində həqiqi sahiblərinə qaytarılıb. Azərbaycan xalqının bu Qələbəyə sarsılmaz inamı nəticəsində tarixi ədalət bərpa edilib.

Azərbaycanın cəmi 44 gün davam edən döyüşlər nəticəsində Qələbə qazanmasının səbəblərinə toxunan A.Matsunaqa vurğulayıb ki, bunun əsasında, ilk növbədə, Azərbaycan xalqının Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə inamı dayanır. Yapon professor bildirib ki, Azərbaycan rəhbərliyi uzun müddət səbir və təmkin nümayiş etdirərək torpaqları qan tökülmədən, danışıqlar yolu ilə qaytarmağa çalışıb. Bununla yanaşı, ölkə iqtisadiyyatını inkişaf etdirərək müasir ordu quruculuğuna nail olub. Nəticədə Azərbaycanda düşməni həm say, həm keyfiyyət və həm də peşəkarlığı ilə üstələyən ən müasir ordu yaradılıb. Hər bir Azərbaycan əsgəri Vətəninə və məxsus olduğu xalqa sonsuz məhəbbət ruhunda tərbiyə edilib. Bunu döyüşlər zamanı Azərbaycan əsgərlərinin nümayiş etdirdiyi qəhrəmanlıqlar da təsdiqləyir.

Ermənistanın məğlubiyyətinin səbəblərinə gəlincə, professor bunun əsasında özündən razılığın, Azərbaycan Ordusunun gücünün lazımınca qiymətləndirilməməsinin dayandığını bildirib.

A.Matsunaqa Qarabağın tarixi Azərbaycan ərazisi olduğunu vurğulayaraq, bunu ermənilərin işğal etdikləri əraziləri tərk edərkən həmin yerlərdə törətdiyi vandalizm aktlarının təsdiqlədiyini də diqqətə çatdırıb. Bildirib ki, ermənilər həmin əraziləri tərk edərkən həm yaşayış məntəqələrini, həm dini və tarixi abidələri, həm də azərbaycanlılara məxsus qəbiristanlıqları dağıtmaqdan çəkinməyiblər. Bu, yalnız azərbaycanlılara qarşı deyil, bütün insanlığa qarşı törədilmiş ağır vandalizm aktıdır.

Professor vurğulayıb ki, bəzi ermənipərəst kütləvi informasiya vasitələrinin ermənilərə haqq qazandırmaq cəhdlərinə baxmayaraq, bütün dünya onların əsl üzünü gördü. Bunu dağıdılmış və viran qoyulmuş yaşayış məskənlərinin beynəlxalq KİV tərəfindən yayılan görüntüləri bir daha bütün dünyaya göstərdi.

Vətən müharibəsində Azərbaycanın möhtəşəm Qələbəsinin regionun inkişafına və çiçəklənməsinə mühüm təsir göstərəcəyinə inandığını bildirən yapon professor qeyd edib ki, ilk növbədə, doğma evlərindən didərgin düşmüş məcburi köçkünlər öz yaşayış məntəqələrinə dönəcəklər. Xarabalığa çevrilmiş kənd və şəhərlər bərpa olunacaq, bu ərazilərə yeni həyat qayıdacaq. Azərbaycan Prezidenti İlham Əliyev bu ərazilərdə ən müasir şəhər və kəndlərin salınmasına, müasir infrastrukturun yaradılmasına nail olacaq.

Yaponiyanın Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini xatırladan A.Matsunaqa bildirib ki, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin qəbulunda onun ölkəsi fəal iştirak edib. Bu gün isə həmin ərazilərdə “yaşıl enerji” zonalarının, “ağıllı kənd və şəhərlərin” salınmasında yapon şirkətləri yaxından iştirak edirlər. Yapon investorlar isə Azərbaycanın inkişafını həmişəki kimi, yaxından dəstəkləyirlər. Azərbaycanın yaxın dostu olan Yaponiya bu nəhəng bərpa və quruculuq işlərində xalqımıza uğurlar arzulayır.

# Vətən müharibəsi şəhidlərinin xatirəsinə abidə ucaldılıb

Lənkəran rayonunun Girdəni kəndində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsinə tikilmiş abidə-kompleksinin açılış mərasimi keçirilib. Tədbirdə şəhidlərin ailə üzvləri, Qarabağ qaziləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.





Şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq abidə kompleksi üzərinə tər çiçəklər düzülüb. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxışında bildirib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində rəşadətli ordumuzun erməni işğalçılarını darmadağın etdiyi 44 günlük Vətən müharibəsinin qələbə ilə başa çatmasından bir il ötür. Bu qanlı-qadalı müharibədə qəhrəmancasına vuruşaraq düşmənə sarsıdıcı zərbələr vuran igidlərimiz arasında lənkəranlı gənclər də var. Onlardan bəziləri vətən torpaqlarının işğaldan azad olunması yolunda şəhidlik zirvəsinə yetişmiş, bəziləri isə yaralanaraq qazi olmuşlar.

Lənkəranda Vətən müharibəsi şəhidlərinə və qazilərə böyük ehtiramın bəslənildiyini, xatirələrinin əbədiləşdirilməsi məqsədilə adlarına bulaqların tikildiyini, xatirə lövhələrinin vurulduğunu, ad və anım günləri ilə bağlı tədbirlərin, mərasimlərin keçirildiyini diqqətə çatdıran T.Qaraşov onların vətən qarşısında xidmətlərinin heç vaxt unudulmayacağını, qəhrəmanlıqlarının hər zaman gənc nəslə örnək olacağını söyləyib.

Daha sonra çıxış edən şəhid anası Bəyimağa Ağayeva, Girdəni kənd Ağsaqqallar Şurasının sədri Məmmədxan Kərimov və Girdəni kənd sakini Namiq Bağırov Vətən müharibəsi şəhidlərinin qəhrəmanlığını yüksək dəyərləndirərək onların xatirəsinin əbədiləşdirilməsi sahəsində görülən davamlı işlərə görə ölkə Prezidentinə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını çatdırıblar.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

# Tovuzda şəhidlərin xatirəsini əbədiləşdirən bulaq kompleksi istifadəyə verilib

Zəfər Günü ərəfəsində Tovuz rayonunun Aşağı Mülkülü kəndində Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalan Eminalıyev Orxan Eyvaz oğlunun və Alıyev Qələndər Nofəl oğlunun xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub.





Açılış mərasimində rayon icra hakimiyyətinin məsul əməkdaşları, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri, şəhidin yaxınları iştirak ediblər.

Mərasimdə çıxış edənlər Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən ilin sentyabrın 27-də başlanan və Zəfərlə başa çatan Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən danışmış və qeyd etmişlər ki, şərəfli döyüş yolu keçən Orxan və Qələndərin, eləcə də onlar kimi yüzlərlə igid oğullarımızın xatirəsi heç vaxt unudulmayacaq.

Xatirə bulağının açılışında məktəblilərin ifasında Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib.

Zəfər Günü ilə əlaqədar Tovuz Rayon Mədəniyyət Mərkəzində şəhidlərin mülki həyatda olan fotoşəkillərindən ibarət “Keçən günlər müqəddəs bir xatirədir” adlı sərgi də təşkil edilmişdir. Sərgi noyabrın 10-dək davam edəcəkdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5590
Sifariş 2173
Qiyməti 40 qəpik


Qarabağ
Azərbaycandır!
Taleyimiz bir olan can Azərbaycana əsrin dörddə biri qədər xidmət etməkdən qürur hissi keçirən Tekfen İnşaat Azərbaycan torpaqlarının işğal altından azad edilməsinin ildönümünü ürəkdən təbrik edir.
TEKFEN
TEKFEN İNŞAAT